Xalqın qəzeti!
# Xalq qəzeti
№ 59 (31028) 9 aprel 2026-cı il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Azərbaycan lideri Yaxın Şərqdə atəşkəsi alqışlayır

**Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.**

Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb.

Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Azərbaycan – Qazaxıstan dostluğu və qardaşlığı çoxtərəfli əməkdaşlığın sarsılmaz təməlidir

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Qazaxıstan Respublikasının xarici işlər naziri Yermek Koşerbayevi və nəqliyyat naziri Nurlan Sauranbayevi qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələrinin əməkdaşlıq və qardaşlıq ruhunda inkişaf etdiyini məmnunluqla vurğulayaraq, dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı aparılmış müzakirələrin, qəbul olunmuş qərarların, həmçinin Azərbaycandan Qazaxıstana, Qazaxıstandan isə ölkəmizə müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin səfərlərinin xalqlarımızı və ölkələrimizi daha da yaxınlaşdırdığını, qarşılıqlı fəaliyyətin potensialını möhkəmləndirdiyini dedi.

Dövlətimizin başçısı birgə investisiya fondunun imkanlarından tam istifadə ediləcəyinə ümidvarlığını bildirdi, bir neçə layihənin artıq işlənmə mərhələsində olduğunu vurğuladı və Azərbaycanla Qazaxıstanın üçüncü ölkələrə birgə investisiya yatırmaq potensialına toxundu.

Prezident İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərinin Azərbaycana səfərinin uğurlu olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Qazaxıstanın xarici işlər naziri dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Yermek Koşerbayev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Qonaq Qazaxıstanda Azərbaycan Prezidentinə çox böyük hörmətlə yanaşıldığını vurğuladı.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında münasibətlərin bir çox sahədə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, logistika, investisiyalar, enerji, həmçinin yaşıl enerji və digər istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edilərək, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı Orta Dəhliz, Trans-Xəzər Yaşıl Enerji Dəhlizi və fiber-optik xətti layihələrinə toxunuldu, bu çərçivədə Azərbaycanla Qazaxıstanın uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşma prosesinin və Ermənistan ərazisindən keçəcək TRIPP layihəsinin regional əməkdaşlıq və nəqliyyat bağlantıları baxımından rolu qeyd edildi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu tərəfdaşlığı vurğulandı və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

## Yaxın Şərqdə “atəşkəs nəfəsliyi”



Səhifə ⇨ 11

## Özünüməşğulluq – kiçik biznesə keçidə dəstək

Səhifə ⇨ 8

## Məqsəd həmişə vasitəyə bəraət qazandırır




Səhifə ⇨ 4

## Mina təhlükəsi – Qarabağda ölümsaçan kabus



Səhifə ⇨ 5

## Erməni toplumu sabitlik sorağında



Səhifə ⇨ 5

## Serbiyaya qaz ixracının müddəti uzadılıb



Səhifə ⇨ 7

## Rəqəmsal gələcəyin inqilabi strategiyası



Səhifə ⇨ 9

## Niyə “çörəyimizin yarısı” qonşudan gəlir?

**Azərbaycan cəmiyyətində çörək gündəlik ərzaq məhsulu olmaqla bərabər, həm də ailə büdcəsinin, sosial rifahın və dövlətin iqtisadi sabitliyinin ən həssas göstəricilərindən biri sayılır. Bu səbəbdən ölkəmizdə buğda istehsalı prioritet istiqamət kimi daim diqqət mərkəzində saxlanılır. Bu sahənin idxaldan asılılığı nəzərə alınaraq önəmli layihələr həyata keçirilir.**



Məsələnin mahiyyəti isə sadədir: əgər buğdanın böyük hissəsi kənardan gətirilirsə, deməli, çörəyin qiymətini də birbaşa xarici bazarlar müəyyən edir. Qlobal bazarda qiymətlər bahalaşanda, yaxud hansısa ölkə ixracı məhdudlaşdıranda Azərbaycanın daxilində də gərginlik nəzərə çarpır. Başqa sözlə, buğda idxalı ticarət əməliyyatı olmaqla bərabər, həm də ərzaq təhlükəsizliyinin həssas nöqtəsi kimi diqqət çəkir.

*(ardı 8-ci səhifədə)*

## Türk birliyinin hərbi təhlükəsizlik əməkdaşlığı



Səhifə ⇨ 4

# Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər.**



Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Samir Rzayev dövlətimizin başçısına və birinci xanıma mərkəzin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır.

Mərkəzdə, həmçinin hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsinə imkan verən müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Bundan başqa, Mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən "A320/A321 NEO CEET" tipli yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək.

Mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq.

Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.

***AZƏRTAC***



## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2023-cü il 1 may tarixli 2130 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575 (Cild I); 2024, № 12 (II kitab), maddə 1360) 3.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. TƏBİB-in Müşahidə Şurası Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisindən (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavinindən, Azərbaycan Respublikası səhiyyə nazirinin müavinindən, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədrindən ibarət tərkibdə formalaşdırılır;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 634 (Cild I) ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin 4.4-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Şuranın tərkibinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavini, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri daxildir.".

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

## Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin birinci müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin müavinləri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Hüquq şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Standartlaşdırma, texniki tənzimləmə və sertifikatlaşdırma şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İstehlak bazarına nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

## "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

**Müşahidə Şurasının üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

## "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 1-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavinləri" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının rəhbəri".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

## "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 62 (Cild I) birinci hissəsində "Azər Bayramov – Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "Anar Kərimov – Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” 1999-cu il 4 avqust tarixli 176 nömrəli, “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” 2000-ci il 6 mart tarixli 291 nömrəli, “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında” 2020-ci il 27 mart tarixli 975 nömrəli, “İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında” 2021-ci il 18 mart tarixli 1304 nömrəli və “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823; 2025, № 8, maddə 750) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-3-cü bənddə “səkkizinci – on birinci” sözləri “səkkizinci, onuncu və on birinci” sözləri ilə əvəz edilsin;

1.2. 2.1-4-cü bənddən “12-ci maddəsinin 5-ci hissəsində,” sözləri çıxarılsın;

1.3. 2.1-5-ci bənd 2.1-6-cı bənd hesab olunsun və aşağıdakı məzmunda 2.1-5-ci bənd əlavə edilsin:

“2.1-5. həmin Məcəllənin 6-cı maddəsinin doqquzuncu abzasında nəzərdə tutulmuş dövlətin vəzifələrini və 12-ci maddəsinin 4-cü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;”;

1.4. aşağıdakı məzmunda 2.10-1-ci bənd əlavə edilsin:

“2.10-1. həmin Məcəllənin 12-ci maddəsinin 5-ci hissəsində “orqan (qurum)” dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Əmlak Məsələləri Dövlət Xidməti qismində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”.

**2.** “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); 2024, № 6 (I kitab), maddə 665, № 7, maddə 823, № 8, maddə 938, № 11, maddə 1202) 1-ci hissəsinin səkkizinci abzasından “12-ci maddəsinin 4-cü hissəsində,” sözləri çıxarılsın.

**3** “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541, № 10, maddə 900) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 3.0.38-1-ci yarımbənd əlavə edilsin:

“3.0.38-1. Nazirliyin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlar vasitəsilə, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna, faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair rəy vermək;”;

3.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti haqqında Əsasnamə”nin 3.0.15-ci yarımbəndinə “yaratmaq” sözündən sonra “, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna dair rəy vermək” sözləri əlavə edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş “Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi”nin 3.1.12-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.1.12. faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair rəy vermək;”.

**4** “İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 mart tarixli 1304 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 228 (Cild I) 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“1.3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”na uyğun olaraq, tikinti və faydalı qazıntı yataqlarının istismarı məqsədləri üçün ayrılması nəzərdə tutulan torpaq sahələrinin kateqoriyalara aid edilməsi və ya onların bir kateqoriyadan digərinə keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edilməsi.”.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2024, № 9, maddə 1006) ilə təsdiq edilmiş “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissə üzrə:

5.1.1. 1.4-cü bəndə “(bundan sonra – Nazirlər Kabineti)” sözlərindən sonra “, Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin” sözləri əlavə edilsin;

5.1.2. 1.5-ci bəndə “Nazirlər Kabinetinin” sözlərindən sonra “, Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə isə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin” sözləri əlavə edilsin;

5.1.3. 1.7-ci bənddə “2025-ci” sözləri “2026-cı” sözləri ilə əvəz olunsun, həmin bəndə ikinci halda “obyektlərinin” sözündən sonra “(infrastruktur obyektlərinin)” sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Həmin Fərmanla müəyyən edilmiş qaydada təqdim edilən vəsatət və ona əlavə olunan istismarına icazə verilmiş qeyri-yaşayış binasının (infrastruktur obyektinin) yerləşdiyi torpaq sahəsinin yerquruluşu planı əsasında torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi barədə qərar qəbul edilir.”;

5.1.4. 1.14-cü bəndə “(bundan sonra – Xidmət)” sözlərindən sonra “, Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra – Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)” sözləri əlavə edilsin;

5.1.5. 1.15-ci bəndə “Xidmət” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)” sözləri əlavə edilsin;

5.1.6. 1.19-cu bənddə “Meşə” sözü “Bu Qaydaların 1.18-ci bəndində nəzərdə tutulan hallarda, habelə meşə” sözləri ilə əvəz edilsin, həmin bənddən “habelə” və “şərti” sözləri çıxarılsın;

5.2. 2-ci hissə üzrə:

5.2.1. 2.1.17-ci yarımbənddə “2025-ci” sözləri “2026-cı” sözləri ilə əvəz edilsin;

5.2.2. 2.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.3.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi – Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan hallarda, habelə meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaqların kənd təsərrüfatına az yararlı və ya yararsız torpaq sahələri ilə əvəzləşdirilməsinin məqsədəuyğunluğuna, faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, həmçinin torpaqların kateqoriyasının dəyişdirilməsinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğuna dair;”;

5.2.3. aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

“2.4. Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə bu Qaydaların 2.3.1–2.3.4-cü yarımbəndlərində nəzərdə tutulmuş səlahiyyətləri, müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər.”;

5.3. 3-cü hissə üzrə:

5.3.1. 3.1-ci bəndə “Xidmətə” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)” sözləri əlavə edilsin;

5.3.2. 3.2.4-cü yarımbənd üzrə:

5.3.2.1. 3.2.4.2-ci abzas aşağıdakı redaksiyada verilsin:

“3.2.4.2. xüsusi mülkiyyətdə və ya uzunmüddətli istifadədə olan torpaqlara münasibətdə mülkiyyətçi (istifadəçi və ya icarəçi) fiziki şəxs olduqda – onun şəxsiyyətini təsdiq edən sənədin surəti (müraciət torpaq mülkiyyətçisinin (istifadəçi və ya icarəçinin) adından başqa şəxs tərəfindən edildikdə, notariat qaydasında təsdiq edilmiş etibarnamənin surəti), mülkiyyətçi (istifadəçi və ya icarəçi) hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri;”;

5.3.2.2. 3.2.4.3-cü abzasa “Nazirliyinin” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin)” sözləri əlavə edilsin;

5.3.2.3. 3.2.4.5-ci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.4.6-cı və 3.2.4.7-ci abzaslar əlavə edilsin:

“3.2.4.6. kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda və ya bu Qaydaların 1.11-ci bəndinə əsasən torpağın məqsədli təyinatının dəyişdirilməsi zərurəti yarandıqda, mülkiyyət növündən asılı olmayaraq kateqoriyası və ya məqsədli təyinatı dəyişdirilən torpaq sahəsinin əkinəyararlılıq vəziyyətinin müəyyən edilməsi məqsədilə “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş sınaq laboratoriyası tərəfindən verilmiş aqrokimyəvi analizlərin nəticələrinə dair sənəd;

3.2.4.7. bu Qaydaların 2.1.2-ci, 2.1.4-cü, 2.1.14-cü və 2.1.16-cı yarımbəndlərinə əsasən kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, mülkiyyət növündən asılı olmayaraq kateqoriyası dəyişdirilən torpaq sahəsində həyata keçiriləcək layihənin məqsədi və aid olduğu fəaliyyət sahəsi, habelə səmərəliliyi barədə məlumatlar qeyd edilməklə iqtisadi əsaslandırılma.”;

5.3.3. 3.3-cü bəndə və 3.4-cü bəndin birinci və beşinci cümlələrinə “Xidmət” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)” sözləri əlavə edilsin;

5.3.4. 3.5-ci bənd üzrə:

5.3.4.1. birinci cümləyə “Xidmət” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)” sözləri əlavə olunsun və həmin cümlədə “2.3.1-ci, 2.3.3-2.3.6-cı” sözləri “2.3.1 – 2.3.6-cı” sözləri ilə əvəz edilsin;

5.3.4.2. ikinci cümlədə “10 (on)” sözləri “15 (on beş)” sözləri ilə əvəz edilsin;

5.3.5. 3.7-ci bənd üzrə:

5.3.5.1. birinci cümləyə “Xidmət” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət)” sözləri əlavə edilsin;

5.3.5.2. üçüncü cümlədə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə” sözləri “Xidmət tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə)” sözləri ilə əvəz edilsin;

5.3.6. 3.8-ci bəndə “Nazirliyi” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi)” sözləri, “məlumatları” sözündən sonra “və Nazirlər Kabinetinin (Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin) razılaşdırılmış sərəncamı layihəsini” sözləri və “Nazirlər Kabinetinə” sözlərindən sonra “(Naxçıvan Muxtar Respublikasında torpaqlara münasibətdə – Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə)” sözləri əlavə edilsin;

5.3.7. 3.9-cu bəndin birinci cümləsindən “Nazirlər Kabineti tərəfindən” sözləri çıxarılsın və həmin cümləyə “Xidmətə” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)” sözləri əlavə edilsin;

5.3.8. aşağıdakı məzmunda 3.11-ci və 3.12-ci bəndlər əlavə edilsin:

“3.11. Bu Qaydaların 2.1.12-ci yarımbəndində göstərilən əsaslar üzrə yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi müvafiq ərazinin ərazi planlaşdırılması sənədlərində, ərazilərin zonalaşdırılmasında nəzərdə tutulmuş dəyişikliklərə uyğun olduqda, həmçinin həmin ərazidə infrastruktur və mühəndis-kommunikasiya təminatı sistemləri imkan verdikdə həyata keçirilir. Bu məqsədlə, aidiyyəti yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin müvafiq ərazilərdə salınmış yaşayış massivlərində həyata keçirdikləri monitorinqlərin nəticələri və onların sifarişi ilə Xidmətin (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət) apardığı kompleks yerquruluşu işlərinin nəticələrinə istinad edilməklə hazırlanmış yerquruluşu planları (xəritələri) əsasında yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin əsaslandırılmış təklifləri hazırlanır və Xidmətə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə) təqdim edilir. Həmin təkliflər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti (Naxçıvan Muxtar Respublikasında müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla, həmin yaşayış massivlərində normativ hüquqi aktlarla müəyyən edilmiş ərazi planlaşdırılması və şəhərsalma tələblərinə uyğun olaraq kompleks təhlil aparılmaqla, ümumi yaşayış massivi yanaşması əsasında bütün ərazinin kateqoriyasının dəyişdirilməsi barədə müvafiq qərarın qəbul edilməsi üçün Xidmət tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi vasitəsilə Nazirlər Kabinetinə (Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi vasitəsilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə) təqdim edilir.

3.12. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində tikinti və faydalı qazıntı yataqlarının istismarı məqsədləri üçün ayrılması nəzərdə tutulan torpaq sahələrinin kateqoriyalara aid edilməsi və ya onların bir kateqoriyadan digərinə keçirilməsi, fəaliyyət sferalarına (maraqlarına) toxunulan dövlət orqanlarının, eləcə də Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin rəyləri və torpaq sahələrinin yerquruluşu planları əlavə edilməklə, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Xidmətə müraciəti əsasında, bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilir.”;

5.4. 4.3-cü bəndə “Xidmətə” sözündən sonra “(Naxçıvan Muxtar Respublikasında müvafiq Xidmətə)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2026-cı il**

---

# Ceyhun Bayramovun iranlı və ukraynalı həmkarı ilə telefon danışığı

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və əldə olunmuş atəşkəs barədə fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov elan olunmuş atəşkəsi alqışlayıb. Atəşkəsin təmin olunmasının gərginliyin azaldılması, danışıqların uğurla nəticələnməsi və sabitliyin bərqərar olunması baxımından əhəmiyyəti vurğulanıb.

Atəşkəsin əldə olunmasında vasitəçi ölkələrin, xüsusilə də dost və qardaş Pakistanın rolu təqdir olunub.

C.Bayramov atəşkəs rejiminə riayət olunmasının vacibliyini qeyd edərək, vəziyyətin diplomatik yollarla həllinin önəmini diqqətə çatdırıb, İslamabadda aparılacaq danışıqların nəticəyönümlü və məhsuldar olacağına ümidvar olduğunu bildirib.

Nazirlər qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

*

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ukraynanın xarici işlər naziri Andrey Sibiqa arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan və Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin aktual məsələləri, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq müzakirə olunub.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Litvanın Baş naziri Azərbaycana səfərə gəlib

**Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**



Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Litvanın Baş naziri İnqa Ruqinieneni hava limanında Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

***XQ***

# Türk birliyinin hərbi təhlükəsizlik əməkdaşlığı

## *“Anadolu Ankası - 2026” təlimi yaxın gələcəyin geostrateji konturlarını müəyyənləşdirir*

**Türkiyənin Konya şəhərində müxtəlif dövlətlərin hərbi kontingentinin iştirakı ilə start verilən “Anadolu Ankası - 2026” beynəlxalq axtarış-xilasetmə təlimi regional təhlükəsizlik memarlığının möhkəmləndirilməsi istiqamətində atılmış strateji gedişdir. Genişmiqyaslı hərbi manevrlər yalnız taktiki tapşırıqların icrası mənasını daşımır, eyni zamanda, müttəfiq ölkələrin qlobal təhdidlərə qarşı ortaq müdafiə reflekslərinin kəskinləşdirilməsini təmin edir.**

Hərbi ittifaqların effektivliyi bilavasitə komandanlıq mərkəzlərinin sinxron qərar qəbuletmə bacarıqlarından asılıdır. Həyata keçirilən təlimlər çərçivəsində iştirakçılar qarşılıqlı etimad mühitini dərinləşdirməklə yanaşı, ehtimal edilən böhran ssenarilərinə hazırlıq səviyyəsini maksimum həddə çatdırırlar. Silahlı qüvvələrin koordinasiyalı fəaliyyəti, qabaqcıl texnologiyaların sintezi və əməliyyatların sinxron şəraitdə sınaqdan keçirilməsi gələcək onilliklərin təhlükəsizlik doktrinasını indidən cızır.

Manevrlərin təşkilində əsas məqsəd fərqli ölkələrin axtarış-xilasetmə qüvvələri arasında qarşılıqlı fəaliyyətin və operativ uyğunluğun artırılması, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi heyətin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsidir. Taktiki proseslərə əsasən, qəza vəziyyətlərində ekipaj üzvlərinin axtarılması və xilas edilməsi, suda və quruda, eləcə də çətin relyef şəraitində xilasetmə əməliyyatlarının effektiv icrası qarşıya qoyulan prioritet hədəflərdir. Hadisələrin inkişaf dinamikası göstərir ki, müasir hərb sənəti yüksək texnologiyaların tətbiqini və çevik reaksiya qabiliyyətini imperativ tələb şəklində irəli sürür.

Məşqlər zamanı pilotların təhlükəsiz təxliyəsi, havadan dəstəyin təmin olunması və aviayönləndiricilərin fəaliyyətinin təkmilləşdirilməsi üzrə bacarıqların inkişaf etdirilməsi personalın ekstremal situasiyalarda həyatdaqalma əmsalını kəskin şəkildə artırır. Mürəkkəb iqlim və relyef şərtlərində planlaşdırılan fəaliyyətlər hərbçilərdən müstəsna psixoloji dözümlülük və qüsursuz fiziki hazırlıq tələb edir. Müştərək əməliyyatlar zamanı toplanan təcrübə fərqli ordu strukturlarının eyni komandanlıq altında maneəsiz şəkildə koordinasiya olunmasına zəmin yaradır.

* * *

Aprelin 17-dək davam edəcək beynəlxalq təlimdə Azərbaycanı Hərbi Hava Qüvvələrinin pilotları, paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, aviayönləndiricilər, texniki heyət və aviasiya vasitələri təmsil edir. Rəsmi Bakının hərbi-strateji prosesdə fəal təmsilçiliyi dövlətimizin milli müdafiə sənayesinin və ordu potensialının müasir standartlara tam cavab verdiyini bütün dünyaya nümayiş etdirir. Azərbaycan hərbçilərinin qabaqcıl texnologiyalara əsaslanan təlimlərdə yer alması ölkəmizin geostrateji maraqlarının dövlət sərhədlərindən kənarda da etibarlı şəkildə qorunacağına zəmanət verir.

Xüsusi təyinatlı mütəxəssislərin müttəfiq qüvvələrlə birgə mürəkkəb tapşırıqları icra etməsi Milli Ordumuzun operativ reaksiya qabiliyyətinin ən yüksək pilləyə çatdığını təsdiqləyir. Təlim çərçivəsində mənimsənilən yeni taktiki gedişlər Azərbaycan Silahlı Qüvvələrinin fasiləsiz modernləşmə strategiyasının ayrılmaz tərkib



hissəsidir. Peşəkar heyətin beynəlxalq səviyyədə, aparıcı doktrinalara uyğun şəkildə formalaşması dövlətin siyasi masadakı çəkisini ağırlaşdıran başlıca amillərdəndir.

Məsələnin qlobal siyasət müstəvisində diqqətçəkən tərəfi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ehtimal edilən ortaq hərbi fəaliyyət imkanlarıdır. Bu təşkilatın coğrafi əhatə dairəsi və geosiyasi mövqeyi durmadan yüksəlir. Türk dövlətlərinin “Anadolu Ankası - 2026” formatında, yaxud analoji genişmiqyaslı təlimlərdə iştirak potensialı Avrasiya qitəsində fərqli hərbi-siyasi ittifaqın rüşeymlərini cücərdir. Təşkilat daxilində iqtisadi və mədəni əlaqələrin ardınca təhlükəsizlik mexanizmlərinin dərinləşdirilməsi, müvafiq ölkələrin kənar hərbi müdaxilələrə qarşı ortaq müqavimət gücünü formalaşdırır. Yaradılacaq ortaq hərbi platformalar regionda sabitliyin uzunmüddətli qorunmasına xidmət edəcək qalxandır. Yaranan siyasi-hərbi mənzərə aydın şəkildə sübut edir ki, türkdilli respublikalar qlobal kataklizmlər şəraitində kənar seyrçi statusu ilə kifayətlənmir, əksinə, beynəlxalq təhlükəsizlik arxitekturasının aktiv memarları qismində çıxış edirlər. Qitələrarası miqyasda hegemon güclərin nəzərləri məhz sadalanan əməkdaşlıq modellərinin nəticələrinə yönəlib.

Taktiki xüsusiyyətlərin detallı araşdırılması sübut edir ki, gələcəyin müharibələri bilavasitə havada və virtual informasiya məkanında qazanılacaq. Elektron harp sistemlərinin, peyk vasitəsilə mərkəzdən idarə olunan kəşfiyyat mexanizmlərinin axtarış-xilasetmə əməliyyatlarına dərindən inteqrasiyası iştirakçı qruplaşmalara strateji üstünlük qazandırır. Mövcud təlimlərdəki texnoloji alətlər tərəflərin informasiya hegemoniyasını tam olaraq ələ aldığını isbatlayır.



Müxtəlif qitələrdən gələn, fərqli ştat cədvəlinə malik orduların vahid komandanlıq şəbəkəsi daxilində tam koordinasiyası, qabaqcıl idarəetmə protokollarından sinxron istifadə edilməsi hərbi tərəfdaşlığın inkişaf səviyyəsini səciyyələndirir. Qarşılıqlı nəzəri və praktiki mübadilənin mütəmadi xarakter alması silahlı bölmələrin intellektual döyüş əmsalını maksimum səviyyəyə qaldırır. Ardıcıl və məqsədyönlü atılan oxşar addımlar rəqib qütblərə göndərilən son dərəcə sərt, diplomatik preventiv siqnal funksiyasını yerinə yetirir.

Texnoloji inqilabın hərb elminə gətirdiyi mühüm yeniliklər anında adaptasiya bacarığı tələb edir. İcra edilən əməliyyatlar arealında istifadə edilən müasir aviasiya və kəşfiyyat platformaları zərbə dəqiqliyini dəfələrlə artırmaqla bərabər, hərbi itkilərin tamamilə minimuma endirilməsi hədəfinə hesablanıb. Qoşun növləri havadan səmərəli kəşfiyyat şəbəkələri vasitəsilə cəm edilən məlumatların heç vaxt itirilmədən dərhal yerüstü qüvvələrə ötürülməsi alqoritmini mükəmməlləşdirirlər.

Həyata keçirilən irimiqyaslı simulyasiyalar qlobal müdafiə doktrinalarının tamamilə fərqli orbitə keçdiyini sübuta yetirən təkzibedilməz amildir. Kütləvi kinetik müdaxilə əvəzinə sarsıdıcı texnoloji üstünlüyün tətbiqi ən mürəkkəb münaqişələrin gedişatını qısa müddət ərzində yekunlaşdırmağa imkan tanıyır. Hərbi blokların sürətlə genişlənən logistik infrastrukturu ən çətin xilasetmə əməliyyatlarının uzaq məsafələrdə, məhdudiyyət tanımadan fasiləsiz təşkilinə şərait yaradır.

Konya şəhərində baş tutan beynəlxalq axtarış-xilasetmə təlimləri qlobal güc tərəzisinin tarazlanmasında ciddi əhəmiyyətə malikdir. Azərbaycan hərbçilərinin həmin qabaqcıl manevrlərdə aparıcı sima kimi fəal iştirakı, qardaş Türkiyə ilə sarsılmaz müttəfiqlik bağları, həmçinin Türk Dövlətləri Təşkilatının artan beynəlxalq hərbi nüfuzu gələcəyin geostrateji konturlarını yeniləyir. Beynəlxalq təhlükəsizliyin qorunması məqsədilə atılan planlı, rasional və ardıcıl addımlar tərəfdaş dövlətlərin suverenliyini kənar təhdidlərdən mütləq şəkildə sığortalayır.

Sürətlə dəyişən geosiyasi nizam daxilində qabaqlayıcı və peşəkar fəaliyyətlər region xalqlarının təhlükəsiz rifahının yeganə qarantıdır. Ortaya qoyulan siyasi iradə və nümayiş etdirilən texnoloji qüdrət bölgədə uzunmüddətli sülh arxitekturasının heç vaxt sarsılmayacağını qəti şəkildə təsdiqləyir. Tarixi köklərə əsaslanan və müasir standartlarla formalaşan strateji inteqrasiya davamlı inkişaf üçün etibarlı yol xəritəsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Məqsəd həmişə vasitəyə bəraət qazandırır

## *Yaxud Ermənistanda seçki qanunvericiliyinə dəyişikliyə sözardı*

**Ermənistanda seçki qanunvericiliyinə dəyişiklik ətrafında söz-söhbət səngimir. Görünür, bu il iyunun 7-nə, yəni parlament seçkilərinin keçiriləcəyi günədək hələ çox müvafiq sənədlər fərqli hala salınacaq, çox hadisə və proseslər yaşanacaq. Yazımız bu barədədir, eyni zamanda, Ermənistanda seçki hazırlığının ayrı-ayrı detallarından söz açacağıq.**

Əlbəttə, Baş nazir Nikol Paşinyan administrasiyasının məqsədi bəllidir. Hay hakim komandası özünü ölkədəki Rusiya meyilli qüvvələri neytrallaşdırmağa kökləyib. İlk baxışdan, təəccüblü heç nə yoxdur. Amma bəzi detallar var ki, onların üzərində dayanmağa ehtiyac var. Çünki Ermənistandakı seçkilər bütövlükdə Cənubi Qafqaz coğrafiyası baxımından önəmlidir.

N.Paşinyanın Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı tam aydın oldu ki, Kreml Ermənistandakı seçkilərə yönələn plana malikdir. Görüşdə səslənmiş fikirlər bunun təsdiqidir. Amma qəribə durum var. Əvvəlcə ona nəzər salaq. Deməli, Putin Paşinyanla görüşdə ondan həm də Rusiya vətəndaşı olan şəxslərin seçkidə iştirakına şərait yaratmağı xahiş etdi. İkinci isə prosesə yalnız erməni pasportu daşıyan şəxslərin qatılmasının mümkünlüyünü bildirdi. Sual yaranır: Putin Paşinyanın cavabının nədən ibarət olacağını bilmirdi? Axı mümkün deyil ki, bilməsin. Tam aydındır ki, Putin hazırda Ermənistanda həbsdə olan iş adamı Samvel Karapetyanı nəzərdə tutur. Görüşdən sonra istər Rusiyadakı, istərsə də Ermənistandakı siyasi icmalçılar Kreml rəhbərinin məhz Karapetyanla bağlı mesaj verdiyini vurğuladılar. Aydındır ki, bu mesajdan sonra Samvelin azadlığa çıxması məsələsi qəlizləşəcək. Elə əvvəldən də qəliz idi.

O zaman Putin nə üçün belə bir mesaj səsləndirdi? Paşinyanın, ilk baxışdan, saymazyana təsir bağışlayan cavabını eşitmək üçün? Belə qənaətə gəlmək mümkündür ki, Rusiya lideri Ermənistandakı müxaliflərə mübarizə tapşırığı verdi. Onlara çox açıq şəkildə “qorxmayın, biz sizinləyik” dedi. Söhbət bu mesajın reallıqla uzlaşma payının nə dərəcədə olmasından gedir. Bunu zaman göstərəcək...

Əlbəttə, Putin-Paşinyan görüşünün detalları barədə söz açmaq niyyətindən uzağıq. Amma tam birmənalıdır ki, bir neçə gün əvvəl Ermənistanda seçki qanunvericiliyinə edilmiş qəfil dəyişiklik məhz həmin görüşün ruhundan qaynaqlanır və qeyd etdiyimiz məqama söykənərək Nikolun Putinlə nə üçün görüşdüyünün məqsədini anlamaq mümkündür.




Əvvəlki saylarımızda vurğulamışdıq ki, Ermənistan lideri Rusiyanı “tələyə salmağı” bacardı. Bütün dünya bir daha gördü ki, Ermənistanın daxili işlərinə qarışmağa çalışan, beynəlxalq hüquq prinsiplərini bu ölkəyə münasibətdə də heçə sayan Rusiya var və Kremlin İrəvanda hakimiyyəti dəyişmək istəklərinə girişmək ehtimalı labüddür. Paşinyan da diqqəti məhz buna çəkmək istəyirdi və çəkdi də. Deməli, dünya adekvat davranmalı, anti-Rusiya cəbhəsinin Cənubi Qafqaz səngərini boş qoymamalıdır. Amma...

“Əmma” barədə bir qədər sonra. Hələlik etiraf edək ki, Nikolun diqqətə çatdırdığımız siyasi gedişini kifayət qədər tutarlı saymaq mümkündür. İndi isə o, həmin gedişin, bir növ, dividendlərini işə salır. Elə isə bilavasitə seçki qanunvericiliyinə dəyişikliyin mahiyyəti üzərində dayanaraq Paşinyanın qazandığı dividendin nədən ibarət olduğuna aydınlıq gətirək.

Deməli, Ermənistan parlamenti təcili şəkildə seçki qanunvericiliyinə bloklar və partiyalar tərəfindən şəxsi adların istifadəsini qadağan edən düzəlişlər qəbul edib. Bu təşəbbüsün sırf S.Karapetyana görə həyata keçirildiyi birmənalıdır. Axı iş adamının “Güclü Ermənistan” partiyası var. Bu partiya seçkiyə digər partiyalarla blok şəklində qatılırsa, dəyişikliyə görə, gedişatda Samvelin adı hallana bilməz.

O da məlumdur ki, təklikdə Karapetyanın “Güclü Ermənistan”ı heç nəyə yaramır. Yəni qurum yalnız rusbaşlıların konsolidasiyası ilə nəyəsə nail ola bilər. Amma bu zaman mərkəzdə dayanan fiqur olmalıdır. Ona görə erməni müxaliflər bildirirlər ki, ölkə hakimiyyətinə etimadın azalması və mövqeləri qorumaq zərurəti fonunda N.Paşinyan hökuməti Karapetyanın populyarlığının artmasına həssas reaksiya verir. Yəni əks qütbün təmsilçiləri sözügedən dəyişikliyin məğzini bunda görürlər.

Əlbəttə, erməni müxaliflərin fikirlərində müəyyən həqiqət payı var. Aydındır ki, Nikol Moskvada Ermənistan demokratiyasını nə qədər reklam etməyə çalışsa da, ölkədəki real durumun demokratiya ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Seçki isə savaşdır və burada “məqsəd vasitəyə bəraət qazandırır” deyimi aktualdır. Paşinyanın məqsədi iyun seçkilərində qələbə qazanmaq və hakimiyyətdə qalmaqdır.

Haqqında söz açdığımız “əmma” odur ki, Nikol məqsədə çatmaq üçün ehtiyatlı olmalı, antidemokrat libasa bürünməməlidir. Ona görə də o, pafosa güc verir və siyasi müstəviyə ölkənin gələcəyi məsələsini gətirir. Yəni Paşinyan və komandası elə ovqat yaradır ki, qarşıdakı parlament seçkiləri Ermənistan adlı məmləkət üçün ölüm-dirim savaşıdır. Savaşda bütün vasitələrin keçərli olduğunu isə bildirdik. Məsələn, Paşinyan çox tez-tez “eks” hakim siyasilərin dövrünü yada salır, ölkənin bütün bəlalarını onlarla əlaqələndirir. O “eks”lər ki, Rusiya ilə bağlıdırlar. Deməli, Nikola “Ermənistanı yaman günə qoyanların” Moskva ilə əlaqəliliyi kontekstini ictimai rəyə yeritmək lazımdır və istəyinə çatır. Putinlə görüş isə bu mənada müstəsna məqam oldu. Rusiya lideri yuxarıda diqqətə çatdırdığımız fikirləri ilə Ermənistan cəbhəsinin Kreml üçün həyati əhəmiyyət daşıdığını önə çəkdi. Nəticədə, Paşinyan sərt tədbirlərə əl atmaq üçün bəhanə qazandı. Başqa sözlə desək, onun seçki qanunvericiliyini sərtləşdirməsi legitimləşdi.

Hesab edirik ki, Putinlə görüşdən sonra beynəlxalq ictimai rəy Nikolun heç bir addımının demokratiyaya zidd olduğunu vurğulamayacaq, əksinə, Paşinyanın komandasının hərəkət və davranışlarında məntiq görəcək. Belə bir durumda xalqın da hakim komandaya dəstək verməkdən başqa çıxış yolu qalmır. Axı sadə ermənilər Nikola alternativ qüvvənin kimlər olduğunu eşitdilər. Özü də Putinin dilindən.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Mina təhlükəsi – Qarabağda ölümsaçan kabus

## *Maarifləndirmə və ehtiyatlılıq bu bəlaya etibarlı sipər çəkir*

**Mina təhlükəsi müharibənin bitməsi ilə sona çatmayan, illərlə davam edən və cəmiyyətin sosial, psixoloji və iqtisadi həyatına təsir göstərən problemdir. Azərbaycan reallığında bu təhlükə xüsusilə aktualdır. Aparılan genişmiqyaslı təmizləmə işlərinə baxmayaraq, baş verən hadisələr göstərir ki, onun kökündə yalnız texniki çətinliklər deyil, həm də insan davranışı dayanır.**



**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Aparat rəhbəri Rauf Hüseynov** məsələ ilə bağlı bildirdi ki, həyata keçirilən geniş maarifləndirmə və təhlükəsizlik tədbirlərinə baxmayaraq, mina hadisələrinin böyük hissəsi vətəndaşların təhlükəsizlik qaydalarına əməl etməməsi ilə bağlıdır. Onun sözlərinə görə, mina və partlamamış hərbi sursatlar illər keçsə də, təhlükəliliyini itirmir və faktiki olaraq müharibənin "görünməz izləri" kimi qalır. Bu təhlükə yalnız insanların həyatını deyil, həm də onların doğma torpaqlara qayıdış arzularını və gündəlik fəaliyyətlərini məhdudlaşdırır. Xüsusilə azad olunmuş ərazilərdə yaşayan və ya həmin ərazilərə səfər edən vətəndaşlar üçün risk səviyyəsi daha yüksəkdir.

Rəsmi statistikaya görə, son 30 il ərzində 3 min 500-dən çox Azərbaycan vətəndaşı mina qurbanı olub. İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə qeydə alınmış 259 mina partlayışı nəticəsində 421 nəfər zərər çəkib. Bu hadisələr zamanı 72 nəfər həyatını itirib, 349 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Bu rəqəmlər mina təhlükəsinin müharibədən sonra da davam edən ciddi təhlükəsizlik çağırışıdır.

Eyni zamanda, ANAMA və tərəfdaş qurumlar tərəfindən həyata keçirilən tədbirlər geniş miqyas alıb. Vətən müharibəsindən sonra bugünədək 262 min 26 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib, 246 min 585 ədəd partlayıcı qurğu aşkar edilərək zərərsizləşdirilib. Bununla belə, mina partlayışlarının davam etməsi onu göstərir ki, problemin həlli yalnız fiziki təhlükənin aradan qaldırılması ilə məhdudlaşmır. İnsanların davranış modellərinin dəyişdirilməsi də eyni dərəcədə vacibdir. İnsan amili nəzərə alınmasa, ən müasir texnologiyalar və böyük resurslar belə problemin tam həllinə zəmanət verə bilməz. Başqa sözlə, vətəndaşların riskə münasibəti dəyişməlidir. Bəs insanların təhlükəli ərazilərə getməsinə, mina qurbanına çevrilməsinə səbəb nədir?

Umumiyyətlə, uzun illər doğma torpaqlarından ayrı düşmüş insanların həmin ərazilərə qayıtmaq istəyi çox güclüdür və bu istək bəzən təhlükə hissini üstələyir. Təəssüf ki, ata-baba yurdunu görmək, yaxınlarının məzarlarını ziyarət etmək, keçmişlə bağlı xatirələri yenidən yaşamaq arzusu insanları riskə getməyə vadar edir. Deməli, burada emosional bağlılıq və psixoloji motivasiyalar da önəmli yer tutur. Digər mühüm məqam mina təhlükəsinin "görünməz" xarakter daşımasıdır. Gözlə görünməyən mina insanlar tərəfindən çox vaxt real və dərhal baş verə biləcək təhlükə kimi qəbul edilmir. Bəzi hallarda təhlükəsizlik nişanları və xəbərdarlıqlar da kifayət qədər ciddi qəbul edilmir və ya onların mənası tam dərk olunmur. Bu amillər isə maarifləndirmə işlərinin keyfiyyəti və effektivliyinin artırılmasını gündəmə gətirir. Effektiv maarifləndirmə insanların düşüncə tərzini dəyişməli, onları potensial təhlükəni əvvəlcədən dərk etməyə və düzgün qərarlar verməyə təşviq etməlidir. Bu proses təsadüfi və epizodik tədbirlərlə deyil, sistemli və davamlı yanaşma ilə həyata keçirilməlidir.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev** XQ-yə açıqlamasında qeyd etdi ki, üç gündür İctimai Şura üzvləri işğaldan azad olunmuş ərazilərdə maarifləndirmə tədbirləri həyata keçirirlər:



"Şura üzvləri mütəmadi olaraq mina ilə çirklənmənin yüksək olduğu ərazilərdə yerli əhali ilə görüşlər keçirir, onların maarifləndirilməsi istiqamətində tədbirlər görürlər. Emil Həsənov, Xatirə Vəliyeva, Musa Mərcanlı, Könül Quliyeva, Hafiz Əzimzadə, Rəşad Mehdiyev və digərləri Xankəndi, Ağdam, Ağdərə və Tərtər bölgələrində bu prosesdə fəal iştirak edirlər".

U.Mirzəyev bildirdi ki, işğaldan azad edilmiş ərazilərdə 1,5 milyondan çox minanın olduğu ehtimal edilir və hər kvadratmetrə bir neçə mina düşür: "Bu isə həmin ərazilərdə təsadüfi hərəkətin, qadağalara əməl edilməməsinin və ya "təhlükəsizdir" düşüncəsinin birbaşa ölümcül risk yaratdığını göstərir. Minaların sıxlığı, müxtəlifliyi, eləcə də Ermənistan tərəfindən təqdim olunan xəritələrin qeyri-dəqiqliyi təmizləmə prosesini də çətinləşdirir. Bu səbəbdən vətəndaşlara yalnız rəsmi icazə verilmiş və yoxlanılmış yollardan istifadə etmək, tanımadıqları ərazilərə daxil olmamaq tövsiyə olunur".

Şura sədri onu da vurğuladı ki, müharibədən sonra yüzlərlə mülki şəxsin, o cümlədən qadın, uşaq və yaşlıların mina qurbanına çevrilməsi təhlükənin miqyasını nümayiş etdirir. Onun fikrincə, hər gün həyatını riskə atan istehkamçıların əməyinə hörmətlə yanaşmaq, müəyyən edilmiş qaydalara riayət etmək hər bir vətəndaşın borcudur: "Maarifləndirmə yalnız məlumatlandırma deyil, həyat qurtaran davranış qaydaları sistemidir: şübhəli əşyalara toxunmamaq, işarələnməmiş ərazilərə daxil olmamaq vacibdir. Unutmaq olmaz ki, mina səhvi bağışlamır və bir anlıq ehtiyatsızlıq ömürlük faciəyə çevrilə bilər".

Mövzu ilə bağlı **psixoloq Vüsalə Əmiraslanova** XQ-yə söylədi ki, uşaqlar, gənclər, kənd təsərrüfatı ilə məşğul olan şəxslər və keçmiş məcburi köçkünlər fərqli yanaşma tələb edir: "Uşaqlar üçün vizual və interaktiv metodlar, real həyat hekayələri və simulyasiyalar daha təsirlidir. Böyüklər üçün isə statistik məlumatlar, konkret hadisələrin təhlili və praktiki tövsiyələr effektiv nəticə verir. Bununla yanaşı, yerli icmaların maarif-



ləndirmə prosesinə cəlb edilməsi xüsusi əhəmiyyət daşıyır. İnsanlar daha çox etibar etdikləri mənbələrdən gələn məlumatlara inanır və onlara əməl edirlər. Bu baxımdan müəllimlər, icma liderləri və yerli fəallar maarifləndirmə fəaliyyətlərinin əsas daşıyıcılarına çevrilə bilərlər. Onların iştirakı ilə həyata keçirilən təşəbbüslər daha geniş təsir dairəsinə malik olur və dayanıqlı nəticələr verir".

Psixoloqun sözlərinə görə, müasir texnologiyaların tətbiqi də bu sahədə yeni imkanlar açır: "Rəqəmsal platformalar, sosial media, mobil tətbiqlər və digər kommunikasiya vasitələrinin köməyi ilə lazımi məlumatları daha geniş auditoriyaya çatmaq mümkündür. Xüsusilə gənc nəsil arasında bu vasitələr maarifləndirmənin effektivliyini artırır və məlumatın daha sürətli yayılmasına şərait yaradır. Eyni zamanda, vizual və interaktiv kontentin istifadəsi mina təhlükəsinin aydın və təsirli şəkildə izah olunmasına kömək edir. Məktəblərdə təhlükəsizlik mövzularının tədrisi, ictimai kampaniyaların keçirilməsi və media vasitəsilə davamlı məlumatlandırma bu istiqamətdə mühüm rol oynayır".

**Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin sədri Hafiz Səfixanov** mina təhlükəsinin qlobal xarakter daşıdığını və beynəlxalq dəstək tələb etdiyini vurğuladı: "Azərbaycana göstərilən xarici yardımlar mövcud problemin miqyasına adekvat deyil. Vətəndaşlar maarifləndirmə proq-



ramlarında verilən qaydalara ciddi əməl etməli, tanımadıqları və yoxlanılmamış ərazilərdən uzaq durmalıdırlar. Bir anlıq ehtiyatsızlıq faciə ilə nəticələnə bilər. Klassik maarifləndirmə üsulları — bukletlər, bilbordlar və ənənəvi məlumatlandırma vasitələri faydalı olsa da, artıq yeni və innovativ yanaşmalara ehtiyac var".

Birlik sədri, eyni zamanda, vətəndaşların təhlükəli ərazilərə girişinin ciddi problem olaraq qaldığını bildirdi: "Hökumət tərəfindən təhlükəli zonalara girişin məhdudlaşdırılması ilə bağlı qərarlar qəbul olunsa da, bəzi vətəndaşlar qadağalara əməl etmir. Bu da mina partlayışları nəticəsində zərərçəkənlərin sayının artmasına səbəb olur. Azərbaycanda mina qurbanlarının sayı Cənubi Qafqaz ölkələrindəkindən iki dəfə çoxdur. Vətəndaşlarımızın mina qurbanı olmaması üçün əlimizdən gələni əsirgəməməliyik".

Beləliklə, məlum olur ki, bu sahədə maarifləndirmə işləri daha dərin, daha sistemli və daha təsirli şəkildə qurulmalıdır. İnsanların həyatını qorumağın ən etibarlı yolu onların məlumatlılığını artırmaq və təhlükəsizlik qaydalarına əməl etməyi gündəlik davranış normasına çevirməkdir. Mina təhlükəsini aradan qaldırmaq yalnız fiziki təmizləmə ilə deyil, eyni zamanda, düşüncə və davranışların dəyişməsi ilə mümkündür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Erməni toplumu sabitlik sorağında

## *Rəy sorğusu məğlubların müharibə çağırışlarına çoxluğun "yox" dediyini bir daha üzə çıxardı*

**Mərkəzi ofisi ABŞ-da yerləşən "Gallup International Association" Ermənistan vətəndaşları arasında keçirdiyi sosioloji sorğunun nəticələrini açıqlayıb. "Gallup International Association"ın Ermənistandakı tamhüquqlu üzvü olan MPG şirkətinin direktoru Aram Navasardyan mətbuat konfransında bildirib ki, bu ilin mart ayında "Gallup International" tərəfindən aparılan ictimai rəy sorğusunun nəticələrinə əsasən, Ermənistan vətəndaşlarını ən çox narahat edən məsələ təhlükəsizliklə bağlı problemlərdir.**



"Ölkənin qarşısında duran ən aktual problemlər hansılardır?" sualına respondentlərin 45,8 faizi təhlükəsizlik məsələlərini göstərib. Daha 14,9 faizi işsizliyi, 13,5 faizi iqtisadi vəziyyəti, 10,7 faizi isə aşağı əməkhaqları və pensiyaları qeyd edib. Ermənistan vətəndaşlarını, həmçinin sərhədlərin delimitasiyası məsələləri (9,8 faiz), təhsil sistemi (9,7 faiz), inflyasiya (8,6 faiz), səhiyyə sisteminin vəziyyəti (5,1 faiz), xarici siyasətlə bağlı problemlər (2,4 faiz), yüksək vergilər (1,3 faiz) narahat edir. Digər problemləri göstərənlərin payı isə 20,9 faiz təşkil edib.

Açıqlanan sorğu erməni cəmiyyətindəki narahatlığın əsas məqalmlarını yenidən gündəmə gətirir. Bir daha aydın olur ki, ölkə vətəndaşları üçün təhlükəsizlik məsələsi digər bütün problemlərdən qat-qat önəmlidir. Bu prioritet narahatlıq təsadüfi deyil. Çünki Ermənistan son illər həm regiondakı geosiyasi proseslərin, həm də daxili siyasi qeyri-müəyyənliyin təsiri altında daha həssas, kövrək vəziyyətə düşüb. Buna görə cəmiyyətin diqqətinin ilk növbədə təhlükəsizlik məsələsi ətrafında cəmlənməsi gözlənilən nəticədir.

Qeyd etdiyimiz kimi, sorğuda iştirak edənlərin 45,8 faizi ölkənin əsas probleminin təhlükəsizliklə bağlı olduğunu deyib. Respondentlərin yarısıının eyni məsələdə birləşməsi siyasi rəhbərliyə ciddi ismarış sayılmalıdır. Əhali davamlı risk hissi ilə yaşayır, gündəlik həyatın sabitliyinə əmin ola bilmir. Digər sosial-iqtisadi problemlər kifayət qədər böyük paya malik olsa da, insanlar üçün ən ağrılı nöqtə ölkənin gələcək taleyi və təhlükəsiz sabahıdır.

Təhlükəsizlik narahatlığının arxasında müxtəlif amillər dayanır. Bir tərəfdən, Ermənistan uzun müddətdir ki, öz müdafiə strategiyasını formalaşdırmaqda çətinlik çəkir. Müttəfiqlərlə münasibətlərdə yaranmış soyuqluq, ordunun müasirləşdirilməsi sahəsində gecikmələr cəmiyyətdə ümidsizlik yaradır. Digər tərəfdən, regionda baş verən təlatümlü hadisələr İrəvanın manevr imkanlarını məhdudlaşdırır. Ermənistanın özünü təhlükəsiz hiss etməməsi həm fiziki sərhədlərin qeyri-müəyyənliyindən, həm də siyasi istiqamətlə bağlı çətinliklərdən qaynaqlanır.

Sərhədlərin delimitasiyası məsələsinin 9,8 faizlə ilk problem qrupuna daxil edilməsi də təsadüfi deyil. Bu mövzu birbaşa təhlükəsizliklə əlaqədardır. Sərhədlərin dəqiq müəyyən edilməməsi, ərazi iddiaları və qarşılıqlı inamsızlıq cəmiyyətin psixoloji yükünü daha da artırır. Sakinlər üçün əsas sual budur: sabah nə baş verəcək? Cavabsız sual vətəndaşlarda qeyri-sabitlik hissi yaradır.

İqtisadi məsələlərin sorğuda ikinci və üçüncü sırada qərarlaşması da təhlükəsizlik faktorundan ayrı deyil. Əhalinin böyük hissəsi iqtisadi zəifliyin ölkənin müdafiə qabiliyyətini daha da aşağı saldığını düşünür. İnsanlar hesab edir ki, iqtisadi dayanıqlıq olmadan ölkənin təhlükəsizliyi təmin edilə bilməz. Aşağı maaş və pensiyalar, inflyasiya, vergilərin yüksəkliyi kimi problemlər də bu ümumi narahatlığı gücləndirir. Təhsil və səhiyyə sahələrinin də təxminən eyni səviyyədə narahatlıq doğurması cəmiyyətin gələcəyə inamı ilə bağlıdır. Təhsil sistemi 9,7 faiz, səhiyyə 5,1 faiz səviyyəsində əsas problemlər sırasında yer alıb. Bunlar göstərir ki, Ermənistan vətəndaşları yalnız bugünkü təhlükəsizliklə deyil, həm də uzunmüddətli inkişaf üçün zəruri olan sahələrin tənəzzülü ilə bağlı narahatdırlar.

Xarici siyasətdəki problemlərin 2,4 faizlə aşağı görünməsi isə əslində, cəmiyyətin bu sahəyə olan etibarının deyil, prioritetlər sıralamasında təhlükəsizliyin üstünlük təşkil etməsinin nəticəsidir. İnsanlar konkret və gündəlik həyatlarina təsir edən məsələlərə daha çox diqqət yetirir.

Sorğunun ümumi mənzərəsi onu göstərir ki, Ermənistan cəmiyyəti hazırkı mərhələdə özünü müdafiəsiz hiss edir. Təhlükəsizlik narahatlığı yalnız sərhədlərlə məhdudlaşmır, insanların iqtisadi, sosial və siyasi sabitliyə olan inamsızlığından qidalanır. Əhalinin demək olar ki, bütün təbəqələrində bu hissin güclənməsi ölkədə uzun müddətdir davam edən qeyri-müəyyənliyin nəticəsidir. Belə bir şəraitdə hökumətin qarşısında duran əsas məsələ cəmiyyətə inam və təhlükəsizlik hissi qaytarmaqddan ibarət olmalıdır. Ermənistanın gələcək strategiyası yalnız təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi ilə deyil, həm də sosial-iqtisadi sahədə real nəticələr əldə edilməsi ilə mümkündür. Cəmiyyətin narahatlığını aradan qaldırmaq üçün ilk addım insanların öz gələcəklərinə inamını bərpa etməkdir. Sorğunun verdiyi əsas mesaj da məhz budur.

* * *

Qeyd edək ki, sorğu Ermənistanda partiyaların reytinqi ilə bağlı məsələni də əhatə edib. Respondentlərə "Parlament seçkiləri qarşıdakı bazar günü keçirilsəydi, hansı partiyaya səs verərdiniz?" sualı ünvanlanıb. Araşdırmanın nəticələrinə görə, siyahıya 24,3 faiz dəstəklə hakim "Mülki müqavilə" partiyası başçılıq edir. Partiyanın reytinqində cüzi artım qeydə alınıb. İkinci yerdə 13,4 faizlə müsbət dinamika göstərən "Güclü Ermənistan" partiyası qərarlaşıb. Digər siyasi qüvvələrin göstəriciləri belədir: "Çiçəklənən Ermənistan" – 7,9 faiz, "Hayastan" bloku – 5,5 faiz, "DOK" partiyası – 3,1 faiz, "Respublika" partiyası – 1,9 faiz, "İşıqlı Ermənistan" – 1,7 faiz, "Şnorapetakan" partiyası və "Birlik qanadları" təşəbbüsü – hər biri 1,5 faiz və Erməni Milli Konqresi 1,1 faiz. Cəmiyyətin əhəmiyyətli hissəsi hələ də aktiv seçici davranışı göstərmir: 8,1 faiz ümumiyyətlə seçkilərə getməyəcəyini bildirib, 2,7 faiz səsvermə bülletenini qəsdən korlanyacağını deyib, 14,3 faiz cavab verməkdə çətinlik çəkib, 11,4 faiz isə sualdan imtina edib.

Nəticələr göstərir ki, erməni cəmiyyəti yenə də ən çox hakim komandanın arxasında dayanır. Müxtəlif partiyalara dair rəqəmlər dəyişsə də, ümumi mənzərə bir məqamı təsdiqləyir: Paşinyanın partiyası siyasi rəqabətdə hələ də açıq şəkildə birinci yerdədir. Bu üstünlük əvvəlki aylara nisbətən müəyyən dərəcədə artsa da, əsas məna təkcə liderlikdə deyil. Cəmiyyət dərin siyasi qarşıdurmalar və gərginliklər fonunda yenidən köhnə müharibə ritorikasına qayıtmaq istəmədiyini göstərir.

Azərbaycana qarşı separatçılıq hərəkatı və Birinci Qarabağ müharibəsi dövründə önə çıxmış, bu gün də revanşist mövqeləri ilə tanınan qüvvələr sorğuda arxa sıralarda qalıb. Onların dəstəyi cəmiyyətin yalnız kiçik bir hissəsini əhatə edir. Bu isə Ermənistan vətəndaşlarının radikal çağırışlardan yorulduğunu, ölkəni yeni toqquşmalara aparmaq istəyən dairələrdən uzaq durduğunu göstərir. İctimai rəy dəyişməkdə davam edir və bu dəyişiklik daha çox sabitlik, təhlükəsizlik və nisbətən sakit inkişaf axtarışı ilə bağlıdır. Bütövlükdə, mövcud mənzərə Paşinyanın rəqiblərinə açıq mesajdır. Cəmiyyət növbəti dəfə müharibə tərəfdarlarına "yox" deyir və keçmiş döyüş çağırışlarını dəstəkləmədiyini nümayiş etdirir. Ermənilər üçün bu gün əsas məsələ daha çox təhlükəsizlik və sabitlikdir, radikal siyasət deyil. Sorğunun bu hissəsindən gəlinən qənaət belə deməyə əsas verir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası

## II MƏQALƏ

### Platonun "fəlsəfi bilməcəsi"



Ümumiyyətlə, "Azərbaycançılıq məsələsi"ni o dərəcədə çoxboyutlu və geniş anlamlı fenomen hesab edirik ki, onun konkret elmi istiqamətlər üzrə adekvat anlamına varmağı Azərbaycan humanitar, fəlsəfi, filoloji, siyasi, kulturoloji, tarixi, sosioloji və digər elmi mahiyyətli təfəkkürünün "strateji nüvəsi" adlandıra bilərik. Məsələ Azərbaycanın cəmiyyət və müstəqil dövlət kimi mövcudluğunun ən dərin məna və məqsəd qatları ilə bağlıdır. Buna görə də o, faktiki olaraq, hər bir fərdin və bütövlükdə kollektiv mövcudatın əsas varolma şərtləri ilə burbaşa bağlıdır.

Bizcə, məhz bu kontekstdə bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasına bütövlükdə Azərbaycan tarixi, fəlsəfi, sosioloji, folklor, kulturoloji, incəsənət, musiqi və digər təfəkkür çalarlarının vəhdəti fonunda nəzər salmaq zəruridir. Bədii təfəkkürə azərbaycançılıq ideyası, prinsipi və məfkurəsi prizmasında baxıb ümumi qənaətlər əldə etsək, yekunda bütövlükdə Azərbaycan təfəkkürünün dinamikasına tam (holistik) və kəsilməz dinamikaya malik proses (fenomen) keyfiyyətində nəzəri-konseptual (təhlili, tənqidi və proqonstik mahiyyətli) yanaşmaya vara bilərik.

Bu yanaşmanın üstün cəhətlərindən biri də zaman-məkan vəhdətini daha geniş coğrafi, siyasi, mədəni, mənəvi-əxlaqi və bütövlükdə fəlsəfi-elmi miqyasa transformasiya etmək imkanını yaratması ilə bağlıdır. Burada söhbət təfəkkürün dövrləşdirilməsinin bütövlükdə Türk dünyası miqyasına konseptual, metodoloji və praktiki-tətbiqi proyeksiya edilə bilməsi imkanından gedir.

Vurğuladığımız bağlantılar və transformasiyalar aspektində Platonun bir "fəlsəfi bilməcəsi"ni xatırlatmaq istərdik. Platon yazırdı ki, "həmişə mövcud olub, heç zaman təşəkkül etməyənlə, həmişə təşəkküldə olub, lakin heç zaman mövcud olmayanı fərqləndirmək lazımdır". Qərb fəlsəfi fikrinin tarixi boyu bu tezis açıq və ya gizli olaraq fərqli yanaşmaların təməlində yer almışdır. Ancaq onun ən parlaq ziddiyyətli təzahürü XX əsrdə M.Fuko, J.Delyoz və F.Qvattarinin fəlsəfi yanaşmasında konseptuallaşmışdır.

Bu bilməcəni azərbaycanşünaslığa zaman-məkan kontinuumunda tətbiq etsək, alınır ki, azərbaycançılıq daim təşəkküldə olub, lakin konkret mövcudluq kimi var olmursa, azərbaycanşünaslığa faydası yoxdur. Eyni zamanda, azərbaycançılıq mövcud olur, lakin zaman-məkanda təşəkkül etmək keyfiyyətinə malik olmursa, yenə də azərbaycanşünaslıq üçün yararlı olmur.

Müstəqil dövlət quruculuğu kontekstində bu bilməcənin konseptual əhəmiyyəti vardır. Çünki azərbaycançılıq vurğuladığımız hər iki varinatda nəticəverici təfəkkür və praktiki-tətbiqi keyfiyyət ala bilməz – o, daim sözdə gözəl ifadə forması alacaq, lakin konseptuallıqdan praktiki tətbiqiyə keçidi zamanı avtomatik olaraq idraki spekulyasilyalar ucbatından səmərəsiz olacaqdır. Bu məqamda azərbaycanlı təfəkkürünün kollektiv miqyasda ciddi fəlsəfi-elmi əsaslı tədqiqi bütün boyutları ilə aktual məsələ olaraq qarşımıza çıxmaqdadır.

İddia edirik ki, son illərə qədər məhz bu aldadıcı və faktiki olaraq antiazərbaycançı idraki strategiyadan istifadə etmişlər. Yalnız fədakar və sədaqətli Azərbaycan bədii təfəkkür sahiblərinin çalışması ilə məsələ bütövlükdə müstəqil dövlətçilik üfüqündən çəkilməmişdir. Bədii təfəkkürün dövrləşdirilməsi çalışmalarına, cəhdlərinə və həyata keçirilən nümunələrinə bir də bu məqsədən baxmağımız lazımdır. Burada bir xüsusiyyəti vurğulamadan olmaz.

### Fəlsəfi-tarixi üfüq məhdudiyyəti

Azərbaycanda bədii təfəkkürün ənənəvi olaraq milli mədəniyyət sistemində xüsusi yerə malik olması fakt kimi qəbul edilir. Onun hər bir səbəbi haqqında ayrıca danışmaq olar. Ancaq son bir neçə əsrdə Azərbaycanın coğrafi-siyasi və mədəni mövcudluğunda aparıcı olan siyasi və geosiyasi faktorların işığında bədii təfəkkürün (filologiya, ədəbiyyat, bədii dil, folklorşünaslıq, incəsənət) xüsusiyyətlərinə baxdıqda, onun, məsələn, fəlsəfi və tarixi təfəkkürlə müqayisədə daha çox sərbəstlik imkanlarına malik olduğunu görərik.

Belə ki, yad dövlətin hökmranlığı altında olan Azərbaycan ciddi fəlsəfi, siyasi, ideoloji və mədəni-mənəvi nəzarət altında qalmışdır. Onun əsas əlamətlərindən biri başlıca ideyanın Azərbaycanda deyil, kənarda hazırlanıb cəmiyyətimizə qəbul etdirilməsindən ibarət olmuşdur. Fəlsəfədə bu, konkret yaradıcı, müəyyənedici ideyanın Azərbaycan fəlsəfi təfəkkürünə yeridilməsində əksini tapmışdır.

Azərbaycanlı filosof özünün müstəqil fəlsəfi sistemini qurmaq imkanlarından deməli olar ki, məhrum idi. Buna görə də ayrı-ayrı fərdlər öz fəlsəfəsini yaradıb, sona qədər inkişaf etdirə bilmirdi.

Xüsusilə XX əsrdə bunun kifayət qədər nümunələri vardır. Tarixi təfəkkür də eyni məhdudiyyətlər daxilində mövcud olmuşdur. Nəticədə fəlsəfə və tarix kimi mühüm sosiohumanitar təfəkkür sahəsi qövmün, cəmiyyətin və ölkənin daxili sifarişi ilə inkişaf etmək imkanından xeyli məhrum olmuşdu.

Bu şərtlər daxilində Azərbaycan bədii təfəkkürünün aparıcı rol oynaması həm ənənəyə uyğun idi, həm də real şərtlər daxilində düzgün səmərəli seçim idi. Buradan 2 qənaət əldə etmək olar.

Birincisi, Azərbaycanda bədii təfəkkürün dövrləşdirilməsi özəlliyini fəlsəfi-elmi təfəkkürün sferalarına yaradıcı (kreativ, yəni konseptual+sosiuma tətbiq baxımından innovativ) proyeksiya etmək tarixi zərurət kimi qəbul edilməlidir. Ədəbiyyat təcrübəsi təfəkkürün digər istiqamətləri ilə müqayisədə daha zəngin və əsaslı kriteriyalara malikdir. Bu tezisin daxilində bədii dilin linqvistik özəllikləri ayrıca yer tutur. Yəni ədəbi-bədii dilin fəlsəfi-elmi dillə münasibətlərinin tədqiqi xüsusi aktual problem kimi qarşıda durur.

İkincisi, fəlsəfi, elmi və bədii təfəkkürün azərbaycançılıq ideyası məhvəri üzrə dövrləşdirilməsi müasir mərhələdə azərbaycanşünaslığın inkişafında çox əhəmiyyətli yer tutmalıdır. Bu baxımdan akademik İsa Həbibbəylinin tədqiqatında Azərbaycanda bədii təfəkkürün dövrləşdirilməsi təcrübəsinin təhlili və onun əsasında yeni dövrləşdirmə konsepsiyasının hazırlanması bütövlükdə humanitar elm üçün vacib hadisədir.

Problemin bu aspekti üzərində bir qədər ayrıntılı dayanaq.

### Təcrübənin təhlili

Heç bir təcrübənin vahid və mütləq obyektiv təhlili yoxdur. Təcrübəyə hansı kriteriyalarla yanaşıldığının əhəmiyyəti çoxdur. Azərbaycan ədəbiyyat tarixində də bədii təfəkkürün dövrləşdirilməsinə fərqli kriteriyalar prizmasında yanaşmalar özünü göstərmişdir. Onları uzunmüddətli zaman-məkan kontinuumunda elmi təhlil etmək olduqca əhəmiyyətlidir. Çünki mövcud təcrübə elmi problemin gerçək mənzərəsini yaradır ki, onun fonunda məsələnin daha adekvat təkamül xəttini müəyyən etmək şansı meydana gəlir. Buna görədir ki, akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyat tarixinin dövrləşməsi təcrübəsini təhlil etməsi çox əhəmiyyətli addımdır.

Burada təhlilin bütün detalları üzərində dayanmaq və onu tam olaraq zaman xronologiyasında qiymətləndirmək imkansızdır. Bir sıra özəlliklər üzərində dayana bilərik. Ümid edirik ki, onların işığında "Azərbaycanşünaslıq üçün nə üçün azərbaycançılıq önəmlidir?" sualına cavab axtarışlarının "koqnitiv spektrini" müəyyən etmək olar.

Hər şeydən öncə, bədii təfəkkürün tarixi dövrləşdirilməsi üçün onun proses olaraq zaman-məkanda dinamik mövcudluğunu qəbul etmək gərəkdir. Yəni söhbət Azərbaycan bədii təfəkküründən gedirsə, onun dövrləşdirilməsinə hər hansı yanaşmanın təməlində belə bir idraki fenomen uzun müddət Azərbaycan elmi təfəkküründə xüsusi olaraq mövcud olmalıdır. Buna görə də Azərbaycançılıq ideya və konsepsiya kimi bəzilərinin Azərbaycan fəlsəfi-elmi tarixini XIX əsrin ikinci yarısından başladığı kimi iddialara düşməsinin əsassız olduğunu təsdiq edir. Elmi olaraq elə təkamül kriteriyaları təhlil edilməlidir ki, hər şeydən öncə ciddi elmi əsasda "Azərbaycan bədii təfəkkür tarixi vardır" müddəasını ortaya qoysun. Azərbaycan elmi təfəkkürü artıq bu vəzifənin öhdəsindən şərəflə gəlmişdir. Həmin sırada azərbaycançılıq ideyası, prinsipi və konsepsiyasının rolu xüsusidir!

Digər əhəmiyyətli məqam İ.Həbibbəylinin əsərində ədəbiyyat taixinin dövrləşdirilməsinə yanaşmada əsas kriteriyaları önə çəkməsi ilə bağlıdır. Məsələn, müəllif vurğulayır ki, "akademik Nizami Cəfərovun irəli sürdüyü elmi konsepsiya bu mühüm işin nəzəri əsaslarını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir". Bu tezis əsərdə aşağıdakı kimi əsaslandırılır: "Əvvəla, Nizami Cəfərov Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirmək üçün nəzərə alınması zəruri olan meyarları müəyyənləşdirmişdir: ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi proseslərə əsaslanmaq. İkincisi, Nizami Cəfərov konkret olaraq Azərbaycan ədəbiyyatı tarixinə dair özünün dövrləşdirmə modelini də təqdim etmişdir: 1. V-XII əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının qədim dövrü. 2. XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının orta dövrü. 3. XVII əsrdən XX əsrin əvvəllərinə qədərki Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının yeni dövrü. 4. XX əsrin əvvəllərindən sonrakı Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrü".

Bu cür yanaşma əsasında İ.Həbibbəylinin gəldiyi ümumi qənaət həm əsaslı, həm də obyektivdir. Müəllif yazır: "...təqdim olunan dövrləşdirmə və xətləri etibarilə Azərbaycan ədəbiyyatının keçdiyi keşməkeşli yolun əsas inkişaf mərhələlərini özündə əhatə edir. Və ən yaxşı cəhətlərdən biri də ondan ibarətdir ki, Nizami Cəfərovun dövrləşdirməsində ideoloji baxışlar deyil, ədəbi-estetik meyarlar və nəticə etibarilə azərbaycançılıq dəyərləri əsas yer tutur. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi-nəzəri təsnifatının bünövrəsi kimi bu format əhəmiyyətlidir".

Biz tarixi xronologiyaya (əsərdə tarixi xronologiya dəqiq nəzər alınmışdır) baş vurmadan onu ifadə edək ki, əsərdə XX əsrin 90-cı illərində Azərbaycan ədəbiyyatının yenidən dövrləşdirilməsi istiqamətində konsepsiyalar axtarışının aparıldığı xüsusi vurğulanır. Bu bağlılıqda N.Cəfərovun tədqiqatları ilə yanaşı, Mir Cəlal, Y.Qarayev, H.Araslı, N.Qəhrəmanlı, Ə.Səfərli, Ş.Alışanlı və digər alimlərin çox qiymətli tədqiqatlarına müraciət olunur.

Bir daha qeyd edək ki, bizi ədəbiyyat tarixinin dövrləşdirilməsinin ümumi süjeti fəlsəfi aspektdə maraqlandırır və konkret tədqiqatların detallarına baş vura bilmirik (onu peşəkar ədəbiyyatçılar edə bilərlər). Ona görə də akademik İ.Həbibbəylinin tam yerində Yaşar Qarayevdən gətirdiyi bir iqtibasla kifayətlənirik: "Əlbəttə, gerçəkliyin öz təsnifatını elmə və tarixə olduğu kimi gətirmək lazımdır: necə var, elə. Bu mərhələlərdən birini, yaxud digərini tarixin arxivinə vermək yolu ilə yox, bəlkə hər birini olmuş, baş vermiş real keçmişimizin özü kimi, bütün təzadları, faciəsi, səhvləri və uğurları ilə birlikdə, bədii idrakımızın və ictimai əxlaqımızın təcrübəsi və dərsləri kimi öyrənmək yeganə doğru yoldur. Lakin təəssüf ki, bütöv-bütöv dövrləri, yüzilləri, hətta eraları tədqiqatda əhatə olunan tarixlərdən çıxdaş eləmək bizim mövcud humanitar – filoloji ənənələrin ən sürəkli əyintilərindən biri olub".

Bizcə, Y.Qarayev çox uğurlu yanaşma etmişdir və İ.Həbibbəyli də bu məqamı dərindən dərk etmişdir! Bu tezisimizi əsərin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə axtarışlar, ədəbiyyat tarixçiliyində yeni mərhələ, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatına doğru, Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurəti - Azərbaycançılıq konsepsiyası, Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri" punktları üzrə vahid məntiqi müstəvidə struktur-funksional bütövləşdirilməsi təsdiq edir.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Dünya daha "5-liy"ə sığmır

## BMT-nin yeni seçiləcək baş katibindən ciddi islahatlar gözlənilir

**İkinci Dünya müharibəsindən sonra planetdə sülhü qorumaq üçün yaradılan nəhəng struktur bu gün ən kiçik münaqişələri belə dayandıra bilmir. Çünki BMT-nin qərarverici mexanizmi olan Təhlükəsizlik Şurası 5 böyük dövlətin (ABŞ, Rusiya, Çin, Fransa, İngiltərə) maraqları arasında sıxılıb qalıb. Onlardan birinin "veto"su təşkilatı faktiki olaraq hərəkətsiz hala gətirir. BMT, sadəcə, baş verən hadisələri pisləyən bəyanatlar verməklə kifayətlənir. Bu halda isə onun rəhbərinin kimliyi böyük önəm kəsb edir. Amma...**

BMT baş katibi Antonio Quterreşin vəzifə müddəti bu ilin sonunda bitir. 2017-ci ildən quruma rəhbərlik edən portuqaliyalı diplomatın dövrü dünya üçün iqtisadi çətinliklər və ağır siyasi böhranlarla yadda qaldı. Xüsusilə postpandemiya dövrü, Ukrayna müharibəsi və Yaxın Şərqdəki qanlı qarşıdurmalar fonunda BMT-nin fəaliyyətini kifayət qədər uğursuz hesab etmək olar. SSRİ dağılandan və "soyuq müharibə" başa çatdıqdan sonra təşkilat sanki dünyada böyük problemlərin qalmadığı düşüncəsilə rahatlığa qapılmışdı. Bu fəaliyyətsizliyin real nümunəsi Azərbaycanla bağlıdır. BMT-nin Ermənistanın torpaqlarımızı işğal etməsini təsdiqləyən və qoşunların çıxarılmasını tələb edən 4 qətnaməsi illərlə icra olunmamış qaldı. Beynəlxalq birliyin kağız üzərində saxladığı bu qərarları Azərbaycan öz gücü hesabına reallığa çevirdi.



BMT TŞ isə qlobal təhlükəsizliyi təmin etmək yerinə, böyük dövlətlərin bir-biri ilə çəkişdiyi meydana çevrilib. Prezident İlham Əliyev çıxışlarında Təhlükəsizlik Şurasının artıq işləmədiyini dəfələrlə qeyd edib. Dövlət başçısı 2023-cü il martın 2-də Bakıda keçirilən Zirvə görüşündə bildirib ki, bu şura artıq səmərəli deyil. O qeyd edib ki, bəzi qərarlar bir neçə günə icra edildiyi halda, Ermənistanın torpaqlarımızdan dərhal çıxmasını tələb edən 4 qətnaməyə 30 ilə yaxın müddətdə əhəmiyyət verilməyib. Bu fakt beynəlxalq aləmdəki ikili standartları və sistemin yenilənməsinə olan ehtiyacı açıq şəkildə göstərir. A.Quterreş hələ Qaçqınların İşi üzrə Ali Komissar olduğu dövrdən Azərbaycandakı vəziyyətə, qaçqın və məcburi köçkünlərin probleminə yaxından bələd idi və Prezident İlham Əliyevlə müntəzəm əlaqə saxlayırdı. Lakin bu, BMT-nin öz qətnamələrini icra etmək iqtidarında olmayan bürokratik divarlarını aşa bilmədi.

*

Mövcud reallıq onu deməyə əsas verir ki, yeni baş katib seçkiləri ərəfəsində yaranan mənzərə daha çox simvolik xarakter daşıyır. Çünki sistemin özü təməldən zədəli olduqda sükan arxasına kimin keçməsi böhranı həll etməyə yetməyəcək. Antonio Quterreşin yerinə bəzi namizədlərin adları artıq bəllidir. Hazırda bu siyahıda Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) rəhbəri Rafael Qrossi (Argentina), BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) rəhbəri Rebeka Qrinspan (Kosta-Rika) və Çilinin keçmiş prezidenti Mişel Baçelet kimi nüfuzlu simalar yer alır. Həmçinin Seneqalın keçmiş prezidenti Maki Sall və BMT-nin uşaqlar və silahlı münaqişələr üzrə xüsusi nümayəndəsi olmuş Virciniya Qamba da bu diplomatik marafonun rəsmi iştirakçıları sırasındadırlar.

Yuxarıda qeyd etdiyimiz kimi, builki seçkilərin ən diqqətçəkən tərəfi BMT tarixində ilk dəfə olaraq quruma qadın rəhbərin seçilməsi ehtimalının kifayət qədər yüksək olmasıdır. Bu səbəbdən Mişel Baçelet və Rebeka Qrinspanın namizədlikləri xüsusi maraqla izlənilir. BMT Baş Assambleyasının prezidenti Annalena Berbok da çıxışlarında bu məsələyə xüsusi toxunur. Xanım Annanela ötən il bir müsahibəsində təşkilatın 80 illik tarixində və dünyada 4 milyard qadın olduğu halda, niyə hələ də təşkilata rəhbərlik üçün uyğun bir qadın tapılmadığını anlamadığını demişdi. Bu baxımdan yeni baş katiblik uğrunda rəqabətin qəliz olacağını demək olar. Xatırladaq ki, BMT Baş Assambleyasının müəyyən etdiyi qrafikə uyğun olaraq 21-22 aprel tarixlərində namizədlərlə açıq dialoqların keçirilməsi planlaşdırılır. Yekun qərarın isə Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında ilin son rübündə verilməsi gözlənilir.

*

BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinin dəyişməsi məsələsi müasir beynəlxalq münasibətlər sisteminin ən çətin düyünlərindən biridir. Hüquqi müstəvidə bu proses BMT Nizamnaməsinin 108-ci maddəsi ilə tənzimlənir ki, bura əsasən istənilən struktur dəyişikliyi Baş Assambleya üzvlərinin üçdə ikisinin razılığı ilə yanaşı, mövcud 5 daimi üzvün hər birinin mütləq ratifikasiyasını tələb edir. Bu isə praktikada "özünü ləğvetmə" paradoksu yaradır. Bu gün iqtisadi və siyasi cəhətdən güclü Hindistan, Almaniya, Türkiyə, Yaponiya və Braziliya kimi ölkələr haqlı olaraq sual verirlər ki, niyə 80 il əvvəlki reallıq hələ də davam etməlidir? Məsələn, Hindistanın əhalisi və iqtisadiyyatı Britaniya və ya Fransadan qat-qat böyük olsa da, onun qərar qəbuletmə prosesində səlahiyyəti yoxdur.

Dəyişikliyin qarşısını alan təkcə "beşlik" deyil, həm də regional rəqabətdir. Məsələn, Pakistan Hindistanın, İtaliya Almaniyanın, Meksika isə Braziliyanın daimi üzv olmasına qarşı çıxır. Nəticədə, həm daxili qaydalar, həm də ölkələr arasındakı qarşılıqlı inamsızlıq sistemi kilidli vəziyyətdə saxlayır. Belə bir vəziyyətdə BMT-nin tərkibinin dəyişməsi üçün ya böyük güclərin üzləşəcəyi qlobal böhran, ya da beynəlxalq sistemin tamamilə yenidən qurulması lazımdır. Əks halda, dövlətlər yavaş-yavaş BMT-dən uzaqlaşıb BRICS və ya G20 kimi daha çevik və müasir reallıqları əks etdirən alyanslara üstünlük verməyə başlayacaqlar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın vaxtilə səsləndirdiyi, bu gün isə qurumun acı reallığını əks etdirən məşhur cümləsində də dediyi kimi, "dünya beşdən böyükdür".

*Tacir SADIQOV*
*XQ*

### *Ekspert rəyi*



**Vasif HÜSEYNOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**

Təşkilatın yaradıldığı 1940-cı illərdə qarşıya qoyulmuş əsas vəzifə beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi idi. Lakin fəaliyyətinin ilk illərindən BMT-nin bu istiqamətdə uğur qazanacağı böyük şübhə doğururdu. Təhlükəsizlik Şurasına 5 daimi üzvün təyin edilməsi ilə qurumun yaradıcıları, əslində, onun beynəlxalq münasibətlərdə qərəzsiz və nizamnamədə nəzərdə tutulduğu kimi, bitərəf sülh təşkilatı olmaq parlamasının qarşısını aldılar. Məhz bu 5 dövlət arasındakı çəkişmələr zamanla qurumun fəaliyyətini məhdudlaşdıraraq onu iflic vəziyyətinə gətirdi. "Soyuq müharibə" başa çatdıqdan sonra, 1990-cı illərin əvvəllərində konfrontasiyanın aradan qalxacağına və BMT-nin yenidən öz missiyasına qayıdacağına dair müəyyən ümidlər var idi. Lakin beynəlxalq münasibətlərdə gərginlik artdıqca BMT-nin fəaliyyətinə olan manelər də çoxaldı. Nəticədə, qurum beynəlxalq proseslərə heç bir real təsiri olmayan təşkilata çevrildi. Azərbaycan xalqı olaraq biz bunu illər boyu acı təcrübəmizdə müşahidə etmişik.

Bu vəziyyət onu göstərir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri öz maraqlarına uyğun gəldikdə hansısa qətnamənin icrasına dərhal, hətta hərbi yolla nail olur, lakin maraqlarına toxunmayan digər qətnamələrin icrası üçün heç bir səy göstərmirlər. Hazırda beynəlxalq vəziyyət elə bir həddə çatıb ki, hətta ABŞ kimi aparıcı dövlətlər belə BMT-ni əvəz edə biləcək yeni formatların axtarışına çıxıb. Bu ilin fevral ayında Sülh Şurasının yaradılması da göstərir ki, artıq dövlət rəsmiləri və siyasətçilər arasında BMT-nin yararsızlığına dair fikirlər getdikcə daha ucadan səslənir.

Nəticə etibarilə, yeni baş katibin bu fundamental problemlərin öhdəsindən gəlmək ehtimalı olduqca aşağıdır. Çünki bu böhranın kökü baş katibin fəaliyyəti ilə deyil, BMT-nin qurucusu olan aparıcı dövlətlərin mövqeyi və onlar arasındakı ziddiyyətlərlə bağlıdır. Odur ki, rəhbərliyin dəyişməsi ilə BMT-nin mövcud stereotipləri qıracağı və bu dərin böhrandan çıxacağı inandırıcı görünmür.

# Azərbaycan – Türkiyə – Avropa enerji körpüsü

*Zəngəzur dəhlizindən keçəcək yüksək gərginlikli xətt "qoca qitə"yə güc daşıyacaq*

**Naxçıvan Muxtar Respublikasının ölkənin əsas enerji sistemi ilə birləşdirilməsi və Azərbaycan–Türkiyə–Avropa enerji dəhlizinin formalaşdırılması istiqamətində işlər sürətlə davam edir.**

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin məlumatına görə, hazırda bu məqsədlə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıldan başlayaraq ikidövrəli olmaqla 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksək gərginlikli ötürmə xətti inşa olunur. Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini keçməklə 44 kilometr məsafədə əlavə ötürmə xətti inşa ediləcək. Bununla da muxtar respublikanın beynəlxalq enerji dəhlizində strateji mövqeyi ən yüksək səviyyəyə çatdırılacaq.

Bununla yanaşı, Naxçıvanda enerji infrastrukturu köklü şəkildə yenilənir, rəqəmsal və intellektual idarəetməyə əsaslanan müasir enerji sistemi qurulur. Layihə çərçivəsində regionun enerji təchizatında mühüm rol oynayan 110 kilovoltluq "Naxçıvan", 154 kilovoltluq "Babək" və kilovoltluq "Çeşməbasar" yarımstansiyaları tam yenidən tikilir və işlər yekun mərhələyə çatıb. Xüsusilə, "Naxçıvan" yarımstansiyası regionda ilk qapalı tipli yarımstansiya olaraq inşa edilir ki, bu da təhlükəsizlik və operativ idarəetmənin əhəmiyyətli dərəcədə artıracaq.



Eyni zamanda, enerji sisteminin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılır. Hazırda "AzərEnerji" tərəfindən bu məqsədlə Regional Rəqəmsal İdarəetmə Mərkəzi inşa olunur. Layihə çərçivəsində mövcud stansiya və yarımstansiyalar vahid SCADA şəbəkəsinə inteqrasiya olunacaq. Bütün bu yeniliklər isə enerji şəbəkəsinin məsafədən operativ və tam rəqəmsal idarə olunmasını təmin edəcək.

Bununla yanaşı, muxtar respublika üzrə ötürücü şəbəkə də mərhələli şəkildə yenilənir. Ötən əsrin 50-ci illərindən qalan 110 kilovoltluq hava xətləri müasir ötürmə xətləri ilə əvəz edilir. İlkin mərhələdə ümumi uzunluğu 69 kilometr olan "Culfa", "Ordubad-1" və "Ordubad-2" elektrik verilişi xətləri ikidövrəli olmaqla yenidən qurulub. Hazırda isə yaşayış ərazilərindən keçən bəzi hava xətlərinin 5,2 kilometrlik hissəsi müasir şəhər üslubuna uyğun olaraq yeraltı kabel xətləri ilə əvəz olunur.

**XQ**

# Hörmüz keçidi məngənədə: dönüş, yoxsa çöküş?

*Münaqişə bitsə də, iqtisadi titrəyiş il boyu davam edəcək*

**Beynəlxalq maliyyə arxitekturasının əsas institutlarından olan Beynəlxalq Valyuta Fondu Yaxın Şərqdə baş verən müharibənin qlobal iqtisadiyyata təsirlərini geniş şəkildə təhlil edib. Fondun qiymətləndirmələrinə görə, bu münaqişə yalnız region ölkələrinin sosial-iqtisadi həyatını sarsıtmaqla kifayətlənmir, eyni zamanda, dünya iqtisadi sistemində zəncirvari təsirlər yaradır.**




Mövcud vəziyyət göstərir ki, qlobal şok qeyri-bərabər paylanır və ən böyük yük məhz enerji idxalından asılı, maliyyə ehtiyatları məhdud olan ölkələrin üzərinə düşür. Münaqişənin yaratdığı təzyiqlər fonunda enerji, ərzaq və xammal bazarlarında qeyri-sabitlik daha da dərinləşir, bu isə ümumi iqtisadi artım tempinə mənfi təsir göstərir. Bu kontekstdə baş verənlər artıq təkcə regional böhran çərçivəsini aşaraq qlobal iqtisadi reallığın mühüm elementinə çevrilir.

Mövcud proseslərin dərinləşməsi fonunda enerji amili əsas təsir kanalı kimi ön plana çıxır. Xüsusilə də Hörmüz boğazı üzərindən həyata keçirilən enerji daşımalarının pozulması qlobal bazarlarda tarixi miqyasda təchizat zənciri problemləri yaradır. Dünya neftinin əhəmiyyətli hissəsinin və mayeləşdirilmiş təbii qazın mühüm payının bu marşrutdan keçməsi qiymətlərin kəskin artımını qaçılmaz edir. Nəticədə, enerji idxal edən ölkələr üçün bu artım, faktiki olaraq, əlavə maliyyə yükü yaradır və onların iqtisadi sabitliyini sarsıdır.

Bununla yanaşı, enerji qiymətlərinin yüksəlməsi sənaye istehsalına da birbaşa təsir göstərir. Xüsusilə Asiyanın iri sənaye iqtisadiyyatlarında yanacaq və elektrik xərclərinin artması məhsulun maya dəyərini yüksəldir, bu isə həm daxili bazarda qiymət artımına, həm də ixrac qabiliyyətinin zəifləməsinə gətirib çıxarır. Eyni tendensiya Avropa üçün də xarakterikdir; burada enerji bazarlarında yeni dalğalanmalar əvvəlki böhranların təkrarlanması riskini artırır və həyat xərclərini yüksəldir.

Digər mühüm istiqamət isə qlobal təchizat zəncirlərində baş verən dəyişikliklərlə bağlıdır. Dəniz nəqliyyat marşrutlarının dəyişdirilməsi, sığorta və logistika xərclərinin artması beynəlxalq ticarətin ümumi dəyərini yüksəldir. Bu isə nəticə etibarilə həm istehsalçıların, həm də istehlakçıların üzərinə əlavə yük qoyur. Xüsusilə gübrə və kənd təsərrüfatı məhsullarının daşınmasında problemlər ərzaq təhlükəsizliyi məsələsini daha da aktuallaşdırır.

Bütün bu faktorlar paralel şəkildə qlobal inflyasiya təzyiqlərini gücləndirir. Tarixi təcrübə göstərir ki, enerji qiymətlərinin uzunmüddətli artımı adətən iqtisadi artımın zəifləməsi ilə müşayiət olunur. Artan nəqliyyat və istehsal xərcləri son nəticədə mal və xidmətlərin qiymətlərinə ötürülür, bu isə xüsusilə aşağı gəlirli ölkələrdə sosial-iqtisadi gərginliyi artırır.

Digər tərəfdən, Beynəlxalq Valyuta Fondunun (BVF) idarəedici direktoru Kristalina Georgieva "Reuters" agentliyinə müsahibəsində bildirir ki, ABŞ və İsrailin İrana qarşı hərbi əməliyyatları dünyada daha yüksək inflyasiyaya və iqtisadi artımın azalmasına səbəb ola bilər.

Onun sözlərinə görə, münaqişə tezliklə başa çatsa belə, BVF qlobal makroiqtisadi proqnozlarını aşağı salmağı planlaşdırır: "Hazırda bütün yollar daha yüksək qiymətlərə və daha aşağı iqtisadi artıma aparır. Müharibə bu gün bitsə belə, dünya uzun müddət onun mənfi nəticələrini hiss edəcək".

K.Georgieva bildirib ki, enerji ehtiyatları olmayan kasıb və həssas ölkələr bu vəziyyətdən daha çox zərər görəcək. Onun sözlərinə görə, bir çox ölkələrin artan qiymətlərlə mübarizə aparmaq və vətəndaşlarına dəstək vermək üçün kifayət qədər maliyyə imkanları yoxdur. BVF rəhbəri bəzi dövlətlərin artıq maliyyə yardımı üçün müraciət etdiyini, lakin onların adlarını açıqlamadığını qeyd edib.

Niderlandın "ING Group" şirkətinin hesabatında isə qeyd olunur ki, Azərbaycanın idxalının təxminən yarısı Yaxın Şərqdəki vəziyyətlə bağlı inflyasiya risklərinə məruz qalır. Hesabata görə, 2025-ci ilin əvvəlindən inflyasiya 5–6 faiz diapazonunda qalır. İstehlak qiymətləri həm daxili tarif artımları, həm də idxal olunan məhsulların qiymət artımı səbəbindən risk altındadır. Dünya ərzaq qiymətlərinin 10 faiz artımı inflyasiya səviyyəsinə təxminən 1,5 faiz bəndi əlavə edə bilər.

ING analitikləri bildirirlər ki, ölkənin pul-kredit siyasətinin daha da yumşaldılması üçün imkanlar məhduddur. 2026-cı ilin yanvarında Azərbaycan Mərkəzi Bankı inflyasiyanın hədəf diapazonunu əsas gətirərək uçot dərəcəsini 25 baza bəndi azaldıb və 6,50 faizə endirib. Lakin yüksək dollarlaşma və ərzaq idxalı xərcləri faiz dərəcələrinin daha da endirilməsini çətinləşdirir.

Həmçinin vurğulanır ki, son aylarda Yaxın Şərqdəki gərginlik, İranın nüvə proqramı ilə bağlı qarşıdurmalar və ABŞ-İsrail hərbi hücumları region enerji infrastrukturuna və dəniz nəqliyyatına risk yaradıb. Hörmüz boğazındakı təhlükəsizlik gərginliyi neft qiymətlərinin kəskin artmasına səbəb olub və bu, Azərbaycanın idxal inflyasiyasına əlavə təzyiq göstərir.

Ölkəmizin neft gəlirləri aspektində isə mənzərə belədir: neftin orta illik qiymətinin hər 10 dollar artması ölkə iqtisadiyyatına təxminən 2,2 milyard manat əlavə gəlir gətirir. Bu məbləğin təxminən 8 milyard manatı Dövlət Neft Fondunun gəlirlərinin artmasına, təxminən 4 milyard manatı isə dövlət büdcəsinə vergi daxilolmalarının yüksəlməsinə yönəlir. Neftin yüksək qiyməti ölkənin tədiyə balansına müsbət təsir göstərir və ixrac gəlirlərini artırır. O cümlədən Rusiya-Ukrayna münaqişəsinin nəticələri və körfəz bölgəsindəki obyektlərə hücumlar qiymətlərin enməsini məhdudlaşdıracaq, çünki ixrac imkanlarının bərpası vaxt tələb edir.

Hazırda ABŞ və İran arasındakı atəşkəs razılaşması enerji qiymətlərində düşməyə səbəb olub. Lakin bu heç də vəziyyətin normallaşması demək deyil. Ümumi rəy belədir ki, 2026-cı ildə neft qiymətləri yüksək səviyyədə qalacaq və hətta münaqişələr tezliklə başa çatsa belə, onların təsiri bir müddət bazarda hiss olunacaq.

Böyük Britaniyanın "Energy Aspects" analitik şirkətinin təsisçisi Amrita Sen bildirib ki, əvvəlcədən razılaşdırılmış qiymətlər elə təəssürat yaradır ki, vəziyyət o qədər də gərgin deyil. Halbuki maliyyə bazarı real xammal çatışmazlığını gizlədir və bu çatışmazlıq artıq hər yerdə hiss olunur. Misal kimi Avropada topdansatış dizel qiymətlərinin artıq 200 dollar/barel səviyyəsinə çatdığını göstərib.

"Bloomberg"in məlumatına əsasən, hazırda İran nefti misli görünməmiş qiymət dönüşü edib və 2022-ci ilin mayından bəri ilk dəfə olaraq qlobal etalon "Brent" markasına qarşı premiumla ticarət olunmağa başlayıb. İranın əsas ixrac markası olan "Iranian Light Brent"ə nisbətdə müsbət zonaya keçərək barel üzrə 1 dollar premiuma çatıb.

"Allianz Trade" beynəlxalq sığorta və risklərin idarə edilməsi şirkəti isə Yaxın Şərqdə münaqişənin kəskinləşməsi və Hörmüz boğazında gəmiçiliklə bağlı fəaliyyətin pozulması fonunda Azərbaycanın ölkə reytinqini C1 səviyyəsindən B1 səviyyəsinə yüksəldib. Şirkətin mütəxəssisləri vurğulayırlar ki, yaranmış vəziyyət bütövlükdə ödəniş qabiliyyətinin olmaması ilə bağlı riskləri yenidən hərtərəfli qiymətləndirməsinə səbəb olub, üstəlik reytinqləri aşağı salınan ölkələrin sayı reytinqləri yüksəldilən dövlətlərin sayından çox olub.

Analitiklər onu da qeyd edirlər ki, ölkə səviyyəsində reytinqlərin aşağı salınması Hörmüz boğazındakı şokdan birbaşa təsirlənən və ya daxili problemlər yaşayan iqtisadiyyatlar arasında özünü göstərib. Qazaxıstan və Azərbaycan karbohidrogenlərə sabit tələbdən və öz geosiyasi mövqelərinin yaxşılaşmasından fayda əldə edir. Regional normallaşma nəticəsində Azərbaycanda da siyasi risklərin azalması qeydə alınır.

**N.ABDALOV**
**XQ**

# Serbiyaya qaz ixracının müddəti uzadılıb

*İndiyədək bu ölkəyə 444 milyon kubmetr mavi yanacaq nəql edilib*

**Aprelin 8-də Azərbaycan Respublikasının maliyyə naziri, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Sahil Babayev ölkəmizdə səfərdə olan Serbiya Respublikasının mədən və energetika naziri xanım Dubravka Djedoviç Handanoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlikdən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli əməkdaşlıq, o cümlədən enerji sahəsində əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Nazir Sahil Babayev iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayaraq əməkdaşlığın möhkəm hüquqi baza və yüksək səviyyəli siyasi dialoq əsasında uğurla inkişaf etdiyini qeyd edib. Bildirilib ki, imzalanmış çoxsaylı sazişlər, Hökumətlərarası Komissiyanın və Strateji Tərəfdaşlıq Şurasının fəaliyyəti əlaqələrin genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

İki ölkə arasında enerji sahəsində əməkdaşlığın əsas istiqamətlərinə toxunan nazir 2023-cü ildən etibarən Azərbaycan qazının Bolqarıstan–Serbiya interkonnektoru vasitəsilə Serbiyaya çatdırılmasının tərəfdaşlığın mühüm nailiyyətlərindən biri olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, bu çərçivədə imzalanmış müqavilə 2026-cı ilin sonunadək uzadılıb və hazırda qaz təchizatı həyata keçirilir.

Serbiya Respublikasının mədən və energetika naziri Dubravka Djedoviç Handanoviç iki ölkə arasında enerji sahəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinin önəmini vurğulayıb. O, 2026-cı ilin fevral ayında imzalanmış və Serbiyada qaz-turbin elektrik stansiyasının tikintisini nəzərdə tutan sazişin regionda enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Görüş zamanı, həmçinin neft və neft məhsulları, elektrik enerjisi, eləcə də yaşıl enerji və bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, Azərbaycan və Serbiya arasında qaz təchizatı və enerji sahəsində əməkdaşlığa dair müqavilələr 2023-cü il noyabrın 15-də Belqradda imzalanıb. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Srbijagas" şirkəti arasında əldə olunmuş razılaşmalara əsasən, 2024-2026-cı illərdə ölkəmizdən Serbiyaya 2027-ci ildən tədarük həcminin artırılması imkanı ilə ildə 400 milyon kubmetrədək qaz tədarükünə dair razılıq əldə olunub. Bu addım, həm də iki ölkə arasında enerji əməkdaşlığının gücləndirilməsinə imkan yaradıb.

Azərbaycan qazının Serbiyaya ixracını həyata keçirməyə imkan yaradan infrastruktur 2023-cü ildə istifadəyə verilib. Həmin il dekabrın 10-da bu ölkənin Niş şəhərində Serbiya–Bolqarıstan Qaz İnterkonnektorunun (birləşdirici kəmər) açılış mərasimi keçirilib. Mərasimdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birləşdirici kəmərin Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihə kimi dəyərləndirərək bu infrastrukturun, eyni zamanda, Azərbaycanın qaz ixracı coğrafiyasını daha da genişləndirdiyini bildirib.

Ölkəmiz Serbiyaya təbii qaz ixracına isə 2024-cü ilin yanvarında başlayıb. Həmin il Serbiyaya 12 milyon 984 ABŞ dolları dəyərində 35 milyon 352 min kubmetr qaz tədarük edilib. Bununla da Azərbaycan–Serbiya strateji tərəfdaşlığında yeni mərhələnin əsası qoyulub. Eyni zamanda, Serbiya Azərbaycandan qaz alan 7-ci Avropa ölkəsi kimi tarixə düşüb. Ötən müddətdə bu ölkəyə 444 milyon kubmetr qaz ixrac olunub. Bütövlükdə isə, Azərbaycanın Serbiyaya qaz ixracı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və bu tədarüklərin yaxın illərdə daha da artırılması hədəflənir.

Yeri gəlmişkən, energetika nazirinin müavini Orxan Zeynalov bir qədər əvvəl Serbiyanın nüfuzlu "NIN" nəşrinə müsahibəsində bildirib ki, 2026-cı ildən Azərbaycan Serbiyaya qaz tədarükünü ildə 1 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Qərbi Balkanların ən böyük dövləti olan Serbiyanın Bakı tərəfindən regionun əsas qaz, energetika və elektrik enerjisi mərkəzi kimi nəzərdən keçirildiyini diqqətə çatdıran nazir müavini deyib ki, hazırda bu ölkənin 2,63 milyard kubmetr illik qaz istehlakının, təxminən, 2,2 milyard kubmetr idxal edilir. Onun sözlərinə görə, yeni layihə çərçivəsində Azərbaycan bu ölkənin daxili qaz bazarının 20 faizini tuta biləcək ki, bu da birbaşa tədarük mənbələrinin diversifikasiyasına–energetika təhlükəsizliyinin əsas elementlərinin birinə kömək edən son dərəcə mühüm addımdır.

Artıq dost və strateji tərəfdaşlar arasında enerji sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Məlum olduğu kimi, Prezident İlham Əliyevin bu il fevralın 15-də Serbiyaya səfəri zamanı bu ölkədə yeni elektrik stansiyasının tikintisi barədə razılıq əldə olunub. Bunun nəticəsi olaraq "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş" imzalanıb.

Azərbaycan–Serbiya birgə layihəsi olan 500 meqavatlıq stansiyanın tikintisi 2 il çəkəcək və 2029-cu ilə qədər işə düşəcək. Stansiyanın tikintisinə Azərbaycan Dövlət Neft Şirkəti nəzarət edəcək. Yeri gəlmişkən, Serbiyanın Niş şəhəri yaxınlığında qazla işləyən istilik elektrik stansiyası layihəsi Azərbaycan Dövlət Neft Şirkətinin bu ölkədə ilk böyük birgə layihəsi olacaq. Azərbaycan qazı ilə işləyəcək stansiyada hasil olunan enerji xaricə də ixrac ediləcək.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Ölkəmizdə qaz hasilatı 2,4 faiz artıb

**Azərbaycan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə sabit qaz təchizatını təmin etməklə Cənub-Şərqi Avropa üçün qaz təchizatının şaxələndirilməsində əsas tərəfdaş kimi rolunu möhkəmləndirib.**

Bu barədə Qaz İxrac edən Ölkələr Forumunun (Gas Exporting Countries Forum – GECF) illik hesabatında (Qaz Bazarı üzrə İllik Hesabat – 2026) qeyd olunub.

Hesabata əsasən, 2025-ci ildə Avrasiya üzrə qaz hasilatı 1,8 faiz azalaraq 868 milyard kubmetr təşkil edib. Bu azalma əsasən Rusiyada hasilatın aşağı düşməsi ilə bağlı olub.

"Rusiya dünyada ikinci ən böyük qaz istehsalçısı olaraq qalmaqla yanaşı, Avrasiyada ümumi hasilatın 77 faizini təmin edərək regional bazarda dominant mövqeyini qoruyur. Rusiyadan sonra regionun qaz mənzərəsi Türkmənistan, Özbəkistan, Azərbaycan və Qazaxıstanın birgə töhfələri ilə formalaşıb", - hesabatda qeyd olunur.

Hesabatda bildirilir ki, ötən il Azərbaycanda qaz hasilatı 2,4 faiz artaraq 39 milyard kubmetrə çatıb. Bu artım əsasən ölkənin aparıcı dəniz yataqlarında sabit hasilat hesabına təmin olunub. Hasilatın əsas hissəsi 27,9 milyard kubmetr ilə "Şahdəniz" yatağının, həmçinin 3,5 milyard kubmetr ilə "Azəri-Çıraq-Günəşli" (AÇG) blokunun payına düşüb. Eyni zamanda, "Abşeron" qaz yatağında hasilat ilkin mərhələdə 7 faiz artaraq 1,6 milyard kubmetrə yüksəlib.

**XQ**

*ARAŞDIRMA*

# Niyə "çörəyimizin yarısı" qonşudan gəlir?

## *Dövlət dəstəyi artsa da, taxılçılıq enişə gedir*

*(əvvəli 1-ci səhifədə)*

Mövcud göstəricilər açıq şəkildə sübut edir ki, Azərbaycan əhalisinin ərzaqlıq buğda ilə təminatının 40 faizdən çoxu idxal hesabına formalaşır. Bu fakt ölkənin strateji ərzaq təhlükəsizliyində müəyyən narahatlıq yaratmaqla yanaşı, dövlətin valyuta xərclərini artırır və daxili bazarı xarici təsirlər altında saxlayır. Dövlət Statistika Komitəsinin məlumatına görə, təkcə 2024-cü ildə Azərbaycana 1 milyon 292 min ton buğda idxal edilməsi də narahatlığın əsassız olmamasını göstərir. Bu rəqəm, eyni zamanda, ölkənin buğda bazarının, təxminən, yarısının xaricdən təmin edildiyindən xəbər verir.

Rəsmi statistikaya əsasən, respublikada buğda üzrə özünütəminetmə səviyyəsi 2024-cü ildə 56,1 faiz (2023-cü illə müqayisədə 4,3 faiz az) təşkil edib. Bu isə o deməkdir ki, ölkədə buğda istehsalı aşağı düşməklə idxaldan asılılıq bir qədər də artıb. Ekspertlər bildirirlər ki, bu prosesin 2025-ci ildə də davam etməsi ərzaq təhlükəsizliyinin gələcəyi ilə bağlı müəyyən çətinliklərə zəmin yaradıb. Çünki qlobal buğda bazarında qeyri-sabitliyin hazırda da hökm sürməsi və bunun iqlim böhranı, müharibələr, enerji və gübrə qiymətlərinin bahalaşmasından qaynaqlanması məhsulun dünya qiymətlərini sürətlə dəyişməsinə təsir göstərib.

**Kənd təsərrüfatı eksperti Aslan Hüseynov** Azərbaycan kimi idxaldan asılı ölkə üçün bu dalğalanmaların hər birini potensial sosial-iqtisadi gərginlik riski hesab edir. O, bununla bərabər, buğda istehsalında ən böyük problemi əkin sahəsinin azlığı ilə yox, məhsuldarlığın aşağı olması ilə əlaqələndirir. Statistik göstəricilərə görə, 2000-ci ildən indiyədək, yəni 25 il ərzində buğda məhsuldarlığının hər hektardan 23,7 sentnerdən 32 sentnerə yüksəlməsi də bunun bariz ifadəsidir. Düzdür, bu artım ilk baxışda müsbət nəzərə çarpır. Lakin burada əsas problem 25 il kimi uzun bir dövrdə məhsuldarlığın cəmi 14 faiz artmasıdır. Bu isə, əslində, inkişafın dayanması deməkdir.

Bu gün inkişaf etmiş aqrar dövlətlərdə buğdanın məhsuldarlığı 45-60 sentner arasında dəyişir. Azərbaycan kimi torpaq və iqlim potensialına malik bir ölkədə isə 32 sentner göstəricisi real imkanlardan tam istifadə edilmədiyini göstərir. Son 20-25 ildə məhsuldarlığın 25-27 sentnerdən, təqribən, 32 sentnerə yüksəlməsi faktından da bu gerilik aydın nəzərə çarpır. Deməli, problem potensialın olmaması ilə bağlı deyil, bu, daha çox idarəetmə, texnologiya, toxum və suvarma sistemlərinə xüsusi diqqət yetirilməməsi ilə əlaqədardır.



### Subsidiyalar artır, nəticə isə yoxdur

Bu məsələdə ən ciddi narahatlıqlardan biri istehsalın azalması ilə bağlıdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il respublikada buğda istehsalı 1 milyon 610 min ton (əvvəlki ilə nisbətən 4,5 faiz, yəni 73 min ton az) olub. Əgər bu azalma tək bir illə məhdudlaşsaydı, bunu hava şəraiti ilə izah etmək mümkün idi. Amma rəqəmlər daha geniş mənzərəni göstərir. Belə ki, 2019-cu ildə Azərbaycanda buğda istehsalı 2 milyon 171 min 490 ton təşkil edib. İndiki göstərici ilə müqayisədə istehsal 562 min ton azalıb. Bu isə son 6 ildə buğda istehsalının 25,8 faiz geriləməsi deməkdir. Strateji məhsul istehsalının azalması isə həm iqtisadi, həm də sosial narahatlıq yaradır.

Buğda istehsalı dövlətin daim diqqət mərkəzində olub. Ölkə başçısı İlham Əliyevin 2022-ci ildə imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman bu sahənin prioritetliyini bir daha təsdiqlədi. Sənədə əsasən, 2023-cü ildən başlayaraq buğda istehsalı üzrə öhdəlik götürmüş fermerlər Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verdikləri hər 1 ton buğda üçün 100 manat məhsul subsidiyası, hər hektar buğda əkin sahəsinə görə isə 210 manat əkin subsidiyası əldə edirlər. Bundan əlavə, 2007-ci ildən başlayaraq buğda istehsalçılarına ayrılan subsidiyaların digər sahələrlə müqayisədə iki dəfə çox olduğu bildirilir.

Lakin burada qarşıya belə bir sual çıxır: subsidiya var, dəstək var, bəs onda istehsal niyə azalır? Bu sualın cavabında ekspertlər bildirirlər ki, təkcə subsidiya mexanizmi ilə problem həll olunmur. Çünki subsidiya yalnız maliyyə dəstəyidir. Əgər istehsalın struktur problemləri aradan qalxmırsa, maliyyə dəstəyi müsbət nəticə vermir. Başqa sözlə, subsidiya istehsalı artırmırsa, deməli, onun tətbiq mexanizmi və hədəfi yenidən qiymətləndirilməlidir. Ümumiyyətlə, subsidiya mexanizmi yalnız maliyyə stimulundan ibarət olmamalıdır. Əgər subsidiyalar düzgün istiqamətə yönəldilmirsə, məhsuldarlığı artıran texnologiyaların tətbiqini stimullaşdırmırsa, fermerin istehsal prosesindəki real problemlərini həll etmirsə, nəticə gözlənilən səviyyədə olmur.

### Məhsuldarlığın "gizli düşməni"

**Biologiya elmləri üzrə fəlsəfə doktoru Qulu Baxışovun** sözlərinə görə, buğda istehsalında məhsuldarlığın artmamasının əsas səbəblərindən biri keyfiyyətli toxum təminatıdır. Müasir aqrar siyasətdə toxum ən vacib amillərdən biridir. Bu baxımdan dünyada məhsuldarlığın əhəmiyyətli hissəsi məhz seleksiya və genetika ilə bağlıdır. Azərbaycanda isə toxum bazarında problemlər hələ də qalır. Bir çox hallarda fermer təsərrüfatlarında sertifikatlı, yüksək məhsuldar toxum əvəzinə bazardan alınan, məhsuldarlığı aşağı olan toxumlardan istifadə edilir. Nəticədə isə məhsuldarlıq aşağı olur, xəstəliklər getdikcə çoxalır, məhsul keyfiyyəti zəifləyir və iqlim risklərinə davamlılıq azalır.

Bu gün iqlim dəyişiklikləri fonunda toxum məsələsi xüsusilə aktualdır. Çünki quraqlığa davamlı sortlar, yüksək keyfiyyətli toxum materialları və elmi seleksiya olmadan məhsuldarlığı artırmaq qeyri-mümkündür. Bu səbəbdən toxumçuluq sisteminin yenidən qurulması buğda təhlükəsizliyinin əsas şərtidir.

Azərbaycanın kənd təsərrüfatında ən böyük problemlərdən biri də su resurslarının azalmasıdır. Quraqlıq risklərinin artması, su anbarlarının dolma səviyyəsinin azalması, suvarma kanallarında itkilər və bəzi regionlarda su çatışmazlığı buğda istehsalına ciddi təsir edir. Ənənəvi suvarma üsulları isə suyun böyük hissəsinin itirilməsinə səbəb olur. Halbuki müasir aqrar ölkələrdə suya qənaət edən texnologiyalar daha geniş tətbiq edilir. Əgər suvarma infrastrukturu yenilənməsə, nə qədər subsidiya verilsə də, məhsuldarlıqda sabit artım olmur.

Buğda istehsalında fermeri "Buğda əkib qazanacağammı?" sualı daha çox düşündürür. Bu da təsadüfi deyil. Çünki əgər gübrə bahalaşırsa, yanacaq xərcləri artırsa, texnika köhnədirsə, su problemi varsa və məhsulu satmaq çətindirsə, o zaman fermerin buğda əkininə marağı itir. Belə halda o, təbii ki, daha gəlirli sahələrə üstünlük verir. Nəticədə buğda istehsalı azalır, idxal artır. Deməli, bu sahədə istehsalın artırılması üçün, ilk növbədə, fermerin iqtisadi marağı təmin edilməlidir. Əks təqdirdə, dövlətin hədəfləri kağız üzərində qalır.

### Buğda strateji məhsuldur

Dünya buğda bazarı son illər geosiyasi və iqlim risklərinə qarşı daha çox həssasdır. Rusiya – Ukrayna müharibəsi, Avropada quraqlıq, Kanadada məhsuldarlıq problemləri, Hindistan və digər dövlətlərin ixrac məhdudiyyətləri buğdanın qiymətini kəskin dəyişdirir. Bu gün idxal asılılığı olan ölkələr üçün əsas narahatlıq isə böhran zamanı buğdanın bazarda axtarılmasıdır. Bu çətinlik yaşanmasa belə, qiymət çox yüksək ola bilər. Bu baxımdan idxal əlavə təminat mexanizmi kimi çıxış etməli, əsas yük daxili istehsalın üzərində qurulmalıdır.

Yuxarıda sadalanan çətinliklərə baxmayaraq, bu gün məhsuldarlığı 32 sentnerdən 40 sentnerə yüksəltmək üçün Azərbaycanın qarşısında real imkanlar var. Bu, təkcə nəzəri fikir deyil. Bir çox təsərrüfatlarda artıq bu nəticəyə yaxın göstəricilər əldə olunur. Daha yüksək məhsuldarlıq əldə etmək üçün, ilk növbədə, sertifikatlı və iqlimə davamlı toxumların kütləvi tətbiqi həyata keçirilməli, gübrə və aqrotexniki xidmətlər düzgün təşkili olunmalı, suvarma sistemlərinin modernləşdirilməsi, subsidiya mexanizminin məhsuldarlıq nəticəsinə bağlanması, fermerlərə texnika və maliyyə resurslarının daha əlçatan edilməsi, eləcə də buğda ehtiyatlarının saxlanması üçün infrastrukturun genişləndirilməsi kimi prioritetlərə önəm verilməlidir. Əgər bu tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılarsa, ölkə buğda istehsalında yenidən 2 milyon ton həddinə qayıda və idxal asılılığı tədricən azala bilər.

Buğda Azərbaycanın strateji məhsuludur. Əhalinin ərzaqlıq buğda ilə təminatının 40 faizdən çoxunun idxal hesabına formalaşması, özünütəminetmə səviyyəsinin 56,1 faizə düşməsi və istehsalın son 6 ildə 25,8 faiz azalması göstərir ki, bu sahədə ciddi struktur problemləri var. Dövlətin subsidiyalar, eləcə də rəsmi sənədlərlə dəstəyi mühüm addımdır. Lakin artıq bu dəstəyin kifayət olmadığı görünür. Ona görə də buğda istehsalının artırılmasını təkcə maliyyə yardımı ilə yox, kompleks islahatlarla gerçəkləşdirmək mümkündür.

Azərbaycanın əsas hədəfi məhsuldarlığı 40 sentnerə çatdırmaq, istehsalı yenidən 2 milyon ton səviyyəsinə yüksəltmək və idxaldan asılılığı minimuma endirmək olmalıdır. Əks halda, dünya bazarında hər qiymət dalğalanması ölkə daxilində çörək bazarına təsir edəcək və sosial narahatlıqları artıracaq. Çörək bahalaşanda ən çox zərbə alan isə sosial təbəqə, başqa sözlə, aşağı gəlirli ailələr olacaq. Deməli, buğda siyasəti kənd təsərrüfatı məsələsi olmaqla bərabər, həm də sosial ədalət və milli təhlükəsizlik xarakteri daşıyır. Bu səbəbdən Azərbaycan buğda strategiyasını yeni mərhələyə keçirməli, idxaldan asılılığı azaltmaq üçün məhsuldarlıq, toxumçuluq və suvarma sistemlərini köklü şəkildə yeniləməlidir.

*Ekspert rəyi*

**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**



Əhalinin ərzaqlıq buğda ilə təminatının yüksəldilməsi, fikrimcə, bir neçə amillə bağlıdır. Bu, ilk növbədə, suvarma kanallarının yenilənməsi, su itkilərinin azaldılması, müasir suvarma texnologiyalarının tətbiqi, suyun rəqəmsal idarə edilməsi və suvarma qrafiklərinin optimallaşdırılması ilə əlaqədardır. Əgər su problemi aradan qaldırılmasa, toxum və gübrə nə qədər keyfiyyətli olsa belə, məhsuldarlıqda artıma nail olmaq çox çətindir.

Fermerlərin üzləşdikləri çətinliklər sırasında köhnə kənd təsərrüfatı texnikasının vaxtında təzələnməməsi, lizinq mexanizminin əlçatan olmaması, gübrə və pestisidlərin bahalaşması, məhsulun saxlanması üçün anbarların məhdudluğu, bazara çıxış və satış prinsiplərinin qeyri-sabitliyi və məhsulun daşınması zamanı itkilərin yaranması buğda istehsalının rentabelliyini aşağı salır. Subsidiyalar isə bu problemlərin yalnız bir hissəsini kompensasiya edir. Başqa sözlə, əgər istehsal zəncirinin digər mərhələləri modernləşdirilmirsə, fermer üçün buğda istehsalı riskli sahə olaraq qalır. Belə halda isə məhsulun bazarda sərfəli qiymətə satılması çətinləşir, nəticədə, buğda əkininə cəlbedici sahə kimi yanaşılmır.

Onu da qeyd edim ki, bu gün buğda bazarı beynəlxalq səviyyədə geosiyasi təsirlərə çox həssasdır. Dünyanın əsas buğda ixracatçıları olan Rusiya, Ukrayna, Kanada, ABŞ, Avstraliya və Qazaxıstan bazarda qiymət və təklifin əsas müəyyənediciləridir. Müharibə, quraqlıq və enerji böhranı kimi amillər həmin ölkələrdə istehsalı azaldanda dünya bazarında qiymətlər yüksəlir. Azərbaycan isə idxaldan asılı olduğu üçün bu qiymət artımını daxili bazarda hiss edir.

Bu amillər un və çörək qiymətlərində bahalaşmaya, sosial narahatlıqların yaranmasına, dövlətin subsidiyalara əlavə yük götürməsinə, valyuta xərclərinin artmasına və inflyasiya təzyiqlərinin yüksəlməsinə səbəb olur. Başqa sözlə, idxaldan asılılıq kənd təsərrüfatı problemi olmaqla yanaşı, makroiqtisadi və sosial narahatlığa çevrilir.

Azərbaycanın buğda üzrə idxaldan asılılığını azaltması üçün kompleks tədbirlər tələb olunur. Bunun üçün məhsuldarlıq prioritet elan edilməli, hər hektarın məhsuldarlığı artırılması əsas hədəf olmalı, sertifikatlı toxum təminatı genişləndirilməli, seleksiya institutları bazar tələbinə uyğun fəaliyyət göstərməli, iqlimə davamlı sortların kütləvi tətbiqi diqqətdə saxlanılmalı, quraqlığa və xəstəliklərə davamlı buğda sortları regionlara uyğunlaşdırılmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Sosial gündəm*

# Özünüməşğulluq – kiçik biznesə keçidə dəstək

**Azərbaycanda özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslərin qurulması sosial müdafiə mexanizmi, həm də iqtisadi inkişaf aləti kimi çıxış edərək aztəminatlı ailələrin aktiv iqtisadi fəaliyyətə cəlb olunmasına və gəlir imkanlarının artırılmasına xidmət edir. Prezident İlham Əliyevin tapşırığı ilə icra edilən proqram məşğulluğun təmin olunması ilə yanaşı, işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxış imkanlarına dəstək verir.**

Ötən il daha 16,8 min şəxs kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. Dövlətimizin başçısı bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib: "Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı ənənəvi sosial yardım yanaşmasından fərqli olaraq vətəndaşlara gəlir yaradan fəaliyyət imkanı verir. Bu baxımdan proqram sosial asılılığın azaldılması və iqtisadi fəallığın artırılması məqsədi daşıyır. Rəsmi yanaşmaya görə, proqram iştirakçılarına birbaşa pul vəsaiti deyil, biznes planlarına uyğun avadanlıq, mal-materiallar formasında aktivlər təqdim olunur ki, həmin aktivlər hesabına onlar kiçik ailə təsərrüfatları qururlar.

Proqrama cəlb olunanların sayı son illərdə, təqribən, 15 dəfə artaraq 16 mini ötüb. Keçən il daha 16 min 827 şəxs proqrama cəlb edilib. Cari ildə də İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına 8 min, Dünya Bankı layihəsi çərçivəsində 7 min nəfər olmaqla, ümumilikdə, 15 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulub. Proqramın ilk mərhələsində benefisiarlar üçün təşkil olunan təlimlərdə onlara kiçik ailə təsərrüfatlarının düzgün idarə edilməsi, inkişafı, bizneslərin təşkili ilə bağlı bilik və bacarıqlar aşılanır.

Təlimləri uğurla bitirənlərə kənd təsərrüfatı, istehsal və xidmətyönümlü kiçik təsərrüfatlar qurmaq üçün biznes planlarına uyğun aktivlər verilir. Nəticədə, işsiz və işaxtaran şəxs artıq kiçik təsərrüfat sahibinə çevrilir və öz zəhməti ilə gəlir imkanları qazanır. Bu baxımdan proqram sosial asılılığın azaldılması və iqtisadi fəallığın artırılması məqsədi daşıyır və sosial siyasətin iqtisadi alətlərlə inteqrasiyasının uğurlu nümunəsidir.

Proqramın əhatə etdiyi iqtisadi fəaliyyət sahələri əmək bazarının tələbləri əsasında genişləndirilir. Ötən il bu sıraya daha 5 fəaliyyət istiqaməti ("Qəssab dükanı", "Kotançılıq", "Özünəxidmət avtoyuma", "Avtodəmirçi və PDR (zədələrin boyasız təmiri) xidmətləri", "Avtorazval xidmətləri") əlavə olunub. Beləliklə, hazırda proqram çərçivəsində iştirakçılara kənd təsərrüfatı və istehsal-xidmətyönümlü 30-dan çox iqtisadi fəaliyyət sahəsi üzrə aktivlər verilir. Eyni zamanda, təklif edilən digər zərflərdə dəyişiklik edilərək daha da təkmilləşdirilib.

Özünüməşğulluq proqramının genişlənməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra edilən "Məşğulluğa Dəstək Layihəsi" əhəmiyyətli rola malikdir. Layihə çərçivəsində 26,7 min şəxs üçün kiçik təsərrüfatlar yaradılıb. 2025-2029-cu illəri əhatə edəcək 2-ci mərhələ isə 30 min şəxsə şamil olunacaq.



Özünüməşğulluq proqramı sosial müdafiə tədbiri olmaqla yanaşı, həm də qeyri-neft sektorunun inkişafına xidmət edən real iqtisadi mexanizmdir. Proqram çərçivəsində bölgələrdə yaradılan kiçik ailə təsərrüfatları regionlarda yerli iqtisadiyyatın canlanmasına və kənd yerlərində məşğulluğun artmasına müsbət təsir edir. Kənd yerlərində qurulan kiçik təsərrüfatlar, xidmət obyektləri və mikroistehsal sahələri yerli resurslardan istifadə etməklə əlavə dəyər yaradır. Məsələn, heyvandarlıq, əkinçilik, arıçılıq və ya qida istehsalı ilə məşğul olan şəxslər həm daxili tələbatı ödəyir, həm də məhsulu bazara çıxarmaqla region daxilində ticarət əlaqələrini gücləndirirlər. Bu isə kənd iqtisadiyyatının dayanıqlı olmasına dəstək verir.

Eyni zamanda, proqram çərçivəsində yaradılan iş imkanları kənd yerlərindən şəhərlərə miqrasiyanın qarşısının alınmasına təsir edir. İnsanların yaşadıqları ərazilərdə gəlir əldə etmək imkanlarının genişlənməsi sosial sabitliyi möhkəmləndirir, ailə büdcələrinin dayanıqlılığını artırır. Xüsusilə aztəminatlı ailələr üçün bu, sosial yardımdan asılılığın azalması və aktiv iqtisadi subyektə çevrilmək imkanı deməkdir.

Digər mühüm məqam isə regionlarda sahibkarlıq mühitinin formalaşmasıdır. Özünüməşğulluq proqramı çərçivəsində vətəndaşların biznes planlaşdırma, maliyyə idarəetməsi və bazar münasibətləri ilə bağlı bilik və bacarıqlar əldə etməsi uzunmüddətli perspektivdə yerli sahibkar təbəqəsinin genişlənməsinə səbəb olur. Bu da regionların iqtisadi müstəqilliyini və rəqabət qabiliyyətini artırır. Proqram regionlarda kiçik bizneslərin təşkili vasitəsilə yalnız məşğulluq problemini həll etmir, həm də yerli iqtisadiyyatın strukturunun gücləndirilməsinə, sosial rifahın yüksəldilməsinə və davamlı inkişafın təmin olunmasına töhfə verir.

İşğaldan azad edilmiş ərazilərdə də özünüməşğulluq proqramı uğurla icra edilir. Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdların dönən sakinlərlə nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən görüşlər keçirilir, onların məşğulluq imkanları qiymətləndirilir və hansı fəal məşğulluq proqramlarına cəlb olunacaqları əvvəlcədən müəyyən edilir. Artıq doğma yurd yerlərinə köçürülən 800-ə yaxın şəxsə mal və materiallar formasında aktivlər verilərək onlar üçün kiçik bizneslər yaradılıb.

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı**

Azərbaycanda özünəməşğulluq proqramının icrasını qiymətləndirərkən ona həm iqtisadi, həm də sosial siyasət aləti kimi yanaşmalıyıq. Belə ki, bu proqram klassik sosial yardım modelindən fərqli olaraq aktiv məşğulluq siyasəti kimi çıxış edir. Hesab edirəm ki, bu, kiçik sahibkarlığın inkişafıdır. Belə ki, proqram əsasən işsizliyin aradan qaldırılmasına, aztəminatlı şəxslərin kiçik biznes qurmasına vəsilə olur, iqtisadi baxımdan əlavə dəyər yaradır, vergi bazasını genişləndirir. Həmçinin vergi ödəyicilərini və işəgötürənlərin sayını artırır. Həmin şəxslərin çox hissəsi, bəzən 70 faizi biznes sahəsini inkişaf etdirir. Bu da həmin proqramların uzunmüddətli dayanıqlılığını, sabitliyini təmin edir, yoxsulluğun azaldılmasına ciddi təsir göstərir.

Bu proqram ən çox həssas qruplara yönəldilib. Belə yanaşma onlarda motivasiya və gəlir əldə etmək vərdişləri yaradır. Proqram özündə inklüzivliyi əks etdirir, yəni burda həm əlil olan şəxslər, şəhid ailələri, həm də işsiz şəxslər iştirak edir. Ən başlıcası, bu cür şəxslərin dövlətdən asılılığı azalır, yardım alandan gəlir qazanan modelə keçid yaradır. Sahibkarlıq mədəniyyətinin formalaşmasına təsir göstərir, dövlətin sosial müdafiə yükünü azaldır, eyni zamanda, iqtisadi artımı stimullaşdırır. Əlbəttə ki, bu proqramın da müəyyən çatışmazlıqları var. Bəzən proqramdan yararlananlar öz bizneslərini yarımçıq saxlayırlar. Bu da çox vaxt onların biznes vərdişlərinin az olması ilə bağlı olur. Onların daha çox maarifləndirilməsinə, təlimlərin keçirilməsinə ehtiyac olur. Hesab edirəm ki, bu iqtisadi baxımdan mikrosahibkarlığı və məşğulluğu artıran effektiv mexanizm, sosial baxımdan yoxsulluğun azalması və inkişaf aləti, strateji baxımdan isə passiv sosial yardımdan fəal əmək bazarına keçid modelidir.

***Mustafa KAMAL***
***XQ***

# Rəqəmsal gələcəyin inqilabi strategiyası

## *Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) yaranmasından 5 il ötür*

**Rəqəmsal transformasiyanın sürətləndiyi, innovasiyaların iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrildiyi bir dövrdə Azərbaycan da bu qlobal trendlərə uyğun strateji addımlar atır. Bu istiqamətdə ölkədə həyata keçirilən təşəbbüslərin mərkəzində İqtisadiyyat Nazirliyinin tabeliyində 5 il əvvəl fəaliyyətə başlamış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) dayanır. Mərkəz rəqəmsal iqtisadiyyatın inkişafı və insan kapitalının gücləndirilməsi baxımından mühüm rol oynayır. Bəs bu proseslər hansı mərhələdədir və qarşıda hansı hədəflər dayanır? Bu və digər suallara aydınlıq gətirmək üçün 4SİM-in icraçı direktoru Fariz Cəfərovla həmsöhbət olduq.**



**– 4SİM-in əsas missiyası nədən ibarətdir? Mərkəz Azərbaycanda Dördüncü Sənaye İnqilabının çağırışlarına necə cavab verir ?**

– Dünya iqtisadiyyatı Dördüncü Sənaye İnqilabı mərhələsindədir. Süni intellekt, 5G və 6G, əşyaların interneti, rəqəmsal əkiz, ağıllı şəhərlər, robotlar və avtomatlaşdırma texnologiyaları iqtisadi modelləri və idarəetmə yanaşmalarını köklü şəkildə dəyişir. Qlobal qiymətləndirmələrə görə, süni intellekt bazarının həcmi 2025-ci ildə 240 milyard ABŞ dollarını ötüb və 2040-cı ilədək onun qlobal iqtisadiyyata töhfəsinin 22 trilyon ABŞ dollarını keçəcəyi proqnozlaşdırılır. Rəqəmsal transformasiyanı sürətlə həyata keçirən ölkələr yeni iqtisadi reallıqlarda rəqabət üstünlüyü qazanırlar.

Azərbaycan üçün bu proses iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi və insan kapitalının inkişafı baxımından strateji əhəmiyyət daşıyır. 2021-ci ildə dövlət başçısının Fərmanı ilə yaradılmış İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) ölkənin qlobal texnoloji trendlərə sistemli və koordinasiyalı şəkildə cavab verməsini təmin edən əsas institusional platformadır. 4SİM, eyni zamanda, Dünya İqtisadi Forumunun 27 mərkəzdən ibarət Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycandakı Mərkəzidir.

4SİM-in missiyası Dördüncü Sənaye İnqilabının imkanlarını milli prioritetlərlə uzlaşdırmaq, innovativ texnologiyaların sektorlar üzrə tətbiqini təşviq etmək, bu istiqamətdə dövlət-özəl sektor əməkdaşlığını koordinasiya etmək və Azərbaycanın rəqəmsal iqtisadiyyat üzrə mövqeyini gücləndirməkdir.

4SİM fəaliyyətini beş əsas istiqamət üzrə qurub: qlobal texnoloji trendlərin monitorinqi və beynəlxalq təcrübənin ölkəyə transferi; innovativ texnologiyaların sektoral tətbiqinin təşviqi; rəqabətədavamlı insan kapitalının formalaşdırılması; rəqəmsal iqtisadiyyat üzrə strateji sənədlərin hazırlanması və icrasının koordinasiyası; eləcə də ictimai maarifləndirmə. Mərkəz rəqəmsal iqtisadiyyat, süni intellekt, rəqəmsal ticarət, əşyaların interneti və digər qabaqcıl texnologiyalar üzrə həm beynəlxalq tərəfdaşlarla, həm də yerli maraqlı tərəflərlə sistemli əməkdaşlıq həyata keçirir.

**– Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün strategiya qəbul olunub. Bu sahəyə xarici investisiya qoyuluşu istiqamətində hansı işlər görülüb, gələcək planlar nədən ibarətdir ?**

– 2025-ci ildə Prezidentin Sərəncamı ilə təsdiq edilmiş “2026-2029-cu illər üzrə Azərbaycan Respublikasında Rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya” milli iqtisadiyyatın sahələrində rəqəmsal transformasiyanın sistemli və ölçüləbilən şəkildə həyata keçirilməsini nəzərdə tutan əsas çərçivə sənədidir. Strategiyada üç əsas istiqamət üzrə - dövlət, biznes və cəmiyyət - ümumilikdə 50 təşəbbüs müəyyən edilib. Onlardan 8-i yüksək təsir gücünə malik prioritet istiqamətlər kimi seçilib. Məqsəd rəqəmsal iqtisadiyyatın genişləndirilməsi, real sektorun texnoloji modernləşdirilməsi və innovasiya əsaslı inkişaf modelinə keçidin sürətləndirilməsidir.

Strategiyada 9 prioritet istiqamətdən biri məhz investisiya mühitinin yaxşılaşdırılması və qlobal bazarlara inteqrasiyanın gücləndirilməsidir. Bu çərçivədə rəqəmsal iqtisadiyyat sahəsində tənzimləyici mühitin təkmilləşdirilməsi, innovasiya və texnologiya şirkətləri üçün əlverişli biznes şəraitinin yaradılması, beynəlxalq texnologiya tərəfdaşlıqlarının genişləndirilməsi, ixracyönümlü rəqəmsal məhsul və xidmətlərin təşviqi, eləcə də ölkənin regional rəqəmsal hab kimi mövqeləndirilməsi nəzərdə tutulur.

Eyni zamanda, xarici investorlar üçün “bir pəncərə” prinsipi əsasında fəaliyyət göstərəcək xüsusi müşayiət və məlumatlandırma (concierge) xidmətinin yaradılması planlaşdırılır. Bu mexanizm vasitəsilə ölkəyə maraq göstərən investorlar bütün zəruri məlumatları, prosedur dəstəyi və əlaqələndirmə xidmətlərini vahid platformadan əldə edə biləcəklər. Məqsəd Azərbaycanı qlobal rəqəmsal dəyər zəncirlərinə daha fəal inteqrasiya etmək və yüksək texnologiyalar sahəsinə xarici investisiya axınını artırmaqdır.

4SİM bu strategiyanın icrasında dövlət qurumları, biznes subyektləri və beynəlxalq tərəfdaşlar arasında əlaqələndirmə rolunu həyata keçirir, real sektor üçün pilot mexanizmlər formalaşdırır və təşəbbüslərin praktik tətbiqini dəstəkləyir. Xüsusilə Sənaye 4.0, süni intellekt, data əsaslı idarəetmə, rəqəmsal bacarıqlar və innovasiya ekosisteminin gücləndirilməsi istiqamətləri üzrə konkret layihələr icra olunur.

Strategiya nəticəyönümlü yanaşmaya əsaslanır və konkret göstəricilər müəyyən edir. 2029-cu ilədək 300 müəssisənin rəqəmsal keçid proqramlarına cəlb edilməsi əsas hədəflərdən biridir. Strategiya çərçivəsində rəqəmsal bazarlara çıxış əldə edən KOB-ların sayının 200-ə çatdırılması, 250 yeni startapın formalaşdırılması və 40 min nəfərin rəqəmsal bacarıqlar üzrə təlimlərdən keçməsi əsas hədəflər sırasındadır. Eyni zamanda, sənəd əmək bazarında aktiv əhalinin ən azı 2 faizinin yüksəkixtisaslı İKT mütəxəssislərindən ibarət olmasını strateji məqsəd kimi müəyyən edir. Bu məqsədlə beynəlxalq sertifikat proqramları üzrə vətəndaşların təlim xərclərinin dövlət tərəfindən maliyyələşdirilməsi də nəzərdə tutulur.



**– Hazırda Azərbaycanın Dünya İqtisadi Forumunun “Sənaye klasterlərinə keçid” qlobal təşəbbüsünə qoşulması 4SİM-ə uyğun olaraq həyata keçirilir. Təşəbbüsün məqsədləri və gözlənilən nəticələri barədə nə deyə bilərsiniz? 4SİM-in enerji sahəsində süni intellekt tətbiqləri üzrə həyata keçirilən pilot layihə bu prosesə hansı töhfə verir?**

– Cari ilin yanvar ayında Davos İqtisadi Forumunun 55-ci illik toplantısı çərçivəsində ilk dəfə “Texnoloji transformasiya vasitəsilə enerji keçidinin sürətləndirilməsi: Süni intellekt əsaslı sənaye” mövzusunda birgə sessiya təşkil etdik.

Builki sessiya zamanı Azərbaycanın DİF-in “Sənaye Klasterlərinə Keçid” qlobal təşəbbüsünə qoşulması ölkəmizdə sənayenin karbonsuzlaşması, rəqəmsal transformasiya və dayanıqlı inkişaf baxımından mühüm addımdır. Bu qərar “2026-2029-cu illər üzrə rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya”nın prioritetlərinə - sənaye klasterlərinin formalaşdırılması, beynəlxalq təşəbbüslərə inteqrasiya və yaşıl iqtisadiyyatın inkişafına tam uyğundur. Azərbaycanın təşəbbüsə qoşulmasına dair Niyyət Məktubu Davos Forumu çərçivəsində imzalanıb və proses 4SİM-in koordinasiyası ilə həyata keçirilir.

DİF-in “Sənaye Klasterlərinə Keçid” təşəbbüsü eyni bölgədə yerləşən və dəyər zənciri üzrə əlaqəli müəssisələrin karbonsuzlaşma, rəqəmsal texnologiyaların tətbiqi və dayanıqlı istehsal modeli üzrə koordinasiyalı fəaliyyətini nəzərdə tutur. Hazırda təşəbbüsə 19 ölkədən 39 klaster qoşulub və Azərbaycan bu şəbəkəyə daxil olan 20-ci ölkədir. Qoşulmuş klasterlər qlobal miqyasda 877 milyon ton $CO_2$ ekvivalentinin azaldılmasına, 508 milyard ABŞ dolları həcmində ÜDM töhfəsinə və 4,6 milyon iş yerinin dəstəklənməsinə imkan yaradır ki, bu da təşəbbüsün strateji əhəmiyyətini göstərir.

Bu çərçivədə İqtisadi Zonaların İnkişafı Agentliyi ilə birgə Sumqayıt Sənaye Parkında “SOCAR Polymer” və “SOCAR Karbamid” müəssisələrinin iştirakı ilə “NextGen” sənaye klasteri formalaşdırılıb. Klaster istehsal xərclərinin optimallaşdırılmasını, rəqabətqabiliyyətli məhsul istehsalını və ixrac potensialının artırılmasını hədəfləyir. Məqsəd sənaye müəssisələrini daha səmərəli, rəqəmsal və aşağı karbonlu istehsal modelinə keçidə təşviq etmək və Azərbaycanın qlobal sənaye transformasiyası prosesində fəal iştirakını təmin etməkdir.

Bu transformasiya prosesində enerji səmərəliliyinin artırılması və emissiyaların azaldılması üçün süni intellekt əsaslı həllər xüsusi əhəmiyyət kəsb edir. Qlobal miqyasda enerji sektoru artıq süni intellekt əsaslı transformasiya mərhələsinə daxil olub. Binalar hazırda dünya üzrə ümumi enerji istehlakının üçdəbirindən çoxunu təşkil edir və enerji ilə bağlı emissiyaların təxminən 26-30 faizi bu sektorun payına düşür (Beynəlxalq Enerji Agentliyi, 2023). Süni intellektin enerji bazarında payının 2025-2030-cu illər üzrə illik orta artım tempinin 30 faizdən çox olacağı proqnozlaşdırılır və bazar həcmi artıq 11,3 milyard ABŞ dollarına çatıb (Grand View Research, 2023). Eyni zamanda, süni intellekt əsaslı optimallaşdırma həlləri enerji israfını 40 faizədək azaltmaq potensialı nümayiş etdirir. Bu tendensiya süni intellekti enerji təhlükəsizliyi, xərclərin optimallaşdırılması və karbonsuzlaşma baxımından strateji alətə çevirir.

Azərbaycanda isə binalar ümumi enerji istehlakının, təxminən, 41,7 faizini (Beynəlxalq Enerji Agentliyi, 2023) təşkil edir ki, bu da qlobal orta göstərici olan 35 faizdən xeyli yüksəkdir (Dünya Bankı, 2024). Məhz bu səbəbdən 4SİM Dünya İqtisadi Forumunun “Süni İntellektin Enerji Təsiri” (AI Energy Impact) təşəbbüsü çərçivəsində milli pilot layihə həyata keçirib. Pilot layihə kommersiya təyinatlı binalarda süni intellekt əsaslı optimallaşdırma həllərinin tətbiqini nəzərdə tutub və real vaxt müşahidə, proqnozlaşdırıcı analitika və adaptiv idarəetmə mexanizmləri üzərində qurulub. Seçilmiş həll üzrə beynəlxalq nəticələr göstərir ki, HVAC (havalandırma, isitmə və soyutma) sistemlərində enerji istehlakını 25 faizədək azaltmaq, emissiyaları isə 20-40 faiz intervalında aşağı salmaq və investisiyanın geri dönüşünü 6-18 ay ərzində təmin etmək mümkündür (BrainBox AI tədqiqatları).

Layihənin nəticələri “Piloting the Future: Azerbaijan’s AI-Energy Playbook” (“Gələcəyin sınaqdan keçirilməsi: Azərbaycanın süni intellekt və enerji üzrə yol xəritəsi”) adlı hesabatda sistemləşdirilib və cari ildə dərc ediləcək. Hesabat 4SİM və Dünya İqtisadi Forumunun Enerji və Materiallar Mərkəzi ilə birgə hazırlanıb və süni intellektin bina sektorunda enerji səmərəliliyinə tətbiqi üzrə milli yol xəritəsini təqdim edir. Nəticələr göstərir ki, uyğun infrastruktur şəraitində süni intellektin tətbiqi enerji istehlakının əhəmiyyətli azalmasına, emissiyaların aşağı salınmasına və qısa müddətdə iqtisadi səmərəliliyin əldə edilməsinə real imkan yaradır.

Beləliklə, həm “Sənaye Klasterlərinə Keçid” təşəbbüsü, həm də enerjidə süni intellekt tətbiqləri Azərbaycan sənayesində rəqəmsal transformasiya, enerji səmərəliliyi və aşağı karbonlu iqtisadi modelə keçid üçün qarşılıqlı tamamlayıcı və strateji əhəmiyyətli istiqamətlər kimi çıxış edir.

**– Mərkəz 20-dən çox özəl müəssisəyə texnoloji keçidə dair yol xəritələri hazırlayır. Bu sənədlər hansı meyarlar əsasında formalaşdırılır? Müəssisələrin süni intellekt və digər qabaqcıl texnologiyalara uyğunlaşma zamanı ən çox rast gəlinən çətinliklər hansılardır?**

– “Azərbaycan Respublikasında 2026-2029-cu illər üzrə rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya” çərçivəsində əsas təşəbbüslərdən biri 4SİM tərəfindən həyata keçirilən “Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı”dır. Qeyd edim ki, daha əvvəl biz pilot layihə olaraq “Sənaye 4.0 Hazırlıq Proqramı”nı icra etdik və 5 müəssisədə texnoloji və yaşıl transformasiya ilə bağlı diaqnostika apardıq. Pilot mərhələdə proqrama qoşulan müəssisələr üçün fərdi yol xəritəsi tərtib olundu və artıq onlar yol xəritəsinin icrasına başlayıblar.

2026-cı ildə bu proqrama pərakəndə satış, qida sənayesi, tikinti və sənaye malları, metallurgiya və istehsal kimi müxtəlif sektorları təmsil edən 15 müəssisə qoşulub. Proqram praktik nəticələrə əsaslanır və hər bir müəssisə üçün ilkin mərhələdə texnoloji hazırlıq və dayanıqlı inkişaf üzrə yerində diaqnostika aparılıb. Bu diaqnostika zamanı müəssisələrin rəqəmsal hazırlıq səviyyəsi, mövcud texnoloji infrastrukturu, məlumatların idarə olunması imkanları və dayanıqlı inkişaf potensialı qiymətləndirilib. Diaqnostikanın nəticələrinə əsasən fevral ayında texnoloji transformasiya üzrə fərdi yol xəritələri hazırlanıb və müəssisələrə təqdim edilib.

Təcrübə göstərir ki, müəssisələrin süni intellekt və digər qabaqcıl texnologiyalara adaptasiyası zamanı əsas çətinliklər rəqəmsal bacarıq çatışmazlığı, köhnəlmiş infrastruktur, strukturlaşdırılmış məlumat bazasının olmaması və dəyişikliklərə institusional müqavimət ilə bağlıdır. Yol xəritələri məhz bu boşluqları aradan qaldırmaq üçün mərhələli və ölçüləbilən fəaliyyət planı təqdim edir. Proqramda iştirak tamamilə ödənişsizdir və sənaye müəssisələri industry4.az platforması vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

Strateji hədəf 2030-cu ilədək 65 sənaye müəssisəsinə texnoloji transformasiya istiqamətində dəstək göstərməkdir. Ümumilikdə isə Strategiya çərçivəsində 300 müəssisənin texnoloji transformasiyası planlaşdırılır. Nəticə etibarilə, proqramda iştirak edən şirkətlərdə enerji səmərəliliyinin artırılması, əməliyyat xərclərinə qənaət, karbon emissiyasının azaldılması, avadanlıqların boşdayanma müddətinin minimuma endirilməsi və ümumi gəlirliliyin yüksəlməsi üzrə orta hesabla 10-20 faiz aralığında müsbət fərq formalaşdırılması gözlənilir. Bununla yanaşı, əməliyyat effektivliyinin artması hesabına müəssisələrin EBİTDA göstəricisində 5-8 faiz bəndi həcmində artım potensialı proqnozlaşdırılır ki, bu da texnoloji transformasiyanın birbaşa iqtisadi nəticə yaratdığını göstərir.

**– ABŞ-ın “Coursera” şirkəti ilə birgə yaradılan “4Sİ Akademiyası–Milli Proqram”ın uğurları nədən ibarətdir ?**

– 4SİM rəqəmsal iqtisadiyyata keçidin əsas dayağının insan kapitalı olduğunu nəzərə alaraq bu istiqamətdə sistemli layihələr həyata keçirir. 2023-cü ildə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu və ABŞ-ın “Coursera” şirkəti ilə əməkdaşlıq çərçivəsində yaradılan “4Sİ Akademiyası” vətəndaşlarımıza dünyanın ən böyük onlayn tədris platformasında ödənişsiz təhsil imkanı təqdim edib. Bu imkanlar 4SİM tərəfindən dövlət və özəl sektor tərəfdaşlarından cəlb olunan vəsaitlər hesabına təmin olunur və beləliklə, beynəlxalq bazarda yüksək qiymətlərlə təqdim olunan kurslar geniş vətəndaş kütləsi üçün əlçatan olur.




Pilot mərhələdə biz 10 min vətəndaşı əhatə edən proqramla başladıq və bir il ərzində istifadəçilər 4200-dən çox beynəlxalq sertifikat əldə etdilər. “4Sİ Akademiyası” 2024-cü ildə “Coursera” şirkətinin “Süni intellekt innovasiyası” nominasiyası üzrə 42 ölkədən təqdim olunan 180 layihə arasında “Üstün nailiyyət mükafatı”na layiq görülüb.

Layihə pilot mərhələdə uğur əldə etdikdən sonra 2025-ci ilin aprel ayından etibarən biz onu daha geniş istifadəçi kütləsi üçün “Milli proqram” adı altında həyata keçirməyə başladıq. Proqramın məqsədi ölkədə rəqəmsal iqtisadiyyata keçidi sürətləndirmək üçün dördüncü sənaye inqilabı texnologiyaları sahəsində bilik və bacarıqların inkişaf etdirilməsi və əmək bazarında bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasına dəstək olmaqdır.

Soydaşlarımız yaşından və məşğulluq vəziyyətindən asılı olmayaraq “Coursera” onlayn təhsil platformasında 375-dən çox aparıcı universitet və texnologiya şirkətinin 18 mindən artıq kursuna çıxış əldə ediblər. Bir il ərzində 70 minə yaxın Azərbaycan vətəndaşı 320 mindən çox təlimə qoşularaq süni intellekt, proqramlaşdırma, data analitikası və digər qabaqcıl texnologiyalar üzrə bilik və bacarıqlarını artırıb. Təlimləri uğurla başa vuranlar 108 minə yaxın beynəlxalq sertifikat əldə ediblər. Proqram ölkənin bütün regionlarını əhatə edib. Regionlar üzrə Bakıdan sonra ən aktiv bölgələr Abşeron-Xızı, Gəncə-Daşkəsən və Naxçıvan regionlarıdır.

İstifadəçilər ən çox idarəetmə və biznes, süni intellekt, data analitikası və maşın öyrənməsi, təhsil və dil bacarıqları, həmçinin kibertəhlükəsizlik və İT sahələri üzrə təlimlərə üstünlük veriblər. Xüsusilə, idarəetmə və biznes istiqaməti ən yüksək nəticə ilə seçilir – bu sahədə təxminən 43 min sertifikat əldə olunub. Süni intellekt, data analitika sahələri üzrə bu göstərici 17 min, təhsil və dil bacarıqları sahəsində isə 10 minə yaxındır. Digər texnoloji sahələr də ümumi nəticədə əhəmiyyətli paya malikdir.

“Milli proqram” çərçivəsində əlçatanlığın artırılması məqsədilə “Coursera” platformasında 2 min 500 təlim Azərbaycan dilində altyazı ilə təqdim olunub, ən çox tələb olunan 15 təlim süni intellekt əsaslı texnologiya ilə dublyaj edilib və platformanın interfeysi Azərbaycan dilində istifadəyə verilib. Azərbaycan dilində təqdim olunan təlimlərə 18 min 500-dən çox istifadəçi müraciət edib və onlar 41 mindən çox təlimi uğurla tamamlayıblar.

İstifadəçilərin böyük əksəriyyəti aktiv əmək bazarı iştirakçısıdır. “Milli Proqram”a maraq göstərənlər arasında akademik sektor üstünlük təşkil edib (təxminən, 48 faiz). Təxminən 21 faizdən çox istifadəçi sənaye sektorunda (o cümlədən 10 faizi neft, qaz və enerji sahəsində), 20 faizi isə xidmət sahəsində fəaliyyət göstərir. Bu isə proqramın təhsil sistemi, dövlət idarəçiliyi, həm də biznes mühitində bacarıqların inkişafına paralel şəkildə töhfə verdiyini göstərir. Bununla yanaşı, iştirakçıların 10 faizi işsiz və ya əmək bazarına yeni daxil olan şəxslərdir ki, bu da onların məşğulluq imkanlarının artırılmasına xidmət edir.

Qeyd edək ki, proqramdan yararlananların 25 faizi dövlət sektorunda çalışanlar, 18 faizi isə özəl sektor təmsilçiləri olub. Bu nəticələr göstərir ki, “4Sİ Akademiyası – Milli Proqram” təkcə təlim təşəbbüsü deyil, ölkədə rəqəmsal bacarıqların kütləviləşdirilməsinə və inklüziv inkişafın təmin edilməsinə xidmət edən strateji platformadır.

**– 4SİM-in gələcək fəaliyyəti ilə bağlı hansı prioritetlər müəyyənləşib? Hədəflər nələrdir ?**

– 2026-cı ildən etibarən 4SİM-in fəaliyyət prioritetləri birbaşa “2026-2029-cu illər üzrə rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya”nın icrası ilə bağlıdır və əsas diqqət sənəddə müəyyən edilmiş təşəbbüslərin praktik həyata keçirilməsinə yönələcək. Bu çərçivədə sənaye və biznes mühitində süni intellekt, data analitikası, rəqəmsal əkiz və digər sənaye 4.0 texnologiyalarının tətbiqinin genişləndirilməsi, müəssisələrin transformasiya proqramlarına cəlbi və data əsaslı idarəetmənin gücləndirilməsi prioritet olacaq.

Eyni zamanda, insan kapitalının inkişafı strategiyanın əsas hədəflərindən biri kimi diqqət mərkəzində qalır. “4Sİ Akademiyası – Milli Proqram”ın daha bir il davam etdirilməsi planlaşdırılır. Layihəyə yerli şirkətlərin tərəfdaş qismində qatılması istiqamətində işlər aparılıb. Bu əməkdaşlıq çərçivəsində daha çox vətəndaşın beynəlxalq səviyyəli rəqəmsal bacarıqlar əldə etməsi və dəyişən əmək bazarının ehtiyaclarına uyğun bilik və bacarıqlar əldə etməsi üçün əlavə imkanlar yaradılacaq.

Ümumilikdə, məqsəd strategiyanın hədəflərinə uyğun olaraq texnologiyanı real iqtisadi dəyərə çevirmək və Azərbaycan iqtisadiyyatının rəqəmsal transformasiya prosesinə sistemli şəkildə töhfə verməkdir.

*Müsahibəni qələmə aldı:*
***Nurlan ABDALOV***
***XQ***

*Sidqi Ruhulla – 140*

# Milli teatrımızın parlaq ulduzu

**Görkəmli aktyor və rejissor, Xalq artisti, Dövlət mükafatı laureatı Sidqi Ruhulla maraqlı yaradıcılıq hekayətləri olan sənətkarlardandır. 140 illik yubileyi ilə əlaqədar onun həyatının çoxlarına məlum olmayan məqamlarına nəzər salaq.**



Sidqi Ruhulla (Məmmədov) 1886-cı il aprel ayının 9-da Bakı qəzasının Buzovna kəndində müəllim ailəsində anadan olub. Onda elmə, sənətə, poeziyaya həvəsi atası Molla Fətulla oyadıb. Gənclik çağlarında bir müddət ticarətlə məşğul olsa da, humanitar sahəyə ürəkdən bağlı idi. Bakının inqilabi mühitinə qoşulub mitinqlərdə şeirlər söyləyir, azadlıq ruhunu özünəməxsus tərzdə ifadə edirdi.

20 yaşında Hüseyn Ərəblinski ilə tanış olan Ruhulla ona teatra gəlmək istədiyini bildirir. İlk ünsiyyət tədricən dostluğa çevrilir. Bir gün Hüseyn ona deyir:

– Sənin teatra göstərdiyin həvəs məni də heyran edir. İstənilən bir işi görmək üçün həvəs lazımdır. Gəl, belə danışaq, sabah günortadan sonra vaxt tap, gəl "Nicat" cəmiyyətinə, imkan eləsən, balaca bir monoloq da hazırla, həm də səni dostlarımla tanış edərəm.

Bu sözlərdən qanadlanan Ruhulla cidd-cəhdlə "imtahan"a hazırlaşır. Füzulinin "Leyli və Məcnun" poemasından bir parça hazırlayıb "Nicat"a gedir. Ərəblinski onu diqqətlə dinləyib, boy-buxununa, səsinə, mimikasına nəzər salaraq əlini çiyninə qoyur. Elə belə də bilirdim, – deyir, – sənin böyük gələcəyin var...

Beləcə, böyük faciə aktyoru onu səhnəyə, tamaşalara cəlb edib. Ruhullanın ilk kiçik rolları onun əsl istedad sahibi olduğunu göstərib. Səhnədə püxtələşən gənc aktyor "Vətən" dramında Sidqi rolunu məharətlə ifa etdiyi üçün yoldaşlarının məsləhətilə Sidqi Ruhulla kimi tanınıb. Özündən 32 yaş böyük olan maarifçi-pedaqoq Məhəmməd Tağıdan sonra "Sidqi" təxəllüsünü götürməklə teatr sənətinə həmin anlama gələn "saf, təmiz, gerçək" münasibət sərgiləmək istəyib və buna nail olub.

Sidqi Ruhulla Bakı, Gəncə, Tbilisi, Tehran, Rəşt, Xoy, Qəzvin, Moskva və Daşkənd teatrlarında bir-birindən maraqlı, rəngarəng və bitkin obrazlar yaradıb. Təbrizdə milli teatrın yaradıcısı kimi tarixə düşüb. Səhnədə ilk böyük sınağı isə Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində Rüstəm bəy obrazı olub. Uğurlu ifadan sonra Ə.Haqverdiyev, N.Vəzirov, H.Zərdabi və başqaları Sidqini təbrik ediblər. H.Ərəblinski isə ona – "İndi sən sənətkarsan, indi sən yarada bilərsən", – deyib.

Ardınca "Bəxtsiz cavan" faciəsində Musa, "Nadir şah"da Təhmas və Nadir şah, "Yəhudilər"də Berezin, "Zorən təbib"də Qətran bəy, "Müsibəti-Fəxrəddin"də bu dəfə Fəxrəddin obrazlarını canlandırıb. Ümumiyyətlə, 50 illik səhnə fəaliyyətində Sidqi Ruhulla bilik və bacarıq, gərgin əmək tələb edən 300-ə yaxın müxtəlif surətlər silsiləsi yaradıb. Ələsgər Ələkbərov, Mərziyə Davudova, Barat Şəkinskaya, Mirzağa Əliyev, Hökumə Qurbanova, Ülvi Rəcəb, Rza Əfqanlı kimi müqtədir sənətkarlarla çiyin-çiyinə çalışıb. O, özünü rejissurada və kinoda da uğurla sınayıb. "Bismillah", "Gilan qızı", "Hacı Qara", "Qızıl kol", "Kəndlilər" və "Fətəli xan" filmlərində çəkilib.

Unudulmaz aktyor haqqında 50-yə yaxın kitabda geniş söhbət açılıb. İstedadından, "Azdrama" və kinodakı məhsuldar fəaliyyətindən, peşəkar özəlliklərindən ətraflı bəhs olunub. Fəlsəfə doktoru İmran Axundov qələmə aldığı "Sidqi Ruhulla" monoqrafiyasında aktyorun xatirələrinə də yer ayırıb. Məsələn, aktyor dramaturqlar haqqında deyibmiş: "Mənim yaradıcılığımda Əbdürrəhim bəy Haqverdiyevin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun və Üzeyir Hacıbəyovun incəsənət vasitəsilə xalqa xidmət məramı haqqında söhbətləri, tövsiyələri çox mühüm rol oynamışdır və mənim mənəvi inkişafıma gözəl təsir bağışlamışdır. Mən onların yazdığı əsərlərdən ilham almışam və onlarla öz aramda həmişə möhkəm, mənəvi yaxınlıq görmüşəm".



...Tbilisidə həvəskar aktyorlarla "Pəri cadu" əsərini tamaşaya qoyanda özü Qurban rolunu oynayırdı. Üçüncü pərdənin fasiləsində, heç gözləmədiyi halda, Əbdürrəhim bəy Haqverdiyev səhnəyə çıxdı və rolu yaxşı oynadığına görə Sidqiyə təşəkkür etdi. Tamaşa bitəndən sonra Əbdürrəhim bəy onu qaldığı mehmanxanadan öz mənzilinə dəvət etdi. Həmin gecəni bir yerdə keçirdilər. Əbdürrəhim bəy sənətkara dedi:

–Sidqi, sənin aktyorluğun mənim çox xoşuma gəlir. Lakin bunu unutma ki, müəyyən bir obrazı yaratdıqdan sonra bir yerdə dayanıb durmaq olmaz. Sənətkar həmişə inkişaf etməlidir. Onu bilməlisən ki, bir obrazı bu gün nə qədər yaxşı oynayırsansa, bu rolun üzərində çalışsan, sabah daha yaxşı oynaya bilərsən.

Bu sözlərdən sonra ədib özünün "Pəri cadu" kitabını masa üzərindən götürüb, "Sidqi Ruhullaya vəsiyyətim" avtoqrafı ilə ona bağışladı. Həmin xatirə indi də Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyində saxlanılır...

Qərbi Avropa müəlliflərindən isə Uilyam Şekspir Sidqi Ruhullanın ən çox sevdiyi qələm sahiblərindən idi. O, dahi dramaturqun "Otello", "Romeo və Cülyetta", "Maqbet" faciələrində Yaqo, Eskal, Banko obrazlarının bənzərsiz ifaçısı olub.

...Tamaşaların birində tərəf müqabilinə məktub verməli idi. Hər dəfə zərfin içində olan kağızda məktubun mətni yazılırdı. Amma bu dəfə kimsə məktub yerinə ağ kağız qoymuşdu. Nə Sidqi, nə də tərəf müqabili məktubun mətnini əzbərdən bilmirdi. Məktubu aktyora verdi, o isə açıb ağ kağız olduğunu görəndə məktubu geri qaytararaq: "Oxu, görək, nə yazıblar", – dedi. Sidqi bir anlıq çaşsa da, tez vəziyyətdən çıxa bildi:

– Cənab, çeşməyim yan otaqda qalıb, gözlə gətirim, oxuyum, – deyib və hər ikisini vəziyyətdən çıxarıb.

Daha bir xatirə: Bakıda "Vaqif" dramının məşqlərindən birinə Səməd Vurğun özü də gəlibmiş. Vaqiflə Qacarın görüş səhnəsində Sidqi Ruhulla birdən məşqi saxlayıb üzünü şairə tutaraq:

– Bu yerdə Qacarın daha qaniçən, daha cəllad olduğunu vermək üçün, elə bil, nəsə çatmır, – deyir.

Səməd Vurğun ani olaraq fikrə gedir, sonra ayağa qalxıb bədahətən söyləyir:

***Bir boynu olsaydı bəşəriyyətin,***
***Onu bir qılıncla vurardım yəqin!***

Məşqdə olanlar şairi alqışlayırlar. Beləcə, həmin beyt əsərə əlavə olunur...

Xalq artisti Mehdi Məmmədov, teatrşünas-tənqidçi Cabir Səfərov, araşdırmaçı publisist Mustafa Çəmənli və başqaları da Sidqi Ruhulla haqqında səmimi fikirlərini ifadə edib, sənətini layiqincə dəyərləndiriblər. Bütün rəylərdə o, Azərbaycan teatr sənətinin parlaq ulduzlarından biri kimi təqdim olunub.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Ceyhun Mirzəyev – 80*

**Bu gün unudulmaz kino aktyoru və rejissoru Ceyhun Mirzəyevin 80 yaşı tamam olur. Qədirbilən xalqımız istedadlı sənətkarın yubileyini dərin hörmət, sənətinə böyük sevgi ilə qeyd edir.**

# "Ögey ana"dan "Fəryad"a gələn İsmayıl dastanı

Bir ömrün uzunluğu illərlə deyil, onun necə yaşanması ilə ölçülür. Ceyhun Mirzəyev də 46 illik həyatının 35 ilini sənətə həsr etdi.

Kino isə elə bir sənət növüdür ki, burada aktyor yaratdığı obrazın taleyini yaşayır, illər keçsə də, unudulmur. Belə sənətkarlardan olan Ceyhun Mirzəyevin kino ilə ilk tanışlığı uşaq yaşlarına təsadüf edir. 1946-cı il aprelin 9-da Ağdamın Gülablı kəndində dünyaya göz açmış, uşaq ikən ailəsi ilə Bakıya köçmüş soydaşımız 11 yaşında kamera qarşısına keçərək "Görüş" filmindəki ilk rolu ilə rejissorların diqqətini çəkir. Bir il sonra isə "Ögey ana" filminin çəkilişləri başlayır. Burada Nəsibə Zeynalova, Nəcibə Məlikova kimi görkəmli sənətkarlarla eyni sənət meydanını bölüşür. Bəlkə o zaman heç düşünmürdü ki, bu qismət bütün həyat yolunu müəyyən edəcək.



İsmayıl obrazı bir uşağın qəlbindəki incəliyin, sevgiyə olan ehtiyacın və həyatın sərt üzünə qarşı durmağın təcəssümü idi. Ceyhun bu obrazı elə canlandırdı ki, tamaşaçı İsmayılı sevdi, onunla ağladı, onunla güldü. Sonralar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda aktyorluq sənətinə yiyələnərək kino sənətini həyatının ayrılmaz parçasına çevirdi.

Zaman keçdikcə rejissor assistenti, kinorejissor kimi fəaliyyət göstərdi, müxtəlif filmlərdə yaratdığı obrazlarla öz sözünü dedi, tamaşaçı yaddaşında silinməz iz qoydu. "Bakıda küləklər əsir", "Cazibə qüvvəsi", "Dəli Kür", "Yenilməz batalyon", "İşarəni dənizdən gözləyin", "Ən vacib müsahibə" filmlərindəki rollarla sənət yolunun müxtəlif çalarlarını göstərdi.

Sənət yolunun zirvəsi isə "Fəryad" filmi oldu. Ürəkləri sızladan, yaddaşlarda dərin iz buraxan bu filmi, demək olar ki, hər birimiz ən azı bir dəfə izləmişik, amma çoxumuz üçün o, dönə-dönə baxılan, hər dəfə başqa cür hiss etdirən ekran əsəridir. Bu filmdə oynamaq da, izləmək də onu yaşamaqdır. Qarabağ müharibəsinin ağrı-acısını, insan talelərinin məhv edilməsini, əsirlikdə yaşanan dəhşətləri bu qədər sarsıdıcı şəkildə çatdırmaq hər aktyorun bacara biləcəyi iş deyil. Ceyhun Mirzəyevin canlandırdığı yaralı Azərbaycan əsgəri obrazı isə bir xalqın çəkdiyi iztirabın canlı təcəssümüdür.

Filmdəki susqunluğunda elə bir fəryad var ki, əsir düşmüş, işgəncələrə məruz qalan insanın iç dünyasını bu qədər təbii, sarsıdıcı canlandırmaq üçün xüsusi istedad lazımdır. Filmdə uğurlu aktyor heyəti, rejissor baxışı ilə yaşananların acı tərəfləri göstərilir. Xüsusilə düşmənin insanlığa sığmayan vəhşiliyinin açıq şəkildə təqdim olunması filmi daha təsirli edir. Amma bütün bu mənzərənin mərkəzində zülmə boyun əyməyən, ağrıya rəğmən sınmayan Azərbaycan əsgəri obrazı dayanır. Tamaşaçı bu obrazda iradəni, dözümü, Vətən sevgisini görür.





Filmin çəkilişləri zamanı Ceyhun Mirzəyev tez-tez ürək ağrılarından şikayət etsə də, çəkilişləri dayandırmır. Həyat yoldaşı Lidiya Mirzəyeva müsahibələrində bildirir ki, Ceyhun evə qayıdanda sanki film çəkilişindən yox, döyüş meydanından gəlirdi.

Ceyhun Mirzəyevin çəkiliş boyu yaşadıqları doğulduğu doğma Gülablının itkisinə, Xocalı faciəsinin ağrısına, Qarabağ müharibəsinin insan talelərində açdığı yaralara qarşı içindən qopan fəryaddır. Bəstəkar Cavanşir Quliyev xatirələrində yazır ki, Ceyhun səhnələrin daha real alınması üçün özünü, həqiqətən, döydürürdü. Kaskadyor təklif olunanda belə razılaşmırdı. Dəfələrlə təkrarlanan kadrlar, bədənində qalan izlər, göyərmiş yerlər onun sənətə verdiyi dəyər idi.

Hətta aktyorun təhlükə ilə üz-üzə qaldığı anlar da olur. Sənət dostları deyir ki, çəkilişlərin birində qaçarkən gözlənilmədən qarşısına çəkilmiş nazik məftil onun həyatını az qala yarımçıq qoyacaqdı. Son anda əli ilə məftili qaldıraraq keçmiş, amma ovcunun içi kəsilmişdi. Bütün bunlara rəğmən filmin çəkilişlərini tamamlamışdı.

Amma ürəyi bu qədər ağrını daşıya bilmədi...

Yoldaşları deyirlər ki, filmin montaj prosesi gedərkən sanki nəyəsə çatmaq, nəyisə bitirmək istəyirdi. Bir gün həyat yoldaşına və qızına 8 Mart üçün hədiyyə almağa gedir. Həmin gün o, haqqında hazırlanan verilişin montajına baxmaq üçün kinostudiyadan çıxıb Azərbaycan Televiziyasına yollanır. Orada halı pisləşir. Jurnalist Hicran Hüseynov onu tez evinə çatdırır. Evdə son dəfə qızı Cəmiləni yanına çağırır, onun üzünə baxır... 5 mart 1993-cü ildə, 46 yaşında gözlərini yumur.

İllər keçsə də, Ceyhun Mirzəyevin canlandırdığı obrazlar zamanın çərçivəsinə sığmayan hisslərin, yaşantıların daşıyıcısı olaraq qalır. Bu isə bir sənətkar üçün ən böyük uğurdur. Məhz buna görə də məşhur amerikalı aktyor Marlon Brandonun bu sözləri, sanki, onun taleyinə yazılıb: "Aktyor səhnəni tərk edə bilər, amma yaratdığı obrazlar heç vaxt tamaşaçının yaddaşını tərk etmir".

Sevimli sənətkarımız milli kinomuzda "Ögey ana"dan "Fəryad"a yeni bir İsmayıl dastanı yaratdı.

***Ləman TƏHMƏZ***
***XQ***

# "Musiqili dünyam" – sözün hikmətindən musiqinin sehrinə

**Qəlbin aynası tozlanıb ruhun gözü toranlaşanda əsl sənətkarlar mənəviyyat təşnələrinin pənah apardığı ümid mayakı tək könül evimizə işıq saçırlar. Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Nəbi Mülkümovun "Musiqili dünyam" kitabı musiqi və poeziyanın vəhdətində oxucuların qəlbinə süzülən belə nur çeşməsidir.**



Müəllif xatirələrindən bəhs edərkən sevənlərini bu bənzərsiz "musiqili dünya"nın sirdaşına çevirir, hisslərinə hakim kəsilən musiqi sevdasından, tarda ifa etmək həsrətindən söz açır və bu saf arzunun sənət taleyində necə təcəssüm tapdığını səmimiyyətlə bölüşür. Nəbi müəllimin ən böyük diləyi yazdığı misraların musiqiyə bürünməsi olub və tale ona bunu bəxş edib. Ədibin 36 şeirinin uyğun bəstələrlə tamamlanması, həmin mahnıların ölkə hüdudlarından kənarda da səsləndirilməsi onun ikiqat yaradıcılıq uğurudur.

"Xan qızı", "Əbədi eşqimiz", "Vətənim", "Dağlar maralı" kimi əsərlərin not yazılarında əbədiləşdirilməsi ilə müəllif, sanki, sabaha mənəvi körpü qurur. "Musiqili dünyam" isə xüsusi bir məramla ərsəyə gəlib. Bu nəğməli misraların, sadəcə, kağız üzərində qalmaması, musiqi dünyasına ayaq açması üçün sənətkar məsuliyyətli bir addım atır. Şeirlərinə bəstələnmiş incə ruhlu mahnıların ömrünü daha da uzatmaq, onları zamanın süzgəcindən keçirib hamı üçün əlçatan etmək məqsədilə Zaqatala Uşaq İncəsənət Məktəbinin müəllimi Zeynəb Əliyevadan melodiyaları nota köçürməsini xahiş edir. Zeynəb xanımın peşəkar dəstəyilə gənc ifaçılar üçün gözəl sənət nümunəsi yaranır.




Kitabı vərəqlədikcə, fərqinə varırsan ki, Nəbi müəllim üçün poeziya və musiqi həyat tərzi, həqiqət axtarışıdır. Vətən mövzusu "Musiqili dünyam"da əsas xətt kimi şairin sənət qarşısındakı mənəvi borcunun bədii təzahürüdür.

Təbiətin qış yuxusundan oyanıb yaşıl örpəyə büründüyü bu günlərdə Nəbi Mülkümovun misralarına nəzər salmaq bahar sədalarını sözün sehrində duymaqdır:

***Dağ-dərələr yaşıllaşır,***
***Ağaclar da cavanlaşır,***
***Bulaq astadan danışır,***
***Yurdumuza bahar gəlir!***

Şairin bu misraları bahar təravəti ilə yoğrulub, sanki hər kəlməsi günəş şüasının ilk toxunuşu qədər zərifdir. Bahar, həm də zəfərin, dirçəlişin və sarsılmaz iradənin fəslidir. Bizim üçün aprel təkcə təbiətin oyanışı deyil, həm də milli qürurumuzun silkindiyi, müasir tariximizin şanlı səhifələrinin yazılmağa başladığı müqəddəs zamandır.

2020-ci ildə qazanılan tarixi Zəfərə gedən yolun ilk cığırı məhz 2016-cı ilin unudulmaz baharında – Aprel döyüşləri ilə açılmışdı. O günlərdə Azərbaycan əsgəri öz qanı, canı ilə sübut etmişdi ki, bu xalqın iradəsi sarsılmazdır, torpaq sevgisi isə hər səddi aşmağa qadirdir. Məhz belə bir qəhrəmanlıq ruhu Nəbi müəllimin Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynova ithaf etdiyi misralarda dil açıb:

***Qalib xalqın igid oğlu,***
***Ürəklərdə yaşayırsan,***
***Milli Qəhrəman adını***
***Nəsillərə daşıyırsan.***

Kitabda yazıçı-jurnalist Əhməd İsayevin xatirəsinə ithaf olunan "Qələmin nuru" şeiri müəllifin həmyerlisinə ehtiramını ifadə edirsə, "Qaldı xatirələr kənd məktəbində" misraları hər birimizi ötən illərə qaytarır.

"Musiqili dünyam"ın son akkordlarını vuran, dostluğun sərhəd tanımayan gücünü göstərən saxur dilindəki "Yaxşı dostlar" şeiri isə bu musiqili dünyanı hikmət naxışları ilə tamamlayır.

***Fidan ƏLİYEVA***
***XQ***

# Ankarada azərbaycanlı rəssamların Zəfər sərgisi

**Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə Ankara Rəsm və Heykəllər Muzeyinin birgə layihəsi çərçivəsində "Suverenliyimizi qazandıran şanlı Zəfər" mövzusunda azərbaycanlı rəssamların sərgisi açılıb.**



Ankara Rəsm və Heykəllər Muzeyində təşkil olunan sərginin açılış mərasimində diplomatlar, mədəniyyət xadimləri, rəssamlar, qardaş ölkədə yaşayan azərbaycanlılar və sənətsevərlər iştirak ediblər.

Zəfərimizə ithaf edilmiş sərgidə Türk dünyasının böyük şəxsiyyətləri, ulu öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyevin rəsmləri, Azərbaycan, Vətən sevgisi, milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz, Qarabağ, Azərbaycan–Türkiyə qardaşlığı mövzusunda rəsmlər nümayiş olunur.

Bu əsərlər 2025-ci ildə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin 5 illiyi münasibətilə elan etdiyi müsabiqə çərçivəsində seçilib. Türkiyənin müxtəlif şəhərlərindən təqdim olunmuş çoxsaylı əsərlərdən 44 rəsmə üstünlük verilib və Ankara Rəsm və Heykəllər Muzeyindı sərgilənməyə layiq görülüb.

***XQ***

Beynəlxalq həyat

# Yaxın Şərqdə “atəşkəs nəfəsliyi”

## Yaxud görünən və görünməyən siyasi gedişlər

**Yaxın Şərq yenidən geosiyasi paradoksun mərkəzindədir: müharibə qlobaldır, amma sülh həmişə regional aktorların əlində formalaşır. ABŞ və İran arasında iki həftəlik atəşkəsin elan olunmasından sonra BMT sözçüsü Stefan Düjarrikin açıqlamasında bir detal diqqətdən yayınmır: Pakistan və “digər vasitəçilərə” təşəkkür.**

Bəs “digər vasitəçilər” kimdir və niyə adlar açıq çəkilmir? Daha vacibi – bu diplomatik konstruksiyada Türkiyənin real rolu nədən ibarətdir? ABŞ və İran kimi iki əsas geosiyasi aktor razılaşmadan Yaxın Şərqdə hər hansı atəşkəsin əldə olunması mümkün deyil. Təbii ki, bu amil beynəlxalq münasibətlərdə güc iyerarxiyasının klassik təzahürüdür: qərarı böyük güclər verir, çünki hərbi, iqtisadi və siyasi resurslar onların əlində cəmlənib.

Analitik baxış isə prosesi daha çox “çoxsəviyyəli diplomatiya” kimi izah edir. Çünki Yaxın Şərqdə münaqişələr artıq uzun müddətdir ki, dolayı kanallar vasitəsilə idarə olunur. Bu zaman sual yaranır: əgər tərəflər bir-biri ilə birbaşa danışmırsa, razılaşma necə mümkün olur? Cavab məhz üçüncü tərəflərin rolunda gizlənir.

Yaxın Şərqdə son illər formalaşan diplomatik reallıq ondan ibarətdir ki, vasitəçilər prosesin strukturunu formalaşdırır, tərəflər arasında psixoloji baryerləri yumşaldır və ən vacibi – etimad boşluğunu doldururlar. Pakistanın adının BMT səviyyəsində çəkilməsi bu kontekstdə xüsusi diqqət tələb edir. Çünki Pakistan çoxqatlı diplomatik əlaqələr vasitəsilə bu prosesdə yer alır. Bir tərəfdən İslam dünyasında legitimliyə malikdir, digər tərəfdən isə Qərb strukturları ilə tam qapalı olmayan kommunikasiya xəttini qoruyur. Amma proses bununla bitmir. Burada daha dərin koordinasiya, daha geniş siyasi çərçivə və davamlı diplomatik müşayiət tələb olunur. Məhz bu nöqtədə regional güclərin ikinci təbəqəsi – daha sistemli və institusional təsir imkanlarına malik aktorlar ön plana çıxır. Onlar həm coğrafi yaxınlıq, həm siyasi çeviklik, həm də tərəflərlə paralel əlaqələr qurmaq qabiliyyəti sayəsində bu prosesin “görünməyən memarları”na çevrilirlər. Elə bu mənada atəşkəs nə tam şəkildə böyük güclərin diktəsi, nə də yalnız regional aktorların təşəbbüsüdür.

### Türkiyənin bu prosesdə rolu nədir?

Ankaranın Yaxın Şərq siyasətində keçdiyi transformasiya strateji sıçrayış kimi qiymətləndirilə bilər. “Çoxvektorlu diplomatiya” bu gün Türkiyənin geosiyasi kimliyinin əsas sütununa çevrilib. Belə bir model Türkiyəyə eyni anda bir-biri ilə ziddiyyət təşkil edən siyasi məkanlarda fəaliyyət göstərmək və bu ziddiyyətləri idarə etmək imkanı verir. Ənənəvi vasitəçi tərəflər arasında körpü rolunu oynayır, amma körpünün harada qurulacağını və hansı istiqamətə aparacağını müəyyən etmir. Türkiyə isə prosesin arxitekturasını formalaşdırmağa çalışan aktor kimi çıxış edir. Türkiyəni digərlərindən fərqləndirən cəhət isə onun çoxqatlı güc kombinasiyasıdır. Türkiyə NATO üzvü kimi Qərb təhlükəsizlik sisteminin ayrılmaz hissəsidir və Vaşinqtonla birbaşa siyasi və hərbi koordinasiya imkanları var. Lakin Ankara bu əlaqəni asılılıq formatına çevirmədən, onu alət kimi istifadə edir. Son illər S-400 böhranı, müstəqil müdafiə sənayesinin inkişafı və regional təşəbbüslər göstərdi ki, Türkiyə Qərb daxilində olsa da, qərarlarını müstəqil formalaşdırmaq niyyətindədir. Eyni zamanda, Türkiyənin İranla münasibətləri xüsusi diqqət tələb edir. Ankara burada qütbləşmə siyasətindən qaçaraq “kontrollu rəqabət” modelini tətbiq edir. Modelin mahiyyəti ondan ibarətdir ki, tərəflər müəyyən sahələrdə rəqib, digər sahələrdə isə tərəfdaş kimi çıxış edir. Enerji asılılığı, sərhəd təhlükəsizliyi və regional sabitlik məsələləri əməkdaşlığı zəruri edir, lakin Suriya və İraqda təsir uğrunda mübarizə rəqabəti qaçılmaz edir. Mövcud ikili



dinamika Türkiyəyə İran üçün həm etibarlı, həm də ehtiyatla yanaşılan aktor statusu qazandırır.

Ərəb dünyası ilə münasibətlərin normallaşdırılması isə Ankaranın geosiyasi manevr imkanlarını genişləndirən əsas faktorlardan biridir. Bir müddət davam edən gərginlikdən sonra Misir, Səudiyyə Ərəbistanı və BƏƏ ilə əlaqələrin bərpası Türkiyəni regionda yenidən legitim aktora çevirib. Legitimlik olmadan isə vasitəçilik mümkün deyil.

BMT kimi qlobal institutlar xüsusilə həssas geosiyasi balansların mövcud olduğu situasiyalarda maksimal dərəcədə neytral və inklüziv dil seçməyə çalışırlar. ABŞ–İran kimi mürəkkəb və qarşılıqlı etimadın aşağı olduğu münasibətlər fonunda konkret vasitəçinin adını önə çıxarmaq bəzən prosesin özünə risk yarada bilər. Çünki hər iki tərəfin fərqli həssaslıqları var və bu həssaslıqlar bəzən simvolik detallardan – məsələn, kimin adının çəkilməsindən – asılı olaraq aktivləşə bilər. “Digər vasitəçilər” ifadəsi də siyasi analitik baxışda “diplomatik kod” kimi oxunur. Məhz bu kontekstdə Türkiyənin həmin “kodun içində” yer alması kifayət qədər məntiqli görünür. Çünki Ankara son illər vasitəçilikdə nəticə yaradan aktor kimi çıxış edib. Rusiya–Ukrayna müharibəsi zamanı Türkiyənin oynadığı rol bunun bariz nümunəsi kimi çıxış edir. Ankara tərəflər arasında konkret nəticələr istehsal edən diplomatik platforma formalaşdırdı. Bunun konkret nümunəsi 2022-ci ilin mart ayında İstanbul və Antalya platformalarında keçirilən danışıqlardır. Müharibənin ilk aylarında tərəflərin bir masa arxasında əyləşməsi belə çətin görünərkən, Türkiyə həm Rusiya, həm də Ukrayna nümayəndə heyətlərini eyni məkanda toplamağa nail oldu.

### Mürəkkəbliyin açdığı pəncərə

Aydındır ki, Yaxın Şərqdə vəziyyət bir qədər mürəkkəbdir. Burada dövlətlərlə yanaşı, qeyri-dövlət aktorları, ideoloji qarşıdurmalar, məzhəb faktorları və paralel təsir şəbəkələri mövcuddur. Bütün bunlar Türkiyənin rolunu həm çətinləşdirir, həm də genişləndir. Çətinləşdirir, ona görə ki, Ankara dolayı şəkildə müxtəlif silahlı qruplar, siyasi hərəkatlar və regional təsir mərkəzləri ilə də hesablaşmaq məcburiyyətindədir. Eyni zamanda, genişləndirir, çünki məhz bu mürəkkəblik çevik aktorlar üçün yeni imkan pəncərələri açır.

Əslində, Ankara eyni modeli bir neçə səbəbə görə bu qədər mürəkkəb mühitdə də tətbiq edə bilər. Birincisi, Türkiyə diplomatiyanı paralel xətlər üzrə qurur. Yəni rəsmi dövlətlərarası danışıqlarla yanaşı, qeyri-rəsmi və dolayı təmasları da aktiv saxlayır. İkincisi, Ankara fərqli aktorlarla fərqli dillərdə danışmaq qabiliyyətinə malikdir. Qərblə hüquq və təhlükəsizlik terminologiyası ilə danışan Türkiyə, region daxilində daha çox tarixi, mədəni və dini kontekstləri nəzərə alan diskursdan istifadə edir. Üçüncüsü, Türkiyə sərt və yumşaq güc elementlərini sinxron şəkildə tətbiq edir. Diplomatik təşəbbüslər hərbi və təhlükəsizlik reallıqları ilə dəstəklənir. Dördüncüsü isə Ankaranın “modul diplomatiya” yanaşmasıdır. Yəni hər münaqişəyə eyni model tətbiq edilmir, hər vəziyyət üçün ayrıca kombinasiya formalaşdırılır. Bir yerdə vasitəçilik ön planda olur, başqa bir yerdə təhlükəsizlik təminatı, digər hallarda isə iqtisadi və humanitar alətlər işə düşür.

Həmçinin, Türkiyənin əsas üstünlüyü etimad istehsal etmək qabiliyyətindədir. Yaxın Şərq kimi yüksək riskli mühitdə tərəflər niyyətə inanmaq istəyirlər. Ankara məhz bu iki elementi – güc və etibarlılığı - paralel şəkildə təqdim edə bilir.

Sonda onu da qeyd edək ki, Yaxın Şərqdə formalaşan atəşkəs göstərir ki, bəzən ən böyük təsir məhz adı çəkilməyən aktorlara məxsus olur. Türkiyə də getdikcə daha çox bu kateqoriyaya daxil olur: görünəndən daha çox təsir edən güc kimi. Yaxın Şərqdə sülh paralel diplomatiyanın, pərdəarxası danışıqların və çoxsəviyyəli vasitəçiliyin nəticəsində formalaşır. Görünən razılaşmaların arxasında görünməyən proseslər dayanır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Yaxın Şərqdə uzun müddət davam edən qarşıdurmanın fonunda, nəhayət, nisbi sakitlik yaradan mərhələ başlayıb. ABŞ Prezidenti Donald Tramp İranla iki həftəlik atəşkəs razılaşmasını qəbul edib. Sözügedən razılaşma İranın Hörmüz boğazından təhlükəsiz keçidi təmin etməsi və hücumları dayandırması ilə əlaqələndirilir. Müzakirələrin əsas vasitəçilərindən biri Pakistan olub və tərəflər danışıqları davam etdirməyə hazır olduqlarını bildiriblər. Ağ Evin mətbuat katibi Kerolayn Livitt hələ razılaşmadan öncə bildirmişdi ki, Ağ Ev sahibi Pakistanın təklifindən xəbərdardır və cavab veriləcək. O, həmçinin Tehranla aparılan təmasların irəlilədiyini, amma İranın ictimai bəyanatları ilə Vaşinqtona qapalı şəkildə bildirdikləri şərtlər arasında fərq olduğunu vurğulamışdı.**

# Savaşın dəyişən diplomatik dinamikası

## Uzunmüddətli sabitliyin isə etibarlı razılaşmalara ehtiyacı var

Donald Tramp isə razılaşmanı açıq şəkildə “siyasi qələbə” kimi təqdim edib. O, atəşkəsdən sonra ABŞ-ın məqsədlərinin “tam və qəti qələbə” ilə nəticələndiyini söyləyib, İranın təqdim etdiyi 10 maddəlik təklifi isə sonrakı danışıqlar üçün işlək baza adlandırıb. ABŞ lideri özünün əvvəlki sərt ritorikasından geri çəkilərək razılaşmanı strateji dönüş nöqtəsi kimi dəyərləndirib. Amma sözsüz ki, Vaşinqtonun qələbə ritorikasının arxasında daxili siyasi hesab da dayanır. Çünki məhz atəşkəs ABŞ dərhal gərginliyi azaltmağa, mübahisələri dialoq yolu ilə həll etməyə çağırıb. Onun mövqeyi indi də sülhün elanından çox, atəşkəsin pozulmamasına yönəlib. Yəni təşkilat razılaşmanın qorunmasını daha vacib hesab edir.

Atəşkəsin davamlılığı ilə bağlı narahatlıqlar mövcuddur ki, bu da təəccüb doğurmamalıdır. Sözügedən məqamda “bütün dünyanın səbirlə gözlədiyi sülh” ifadəsini işlətmək faktiki baxımdan hələ erkəndir. Çünki razılaşma daha çox etimad yaratmaq



bazarlarında müsbət reaksiya yaradıb, neftin qiymətini aşağı salıb. Bu baxımdan, Trampın “qələbə” mesajları həm seçici auditoriyasına, həm də enerji bazarlarına verilən siyasi mesaj kimi oxunur.

İran isə razılaşmanı daha fərqli tonda təqdim edir. Tehran atəşkəsi əsasən Hörmüz boğazı üzərindən təhlükəsiz keçid şərti ilə qəbul edib. ABŞ və İran nümayəndələrinin daha sonra İslamabadda görüşməsi planlaşdırılır. Rəsmi Tehran bu mərhələni yekun sülh deyil, əməliyyatların dayandırıldığı müvəqqəti pəncərə kimi görür, yəni məqsəd daha geniş razılaşma üçün zaman qazanmaqdır. Razılaşmanın ən həssas nöqtəsi Hörmüz boğazıdır. Enerji və bazar hesabatlarında bu marşrutun qlobal neft və qaz axınının təxminən beşdəbirini daşıdığı, atəşkəsin isə bu arteriyada təzyiqi azaldaraq bazarları sakitləşdirdiyi bildirilir. Neftin kəskin ucuzlaşması da göstərir ki, razılaşma enerji təhlükəsizliyi ilə bağlı qlobal siqnaldır. Məhz bu səbəbdən Yaxın Şərqdəki gərginlik artıq böyük güclərin enerji maraqlarının toqquşduğu sahəyə çevrilib. Neft və qaz marşrutlarının təhlükəsizliyi, dəniz daşımalarının açıq qalması və qiymət sabitliyi ABŞ, Asiya, Avropa və Körfəz ölkələri üçün eyni dərəcədə həyati əhəmiyyət daşıyır. Bu mənzərədə Hörmüz boğazı qlobal iqtisadi sistemin zəif nöqtəsi kimi görünür.

İsrail amili prosesin içində olsa da, razılaşmanın hüdudları burada tam aydın deyil. Təl-Əviv bir tərəfdən ABŞ-ın İran üzərinə hücumları dayandırmaq qərarını dəstəkləsə də, digər tərəfdən Netanyahu hökuməti açıq şəkildə bildirir ki, fasilə Livana şamil edilmir. Bu detal vacibdir, çünki regionda bir xətt üzrə əldə olunan sakitlik digər cəbhələrdə gərginliyin davam etməsi ilə pozula bilər. Ona görə də Livan məsələsi razılaşmanın ən mübahisəli hissələrindən biri olaraq qalır.

İraqdakı silahlı radikal qrupların mövqeyi də atəşkəsin fonunda diqqət çəkir. “İraq İslam Müqaviməti” kimi bəzi qruplar əməliyyatları dayandırmağa razılaşıb. Bu, tam tərk-silah və ya uzunmüddətli siyasi dönüş anlamına gəlməsə də, müvəqqəti də olsa, silahların kənara qoyulması və hücum ritminin azalması atəşkəsin praktik hissəsini gücləndirir. BMT-nin mövqeyi isə ənənəvi olaraq ehtiyatlıdır. Qurumun yaydığı bəyanatın məzmunu göstərir ki, Baş katib Antonio Quterreş hər zaman tərəfləri

üçün iki həftəlik sınaq fasiləsidir. Hətta atəşkəs elanından sonra belə, İranın və İsrailin bəzi istiqamətlərdə havadan zərbələri davam etdirdiyi, yəni təhlükəsizliyin tam sabitləşmədiyi bildirilir. Bu da onu göstərir ki, razılaşma diplomatik uğur olmaqla yanaşı, həm də kövrəkdir. Xarici analitiklər qeyd edirlər ki, uzunmüddətli sabitliyin əldə olunması üçün daha geniş siyasi çərçivə lazımdır. İranın nüvə proqramı, raket imkanları, regiondakı tərəfdaşları və ABŞ sanksiyaları kimi mövzular hələ masadadır və bunlar həll olunmadan atəşkəs yalnız müvəqqəti xarakter daşıyacaq.

Digər tərəfdən, prosesdə kənar dəstəkləyicilərin rolu danılmazdır. Çünki bundan öncə ABŞ və İsrail növbəti böyük hərbi eskalasiyaya hazırlaşırdı. Qoşunlar hazır vəziyyətə gətirilir, müttəfiqlər isə İrandan sərt cavab gözləyirdilər. Danışıqlar gərgin və xaotik şəraitdə aparılır, Amerikanın təklifləri kəskin tənqid edilir, sənədlər bir neçə dəfə yenidən işlənir, vasitəçilər isə tərəflərin mövqelərini uzlaşdırmağa çalışırdılar. Elə atəşkəs razılığının əldə olunmasında Pakistan, Misir və Türkiyədən olan diplomatlar bu prosesdə mühüm rol oynayıblar. Amma Pakistanın vasitəçi kimi ön plana çıxması, Çin və digər regional aktorların diplomatik çağırışlar səsləndirməsi, eləcə də bəzi Körfəz ölkələrinin Hörmüzdə təhlükəsizliyə dair təşvişinin artması göstərir ki, qarşıdurmanın taleyi təkcə Tehran, Vaşinqton və Təl-Əvivdən asılı deyil. Böyük güclər bir tərəfdən münaqişəni cilovlamağa, digər tərəfdən öz enerji və təhlükəsizlik maraqlarını qorumağa çalışırlar. Bundan əlavə, ABŞ İrana qarşı hərbi əməliyyatlara qayıtmağa hazır olduğunu da gizlətmir.

Əlqərəz, prosesdəki “əmma”lar nəzərə alındıqda, Trampın qələbə çağırışları, Tehranla ehtiyatlı dialoq, İsrailin natamam razılığı, İraqdakı radikal qrupların əməliyyatları azaltması və BMT-nin gərginliyin nəzarətdə saxlanmasına yönəlmiş mövqeyi birlikdə təhlil edildikdə belə nəticə alınır ki, region hələ sülhə çatmasa da, bu yola aparan cığır artıq açılıb. Amma həlledici məsələ yenə eyni qalır. Maraqlıdır, enerji marşrutları, nüvə proqramı və regional təsir uğrunda rəqabət atəşkəsi davamlı sülhə çevirə biləcəkmi? Bunu, çox güman yaxın günlərdə görəcəyik.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Beyləqan Mil düzünün gözüdür

**Beyləqan rayonunda “Şəhərsalma və Memarlıq İli” çərçivəsində həyata keçirilən abadlıq-quruculuq işləri gündən-günə sürətlənir. Ətraf mühitin qorunması, şəhərin estetik görkəminin daha da zənginləşdirilməsi və sakinlər üçün rahat, sağlam yaşayış mühitinin formalaşdırılması məqsədilə görülən tədbirlər rayonun simasına əlavə yaraşıq gətirir.**

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə həyata keçirilən yenidənqurma işləri nəticəsində şəhərin prospekt və küçələri abadlaşdırılıb, yol kənarlarında bordürlər yenilənib, köhnəlmiş hissələr bərpa olunub, ətraf ərazilərdə səliqə-sahman yaradılıb. Şəhərin yaşıllaşdırılmasına da xüsusi diqqət göstərilib, müxtəlif növ ağac və bəzək kolları əkilib, mövcud yaşıllıqlara qulluq göstərilib.

İlin əvvəlindən Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən aparılan aparılan abadlıq-quruculuq tədbirləri çərçivəsində şəhərin küçə və prospektlərində bir sıra asfaltlanma işləri də icra olunub. Belə ki, şəhərin Sərdar İmrəliyev küçəsində yerləşən 60 mənzilli 5 mərtəbəli yaşayış binasının ətrafında, həmçinin Heydər Əliyev prospekti və Akif Əkbərov küçələrinin kəsişməsində yeni asfalt örtüyü döşənib. Görülən işlər nəticəsində ərazidə nəqliyyatın



hərəkəti və sakinlərin rahat gediş-gəlişi üçün əlverişli şərait yaradılıb.

Rayon ərazisində abadlıq-quruculuq işləri tədbirlər proqramına uyğun olaraq davam etdirilir. Mərhələli şəkildə həyata keçirilən bütün bu yeniliklər sakinlər tərəfindən razılıqla qarşılanır.

Bütün bu dəyişikliklər Beyləqanın daha baxımlı, daha cəlbedici və ekoloji baxımdan sağlam bir məkana çevirir. Abadlaşdırılan küçə və məhəllələr, ictimai məkanlar sakinlərin gündəlik həyatına rahatlıq və xoş ovqat bəxş edir. Tam mübaliğəsiz demək olar ki, Beyləqanda görülən hər bir iş təkcə bugünün deyil, həm də gələcəyin qayğısını özündə əks etdirir.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 59 (31028) 9 aprel 2026-cı il, cümə axşamı

## İDMAN

## Qolf Federasiyasının hesabat yığıncağı



**Dünən "Azərbaycan Qolf Federasiyası" İctimai Birliyinin ümumi yığıncağı keçirilib. Mərasimdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov yığıncaq iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb.**

"Azərbaycan Qolf Federasiyası" İctimai Birliyinin prezidenti Rauf Xəlilov çıxış edərək bu idman növünün inkişafı üçün görülən işlərin əhəmiyyətini vurğulayıb. Daha sonra "Azərbaycan Qolf Federasiyası" İctimai Birliyinin 2022–2025-ci illər ərzində görülən işlər barədə hesabatı təqdim olunub. Gündəlikdəki məsələlər təsdiq olunduqdan sonra İctimai Birliyin Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi məsələsi müzakirəyə çıxarılıb və səsvermə nəticəsində yeni redaksiyada qəbul olunub.

Yığıncaqda federasiya rəhbərliyinə seçkilər də keçirilib. Səsvermənin nəticələrinə əsasən, Rauf Xəlilov növbəti 4 il müddətinə federasiyanın prezidenti, Zakir İbrahimov və Anar Əzimov vitse-prezidentləri, Kamran Qasımov, Zaur İbrahimov və Kamal İbrahimov isə İdarə Heyətinin üzvləri seçiliblər.

Nəzarət-Təftiş Komissiyasının iclasında isə Afaq Zeynalova sədr, Nigar İbrahimova və Səmayə Rəsulzadə üzv seçiliblər.

## UEFA Çempionlar Liqasında 1/4 final



**UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinin iki oyunu keçirilib.**

İlk oyun günündə iki qarşılaşma baş tutub. İspaniyanın "Real" klubu doğma meydanda Almaniyanın "Bavariya" komandası ilə üz-üzə gəlib. Daha yaxşı oyun nümayiş etdirən almanlar vacib qələbə qazanıblar–2:1.

İngiltərənin "Arsenal"ı isə səfərdə Portuqaliyanın "Sportinq"indən güclü olub–1:0.

Dünən axşam daha iki oyun keçirilib. Parisdə yerli PSJ İngiltərənin "Liverpul" klubu, İspaniyanın "Barselona" komandası isə "Atletiko" Madridlə üz-üzə gəlib.

Qeyd edək ki, 1/4 final mərhələsinin cavab oyunları aprelin 14-15-də keçiriləcək.

## Yevlaxda cüdo salonu



**Yevlax Olimpiya İdman Kompleksində yeni cüdo salonu fəaliyyətə başlayıb.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, bu münasibətlə təşkil olunan açılış mərasimində Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin rəisi Azad Gözəlov, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Cavad Cavadov, Azərbaycan Cüdo Federasiyası prezidentinin müşaviri Natiq Bağırov və digər rəsmilər iştirak ediblər.

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə yaradılan idman ocağı müasir standartlara uyğun tatamilərlə təchiz olunub. Ümumi sahəsi 200 kvadratmetr olan idman məkanında 200 nəfərin cüdo ilə məşğul olması üçün əlverişli şərait formalaşdırılıb. İdmançıların istifadəsi üçün paltardəyişmə otaqları və digər köməkçi sahələr də nəzərdə tutulub.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Sağlamlıq

# Suçiçəyi – "sadə uşaqlıq xəstəliyi"

### *Təhlükəli olmasa da, ehtiyatlı davranmalıyıq*



**Yazın təravətli nəfəsi şəhərə yayılıb. Parklarda uşaqların səsi, ağacların çiçəklənməsi həyatın yeniləndiyini xatırladır. Amma elə bu canlanmanın içində görünməz bir təhlükə də dolaşır – çoxlarının "sadə uşaqlıq xəstəliyi" kimi qəbul etdiyi suçiçəyi. Halbuki bu xəstəlik təkcə uşaqların deyil, böyüklərin də qapısını döyə bilər və bəzən daha ağır nəticələrlə yadda qala bilər.**

Son günlər Azərbaycanda suçiçəyi xəstəliyinin yayılması ilə bağlı narahatlıq yenidən gündəmə gəlib. Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən verilən məlumata görə, suçiçəyi xəstəliyi mövsümi xarakter daşıyır və adətən, payız-qış aylarında daha çox qeydə alınır. Hazırda ölkə üzrə xəstəliyin kütləvi yayılması halları müşahidə edilmir. Bildirilib ki, mərkəz tərəfindən yoluxucu xəstəliklərin profilaktikası istiqamətində mütəmadi tədbirlər davam etdirilir və epidemioloji vəziyyət daim nəzarətdə saxlanılır. Məlumatda yoluxma riskinin azaldılması məqsədilə vətəndaşlara xəstə şəxslərlə təmasdan çəkinmək, əlləri mütəmadi yumaq, şəxsi gigiyena qaydalarına riayət etmək, xəstəlik əlamətləri müşahidə olunduqda isə vaxtında tibb müəssisələrinə müraciət etmək tövsiyə olunub.

Mövzu ilə bağlı mütəxəssis rəyini öyrəndik. **Həkim-infeksionist-hepatoloq Mərdan Əliyev bildirdi ki,**



suçiçəyi – tibdə varisella kimi tanınan virus infeksiyasıdır və yüksək yoluxuculuğu ilə seçilir: "Xüsusilə uşaqlar arasında çox yayılan bir xəstəlikdir. Suçiçəyi xəstəliyi böyüklərdə az rast gəlinir, çünki xəstəlik çox yoluxucu və daimi immunitet yaratdığı üçün, adətən, uşaqlıq çağında hər kəs bu xəstəliyə yoluxur. Ona görə də böyüklər bu xəstəliyə az həssas olurlar. Belə ki, ya peyvənd olunmaqla, ya da bu xəstəliyi keçirməklə orqanizmdə daimi immunitet yaranır. Xəstəlik xüsusi tip herpes virusları tərəfindən törədilir və bütün bədən üzərində vezikulyar səpgilər olur. Yəni suluqlu, içərisində şəffaf maye olan səpgilərlə müşahidə olunur. Yüngül formalarda bədən temperaturu mülayim gedişli olur və səpgilərin sayı az olur. Xüsusilə ağır formalarda isə səpgilərin sayı daha çox olur və yüksək qızdırma ilə müşayiət olunur. Bu zaman gigiyena qaydalarına riayət edilməli, səpgilər qaşınmamalı və müalicə yalnız həkim nəzarəti ilə aparılmalıdır".

Həkim-infeksionist onu da bildirdi ki, xəstəlik hava-damcı yolu ilə asanlıqla yayılır, xüsusilə kollektiv mühitlərdə – məktəblərdə, ofislərdə, ictimai yerlərdə sürətlə yayılma riski daşıyır. Odur ki, xəstəliyin yayılmasının qarşısını almaq üçün ilkin simptomlar görünən kimi təcrid tədbirləri görülməli, gigiyena qaydalarına ciddi əməl edilməlidir. Xəstə olan şəxslə qəti şəkildə təmasda olmaq olmaz. Əgər toplu yerlərdə bu suçiçəyi xəstəliyi varsa, həmin yerlərə getmək məsləhət deyil.

Bir çox ölkələrdə tətbiq olunan peyvənd suçiçəyinə qarşı effektiv müdafiə vasitəsi hesab edilir. Bu isə xüsusilə böyüklər – xəstəliyi keçirməmiş şəxslər üçün önəmli hesab olunur.

Mütəxəssis daha sonra qeyd etdi ki, suçiçəyi keçirən şəxslərdə daimi immunitet yarandığı üçün onlar bir daha bu xəstəliyə yoluxmurlar.

Sonda onu deyə bilərik ki, xəstəliklər bəzən səssiz gəlir, amma onların nəticəsi çox zaman səsli olur. Suçiçəyi də həmin səssiz təhlükələrdəndir. Hər yoluxma faktı diqqət tələb edir, hər gecikmiş tədbir isə riskləri artırır. Ona görə də bu gün atılan kiçik bir addım – diqqət, maarifləndirmə və məsuliyyət – sabah böyük problemlərin qarşısını ala bilər.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Tarixi Bakı qurultayının yubileyi Daşkənddə də qeyd edildi



**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin birgə təşkilatçılığı ilə "Birinci Türkoloji Qurultay – uzaq keçmişimizdən uzaq gələcəyə" adlı elmi-praktik seminar keçirilib.**

Mərasimi Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin prorektoru, professor Qudratilla Omonov açaraq Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətindən bəhs edib. O, universitetin rektoru, professor Gülçöhrə Rixsiyevanın tədbir iştirakçılarına ünvanladığı təbrik məktubunu səsləndirib.

Sonra Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev çıxış edərək bildirib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay türk xalqlarının alimlərini bir araya gətirərək dil, ədəbiyyat, tarix və mədəniyyət sahəsində yeni mərhələnin əsasını qoyub. Bu qurultay türkoloji tədqiqatların sistemli inkişafına təkan verərək ortaq elmi platformanın formalaşmasına xidmət edib.

Daha sonra çıxış edən Milli Məclis sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov qurultayın tarixi və ideoloji önəminə toxunub. Qeyd edib ki, bu mövzu hazırda aktuallığını qoruyur və Türk dünyasının birliyi baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Birinci Türkoloji Qurultay yalnız eyni dili paylaşan xalqların toplantısı deyil, müxtəlif millətlərin nümayəndələrinin iştirak etdiyi genişmiqyaslı elmi platforma olub", – deyən akademik Rafael Hüseynov vurğulayıb ki, həmin dövrdə alimləri birləşdirən əsas amil türkçülük ideyası olub və bu ideya türkoloji elmin formalaşmasında mühüm rol oynayıb.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova, filologiya üzrə fəlsəfə doktoru, publisist Azər Turan, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, dosent Aynur İbrahimova məruzələrlə çıxış ediblər.

Tədbirdə, həmçinin professorlar Rüstəm Şaripov, Həmidulla Baltabayev, Adhambek Alimbekov, Marufjon Yoldaşov, filologiya elmləri doktoru Salima Rustamiy, dosent Cumali Şabanov və digərləri çıxış edərək Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi düşüncə tarixindəki rolu və bu irsin müasir dövrdə davam etdirilməsi məsələlərindən söhbət açıblar.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**


## AZƏRBAYCAN İDMAN AKADEMİYASI

*AŞAĞIDAKI FAKÜLTƏ DEKANI, PROFESSOR-MÜƏLLİM VƏZİFƏLƏRİNƏ*

MÜSABİQƏ ELAN EDİR

***FİZİKİ TƏRBİYƏ FAKÜLTƏSİ***
Dekan – 1 ştat.

***İDMAN FAKÜLTƏSİ***
Dekan – 1 ştat.

***SAĞLAMLIQ VƏ MENECMENT FAKÜLTƏSİ***
Dekan – 1 ştat.

***MENECMENT VƏ ÜMUMİ FƏNLƏR KAFEDRASI***

Ali riyaziyyat fənni üzrə baş müəllim – 1 ştat.
Xarici dildə (ingilis dili) işgüzar və akademik kommunikasiya fənni üzrə baş müəllim – 2 ştat.

***KOMANDA İDMAN NÖVLƏRİ KAFEDRASI***
Həndbol ixtisası üzrə dosent – 1 ştat.

Sənədlər müsabiqə elan olunduğu gündən bir ay ərzində təqdim edilə bilər. Vəzifə tələbləri ilə bağlı ətraflı məlumat almaq üçün (012)-564- 33 -75 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.

***REKTORLUQ***


## HAVA

## Bakıda əsasən yağmursuz, rayonlarda yağış və dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 8-10, gündüz 14-17 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.**



Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 14-18, dağlarda gecə 3-8, gündüz 8-13 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3109
SİFARİŞ 461
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00